91

# ALİ PEDAQOJİ İNSTİTUTUN SALNAMƏSİ

عالی پداغوژی انستیتوتی
سالنامه سی




*Prof. Fərrux Rüstəmovun təqdimatında*

# ALİ PEDAQOJİ İNSTİTUTUN SALNAMƏSİ

عالی پداغوژی انستیتوتی
سالنامه سی

I Kitab

Q9UK 2691
AŞM
Fənduna qəbul olundu
DK 7292

"Elm və təhsil"
Bakı – 2020

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinə həsr olunur**


**Layihənin rəhbəri:** Cəfər Cəfərov
*ADPU-nun rektoru,*
*tarix elmlər doktoru, professor*

**Tərtib, transliterasiya, izahlar və "Ön söz"ün müəllifi:** **Fərrux Rüstəmov**
*pedaqoji elmlər doktoru, professor,*
*Əməkdar elm xadimi*

**Elmi redaktoru:** **Yaqub Babayev**
*filologiya elmlər doktoru, professor*



**Ali Pedaqoji İnstitutun salnaməsi.** (Tərtib, transliterasiya, izahlar və "Ön söz"ün müəllifi **prof.F.A.Rüstəmov).**
**Bakı, Elm və təhsil, 2020, 176 səh. (+20 səh. şəkil)**


*Məcmuə ilk dəfə 1924-cü ildə Azərbaycan Ali Pedaqoji İnstitutun ilk buraxılışı münasibəti ilə "Ali Pedaqoji İnstitutu salnaməsi" adı ilə nəşr olunmuşdur. Məcmuə"Ali Pedaqoji İnstitutun tarixçəsi", "Təşkilati və idarə işləri","Tərbiyə və tədris işləri","İnstitutun gələcəyi","Bir xatirəcik" bölmələrindən ibarətdir. Məcmuədə məzunlara həsr olunmuş Fatma Tutayevanın "Ali darülmüəllimat məzunlarına ithaf" və Nəsir Quluzadənin "İlk fatehlərə!" şeirləri də verilib.*

*ADPU-nun təşkili və inkişafının ilk mərhələsini öyrənmək baxımından mühüm əhəmiyyət daşıyan məcmuənin transliterasiya edilərək latın qrafikası ilə yenidən nəşri tələbələr, magistrantlar və təhsil tarixçiləri üçün maraqlı olacağına şübhə etmirik.*


4603000000 qrifli nəşr
N-98-2020



© F. Rüstəmov, 2020




## PEDAQOJİ İNSTİTUTUN İLK BURAXILIŞI VƏ YA ÜÇ İLLİK TARİXİN SALNAMƏSİ

### (Ön söz)

XIX əsrin ikinci yarısından Azərbaycanda maarifçilik ideyalarının yayılması ilə baş verən köklü ictimai-siyasi və mədəni dəyişikliklər milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. XX əsrin əvvəllərində milli təfəkkürə və qan yaddaşına, soy-kökünə qayıdış, milli oyanış, özünüdərk, xalqın ruhunda, təfəkküründə yaşayan azadlıq yanğısı gerçək həqiqətə çevrildi. Milli maarifçilər tərəfindən formalaşdırılan milli istiqlal konsepsiyası Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını təmin etdi. Ali təhsilli milli kadr hazırlığı Milli Hökumətin əsas hədəflərindən birinə çevrildi. Bütün maneələrə və çətinliklərə baxmayaraq Bakı Dövlət Universitetini təsis etmək mümkün oldu. Təlim müddəti 4 illik olacaq Ali Pedaqoji İnstitutun açılması planlaşdırılsa da, xarici müdaxilə nəticəsində buna nail olmaq mümkün olmadı.

Azərbaycanda ilk Ali Pedaqoji İnstitut böyük dövlət və siyasi xadimi ***Nəriman Nərimanovun*** 26 avqust 1921-ci ildə imzaladığı 66 saylı dekret[1] əsasında fəaliyyətə başladı. *"Birinci Azərbaycan Dövlət Kişi Pedaqoji İnstitutunun təşkili haqqında"* Azərbaycan Xalq Komissarları Sovetinin 26 avqust 1921-ci il tarixli 66 saylı dekretində deyilirdi: *"Respublikanın vahid əmək məktəbinin ideyalarını həyata tətbiq etməyə qabil yüksəkixtisaslı maarif işçiləri hazırlamaq məqsədilə bu ilin sentyabr ayının 1-dən etibarən Bakı şəhərində II dərəcəli şura məktəbləri üçün türk (Azərbaycan -F.R.) dilində müəllimlər hazırlaya biləcək Azərbaycan Dövlət Kişi Pedaqoji İnstitutu təsis edilsin. İnstitutun təşkilinə həmin dekretin nəşrindən dərhal sonra başlanılsın."*

Hətta Azərbaycan SSR Xalq Komissarları Sovetinin Ali Pedaqoji Kişi İnstitutunun təşkili ilə bağlı müvafiq dekretindən sonra da onun fəaliyyət göstərəcəyinə şübhə ilə yanaşanlar və hətta əks-təbliğat aparanlar da var idi. ***Cavad Cuvarlı*** belələri haqqında yazırdı: ***"Bütün yılan, qurbağa və həşərat dilə gəlib, şöylə dedilər ki, a kişi, bu nə sərsəmlikdir, böylə də iş olarmı? Türk Ali Pedaqoji İnstitutu açıla bilərmi? Dəvə hara, hamam hara? Bu işi apara biləcək müəllimlər, mürəbbilər hanı? Yox-yox! Böylə şey olamaz!"***. Əks qüvvələrin münasibəti ciddi şəkildə tənqid edən ***Fətulla bəy Rzabəyli*** yazırdı: *"Bu anlatır*

[1] "Kommunist" qəzeti, 26 avqust 1921





*ki, bu kimi ədalarda bulunan adamların qəlbi bizim qəlbimizlə çarpmıyor, onların damağı və ruhu əski rus sərvətdar hökumətinin "ruslaşdırma" və sair bu kimi murdar vərasətilə[2] məşbudur[3].Şərəfinə məcmuə verilən bu gün aləvə olaraq bir daha o zatlara diyor:"Azərbaycanda ikinci dərəcəlilər üçün müəllim hazırlayan pedaqoji institutu yaratmaq lazımdır və mümkündür"[4].*

İnstitutun nizamnaməsinin hazırlanması, maliyyə-təsərrüfat xərclərinin və tədris binasının yerinin müəyyənləşdirilməsi məqsədilə təşkilat komitəsinin yaradılması üçün Xalq Maarif Komissarlığının ictimai tərbiyə şöbəsinin müdiri Azad Əmirovun ümumi rəhbərliyi ilə təşkilat komitəsi yaradıldı. Binanın yerinin müəyyənləşdirilməsi təşkilat komitəsinə həvalə edildi. Təşkilat komitəsinin sədri *Fətulla bəy Rzabəyli*, üzvləri *Həbib bəy Mahmudbəyli, Rəhim Cəfərov*, katib isə birillik pedaqoji kurs bitirən *Əli Abbas Vəlixanlı* idi. Təşkilat komitəsinə verilən səlahiyyət daxilində *Abdulla Şaiq Talıbzadə, Məmməd Əfəndiyev* və *Sadıq Hüseynzadə* də təşkilat komitəsinə dəvət edildi[5].

Təşkilat komitəsinin sədri Fətulla bəy Rzabəylinin müəllim kadrları hazırlığnda müəyyən təcrübəsi

[2] miras
[3] doludur
[4] Ali Pedaqoji İnstitutun salnaməsi. Bakı: Xalq Maarif Komissarlığı Azərbaycan Dövlət Xalq nəşriyyatı.1924
[5] Bax: Rüstəmov F.Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları.Bakı, Elm və təhsil, 2019, s.15

var idi. O, 1920-ci ildə müəllim hazırlamaq məqsədilə Bakıda təşkil olunan birillik pedaqoji kursun rəhbəri olmuşdu.Təşkilat komitəsinin sədri Fətulla bəy Rzabəyli tərəfindən institutun ilk düsturüləməli[6] hazırlandı. Bu ilk nizamnamə olsa da, çox mükəmməl idi, institutun sonrakı nizamnamələri onun əsasında hazırlanmışdır. Həmin nizamnamə Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən 13 iyun 1921-ci ildə təsdiq edildi.

Təşkilat komitəsi Bakı darülmüəlliminin[7] binasında (indiki AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun binası) fəaliyyət göstərirdi. Təşkilat komitəsinin ilk iclası 9 iyul 1921-ci ildə keçirildi. İlk iclasda sabiq realni məktəbin, sabiq Müqəddəs Nina məktəbinin, sabiq Marinski qız məktəbinin və ya sabiq parlament binasının instituta tədris binası kimi verilməsi ilə bağlı Xalq Maarif Komissarlığına müraciət edildi. Çox təəssüf ki, həmin binaların heç biri instituta verilmədi.

Təşkilat komitəsinə binanın tapılmasında Bakı maarif şöbəsinin məktəb işləri şöbəsinin müdiri *Ağa Əli Raqibin* böyük köməyi oldu. Onun köməyi ilə Lebedinski döngəsində (Sadavoya, 1-ci Çkalov döngəsi, Niyazi küçəsi, Şövkət Ələkbərova küçəsi) yerləşən 1 №-li Turgenev məktəbi institut üçün boşaldıldı. Həmin binada 1 №-li Turgenev rus məktəbi (direktor Lebkoviç), həm də 7-ci "Mahmud bəy Mahmudbəyov" məktəbi (direktoru Əbdürrəhimov) yerləşirdi. Hər ikisi birinci dərəcəli (ibtidai) məktəb idi. Sonralar həmin məktəb Bakı şəhəri Voroşilov rayon 6 saylı məktəbə (*hazırda Bakı şəhəri 6 saylı məktəb-lisey*) çevrildi. Ali Pedaqoji İnstitut bir ildən artıq həmin binada yerləşdi.

[6] nizamnamə
[7] oğlan pedaqoji məktəbinin köhnə adı





İnstitutda dərs deyə biləcək müəllim heyətinin və tələbələrin azlığı üzündən tədrisə noyabrın 15-də cəmi 6 nəfər tələbə ilə başlandı. İnstituta qəbul olunmuş həmin 6 nəfərdən – *Rəhimzadə Əbdülhəsən* Salyan qəzasından, *Musaxanlı Atababa* Bakı qəzasından, *Axundzadə Vəli* Ağdamdan, *Süleymanzadə Mahmud* və *Mustafazadə Ağaveyis* Göyçay qəzasından, *Ədilzadə Əbdülmüsəvvər* isə Orta Asiyadan gəlmişdi.

Dərslər başlamamışdan əvvəl institutun rəhbər heyəti və dərs deyəcək müəllimlər Xalq Maarif Komissarlığı tərəfindən aşağıdakı tərkibdə təsdiq olunmuşdu: Odessa Universitetini bitirmiş *Fətulla bəy Rzabəyli* institutun direktoru, Tiflis Müəllimlər İnstitutunu bitirmiş *Həbib bəy Mahmudbəyov* direktor müavini, *Abdulla Şaiq Talıbzadə* ədəbiyyat, Peterburq Universitetinin məzunu *Məmməd Əfəndiyev* riyaziyyat, Odessa Universittetinin məzunu *Həmid Şahtaxtinski* pedaqogika və fəlsəfə, Almaniyanın Dapmıştadt ali texniki məktəbini bitirən *Sadıq Hüseynov* kimya, İstanbul Universitetinin məzunu *İsmayıl Novruzi*

fizika və təbiət müəllimi, Leninqrad Ali Pedaqoji İnstitutunun məzunu *V.Pismennaya* isə rus dili ixtisası üzrə müəllim təyin edilmişdilər.

İnstitutda dərslər başlamazdan 3 gün əvvəl, yəni 1921-ci il noyabrın 12-də institut şurasının birinci iclası keçirildi. Şurada dərslərin mütəşəkkil keçirilməsi üçün kollektivin qarşısında duran mühüm vəzifələr müzakirə edildi. Tədris planına uyğun olaraq I tədris ilində tələbələrə riyaziyyat, ana dili, rus dili, rəsm, musiqi və başqa fənlərə dair ümumi məlumat verilməli idi. İkinci kursdan tələbələr ixtisaslar üzrə ayrılırdı. İlk vaxtlar institutda üç ixtisas (tarix-ədəbiyyat, təbiyyat-coğrafiya və fizika-riyaziyyat) üzrə müəllim kadrları hazırlanırdı. Ali Pedaqoji İnstitutda dərslərin 1921-ci ilin noyabrında başlanmasına baxmayaraq tələbə qəbulu davam edirdi.1922-ci ilin yanvarında institutda oxuyan tələbələrin sayı 40 nəfərə çatdı. Birinci tədris ilini bütün tələbələr müvəffəqiyyətlə başa vuraraq yay tətilinə buraxıldılar. Yay tətili müddətində institutun nəzdində 40 nəfərlik pansion təşkil edildi.

İnstitutun birillik təcrübəsi göstərdi ki, tədris planına bir sıra yeni fənlər daxil edilməlidir. 1922/23-cü tədris ilində institutun tədris planına yeni fənlər daxil edildi. Elə həmin tədris ilinin ikinci yarısında Ali Pedaqoji Kişi İnstitutu keçmiş realni məktəbin binasına (indiki Azərbaycan Dövlət İqtisad Universitetinin əsas binası) köçürüldü. Tələbələrin sayı artdığından əvvəlki bina tələbatı ödəmirdi. İnstitutun ilk məzunlarından olan Hacıbala Hacıyev xatirələrində yazırdı: *"Bina şəraitinin genişlənməsi, tədris avadanlığı ilə təmin olunması və biologiya, insan anatomiya və fiziologiyası, botanika və kimya kabinet-laboratoriyaları təşkil edildi. Bu binada tədris korpusu, yataqxana, yeməkxana, nümunəvi məktəb* (Şaiq adına nümunə məktəbi nəzərdə tutulur - F.R.) *və bir çox müəllimlərin mənzilləri yerləşirdi.*[8] Həmin bina Ali Pedaqoji Kişi İnstitutu, Ali Pedaqoji Qadın İnstitutu və fəhlə fakültəsi arasında bölünmüşdü.





Binada bir müddət əsgərlər qaldığından təmirə ehtiyacı var idi. Təmir məqsədilə 16 min rubl. vəsait ayrılmışdı. Bina yay aylarında təmir edildi, laboratoriyalar və fənn kabinetləri yaradıldı.

Tədris planına yeni fənlərin daxil edilməsi və tələbələrin sayının artması ilə əlaqədar olaraq antropologiya və rus dili üzrə Novorossiysk İmperator Universitetinin məzunu *Davud Şərifli*, siyasi iqtisad üzrə *Hüseyn Mirzəcamalov*, anatomiya üzrə Kazan Universitetini bitirən *Fətullah Əlizadə*, rəsm üzrə Fransa Rəssamlıq Akademiyasını bitirən *Kelxuc*, dilçilik üzrə prof.*Bəkir Çobanzadə*, musiqi üzrə *Manlyan*, fizikadan təcrübə məşğələləri üzrə *H.Berq*, fizika ixtisası üzrə Kazan Universitetini bitirən *Rəhim bəy Məlikov* (o, Şi-

---

[8] Hacıyev H. Mənim tələbəlik illərim. "Gənc müəllim" qəzeti, 26 fevral 1973

mali Qafqazda işləyirdi), siyasi iqtisad üzrə Azərbaycan SSR Xalq Maarif Komissarının müavini *Mustafa Quliyev*, ictimaiyyat üzrə Kiyev Universitetinin məzunu *Cəlil Məmmədzadə*, anatomiya üzrə Odessa Universitetinin məzunu *Mirəsədulla Mirqasımov*, botanika üzrə Peterburq Ali Qadınlar kursunun məzunu *Səlimə xanım Osmanzadə*, fars dili üzrə Paris Universitetini bitirən *Mirzə Möhsün İbrahimi*, psixologiya və məntiq üzrə Tiflis Aleksandrovski Müəllimlər İnstitutunu bitirən *Abdulla Azaqbəyli*, coğrafiya üzrə *Süleyman Səlim* və *B.Qarbulum* müəllimliyə dəvət olundular. Azərbaycan hökumətinin dəvəti ilə Bakıya gələn türk ədəbiyyatı tarixi müəllimi *İsmayıl Hikmət*, pedaqogika və pedaqogika tarixi müəllimi *Xəlil Fikrət*, İstanbul Universitetinin tarix və ədəbiyyat şöbəsinin məzunu *Məhiyəddin*, tanınmış türk təbiətşünas alimi *İsgəndər Abuzalımov* da Ali Pedaqoji İnstitutda müəllim kadrları hazırlığına cəlb olundular.

Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən Azərbaycan Dövlət Universitetində işləmək üçün dəvət edilən görkəmli rus alimləri - akademiklər İ.Meşşanov, B.Bartold, N.Marr, A.Samoyloviç, prof.P.Juze və b. həm də Ali Pedaqoji İnstitutda mühazirələr oxuyurdular.

Ali Pedaqoji İnstituta tələbə qəbulu Xalq Maarif Komissarlığının təsdiq etdiyi qaydalara uyğun aparılırdı. 28 iyun 1922-ci ildə Xalq maarif komissarı Mustafa Quliyevin sərəncamı ilə *"1922/23-cü tədris ilində Azərbaycan SSR ali məktəblərinə tələbələrin qəbul qaydaları"* təsdiq edilmişdi.[9] Orada qeyd olunurdu ki, ali məktəblərə II dərəcəli vahid əmək məktəblərini bitirmiş şagirdlər, fəhlə fakültələrinin və seminariyaların məzunları qəbul oluna bilər. Sənəd qəbulu 15 iyuldan 20 avqusta qədər XMK-nın nəzdində fəaliyyət göstərən xüsusi komissiya tərəfindən aparılırdı. Tələbə seçimi 5 sentyabra qədər davam edirdi. Vakant yerlərə 15 sentyabra kimi ərizə vermək olardı. Qəbul üçün şəxsin orta təhsil haqqında sənədi, türk (Azərbaycan) dilini bilməsi (türk dilində danışmağı və yazmağı bacarmasını yoxlamaq üçün komissiya tərəfindən xüsusi gün və saat müəyyənləşdirilmişdi), müvafiq qurum və təşkilatların (Azərbaycan KP MK, AHİŞ, hərbi hissə) göndərişi tələb olunurdu. Sənəd verənlərin sayı vakant yerlərdən çox olanda, üstünlük birinci növbədə türk dilini bilənlərə, sonra fəhlə fakültələrinin məzunlarına, daha sonra isə Azərbaycan KP MK, AHİŞ və hərbi hissələrin göndərdikləri nümayəndələrə verilirdi.

İkinci tədris ilində instituta Azərbaycandan və digər respublikalardan 41 nəfər tələbə qəbul edildi. İnstitutun yenicə fəaliyyətə başlamasına baxmayaraq, şəxsən Azərbaycan SSR İnqilab Komitəsinin sədri N.Nərimanovun köməyi sayəsində institutda bir neçə kabinə və laboratoriya yaratmaq mümkün olmuşdu. Onun göstərişi ilə Ali Xalq Təsərrüfatı Şurasının nəzdində olan kimya laboratoriyası bütünlüklə Ali Pedaqoji Kişi İnstitutuna verilmişdi. İnstitu-





---

[9] Газ. «Бакинский рабочий» 10 июля 1922

tun kimya və fizika laboratoriyalarında 120 tələbənin təcrübə aparması üçün imkan var idi. İnstitutun ilk məzunlarından olan Hacıbala Hacıyev xatirələrində yazırdı:"*F.Rzabəyli ilə birlikdə mənə də N.Nərimanovla görüşmək nəsib olmuşdur. Biz institutun kimya avadanlığı ilə təmin edilməsini xahiş etdik. Az sonra keçmiş neft sahibkarlarına məxsus olan zəngin bir kimya laboratoriyasının instituta verilməsi haqqında qərar çıxarıldı. N.Nərimanov həftədə bir-iki dəfə instituta gələr, yeni təşkil olunmuş kabinet və laboratoriyaları nəzərdən keçirər, tələbələrin geyim və yeməklərinə diqqət yetirər və təsərrüfat hissəsinə müəyyən tapşırıqlar verərdi*"[10].

Azərbaycan KP MK və Xalq Komissarları Soveti ilk pedaqoji institutun möhkəmləndirilməsi və genişləndirilməsi üçün ona hərtərəfli kömək göstərirdi. Respublika ali məktəbləri içərisində Ali Pedaqoji Kişi İnstitutunda tədris ana dilində aparıldığından rəsmi dövlət orqanları tərəfindən daha çox diqqət mərkəzində idi. Hələ 1921-ci ildə institutun direktoru Fətulla Rzabəyli Xalq Maarif Komissarlığının Kollegiyasında hesabat verərkən Xalq maarif komissarının müavini Mustafa Quliyev institutun qarşısında duran vəzifələri şərh edərkən demişdi:"*Pedaqoji İnstitut Azərbaycanda yeganədir. O, yalnız biz azərbaycanlıların deyil, bütün məhkum Şərq xalqlarının mədəni-maarif qayələrini təmin etməlidir*".

[10] Hacıyev H. Mənim tələbəlik illərim. "Gənc müəllim" qəzeti, 26 fevral 1973





1923/24-cü tədris ilində institutda tarix və etnoqrafiya muzeyi yaradıldı. İnstitut təşkil olunduğu günlərdə onun kitabxanasında Azərbaycan dilində 50, başqa dillərdə isə cəmi 73 kitab vardısa, az sonra Moskvadan və başqa şəhərlərdən alınan tədris ədəbiyyatı hesabına kitabxanın fondu xeyli zənginləşdirildi. İstanbuldan türk dilində 700-ə qədər kitab, Moskvadan fizika kabinəsi üçün yeni cihazlar gətirilmişdi. Kimya laboratoriyasında və təbiət kabinəsindəki avadanlıqların da sayı xeyli artmışdı.

Hökumət institutun maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə ona hərtərəfli yardım göstərirdi. İnstitutun maliyyə-təsərrüfat işinin yaxşılaşdırılması üçün 1923/24-cü tədris ilində Azərbaycan SSR Xalq Komissarları Soveti və Xalq Maarif Komissarlığı xətti ilə institutun tədris və təsərrüfat işlərinə 112 min 69 manat vəsait ayırmışdı. Tələbə kontingentinin sayı artdıqca tədris və təsərrüfat işlərinə ayrılan vəsait də ildən-ilə artırdı.

1923/24-cü tədris ilində institutda 1 ümumi hazırlıq sinfi, 6 ixtisas sinfi (2 riyaziyyat, 2 ədəbiyyat, 2 təbiyyat) vardı. İnstitutda oxuyan tələbələrin ümumi sayı 100 nəfərə çatmışdı. Üçüncü ədəbiyyat şöbəsində 6, riyaziyyat şöbəsində 9, təbiyyat şöbəsində 14, ikinci ədəbiyyat şöbəsində 9, riyaziyyat şöbəsində 8, təbiət şöbəsində 12, birinci ümumi təhsil şöbəsində

41 nəfər tələbə təhsil alırdı. Məktəbin nəzdində Şaiq Nümunə məktəbi fəaliyyət göstərirdi.

1923/24-cü tədris ilində Azərbaycan ali pedaqoji təhsil tarixində mühüm hadisə baş verdi. Həmin tədris ilinin sonunda Ali Pedaqoji Kişi İnstitutunun 28 nəfərdən ibarət ***ilk buraxılışı*** oldu.

Məzunlara institutu bitirmələri ilə bağlı Şəhadnamə təqdim edildi. Şəhadətnamədə iki dildə (Azərbaycan və rus dillərində) şəxsin neçənci ildə harada anadan olması, hansı fakültəni, hansı dərəcə ilə neçənçi ildə bitirməsi, hansı imtahanları verməsi, harada işləyə bilməsi (ikinci dərəcəli məktəblər, pedaqoji və sənaye texnikumları, işçi fakültələri, kəndli gənclər məktəbi və s.) yazılmışdı. Şəhadətnaməni[11] institutun rektoru, fakültə dekani və katib imzalamışdı.

Şəhadətnamənin yuxarı hissəsində yazılırdı: *ASŞC. Xalq Maarif Komissarlığı. Ali və sənət məktəbləri. Baş müdiriyyəti. Azərbaycan Dövləti Ali Pedaqoji İnstitutu.* Möhürün içərisində ay, oraq-çəkicli 5 guşəli ulduz, yan dairədə Azərbaycan və rus dillərində *"Bütün ölkələrin proletarları birləşiniz"* sözləri yazılmışdır.

İlk dəfə ali pedaqoji təhsil haqqında Şəhadətnamə almaq aşağıda adları göstərilən məzunlara nəsib oldu.

[11] Maraqlıdır ki, institutla bağlı bütün sənədlərdə direktor və ya müdir sözündən istifadə edildiyi halda, yalnız Şəhadətnamədə rektor sözündən istifadə edilmişdir.





| № | Adı və soyadı | Məzun olduğu şöbə | Haradan gəlib |
|---|---|---|---|
| 1 | Axundzadə Vəli | təbiyyat | Ağdam |
| 2 | Əhmədbəyli Əli Ağa | təbiyyat | Lənkəran |
| 3 | Əfəndizadə Əbdülrəşid | təbiyyat | Nuxa |
| 4 | Əfəndizadə Neman | təbiyyat | Göyçay |
| 5 | Bayramzadə Məhəmməd | təbiyyat | Nuxa |
| 6 | Bağırzadə Məhəmməd | ədəbiyyat | Gəncə |
| 7 | Cəfərzadə Həsən | təbiyyat | Gəncə |
| 8 | Hacızadə Hacıbala | təbiyyat | Qazax |
| 9 | Hacızadə Vahid | təbiyyat | Zaqatala |
| 10 | Hüseynzadə Surxay | təbiyyat | Şuşa |
| 11 | Rəhimzadə Əbdülhüseyn | təbiyyat | Salyan |
| 12 | Rzazadə Rza | təbiyyat | Şamaxı |
| 13 | Rzazadə Həsənəddin | riyaziyyat | Tiflis |
| 14 | Zeynalzadə Zeynal | riyaziyyat | Şamaxı |
| 15 | Süleymanzadə Məhəmməd | riyaziyyat | Göyçay |
| 16 | Şərəfəddin Seyidaləm | ədəbiyyat | Daşkənd |
| 17 | Şahverdili Teymur | ədəbiyyat | Lənkəran |
| 18 | Qasımzadə Qafur | təbiyyat | Bakı |
| 19 | Abdizadə Cami Əkrəm | təbiyyat | Quba |
| 20 | Abdihzadə Tahir | təbiyyat | Kazan |
| 21 | Abdihzadə Məhəmməd | təbiyyat | Kazan |
| 22 | Abdihzadə Əli | təbiyyat | Ağdam |
| 23 | Ədilzadə Əbdülmüsəvvər | riyaziyyat | Daşkənd |
| 24 | Məhəmmədzadə Vəli | riyaziyyat | Ağdam |
| 25 | Mədədzadə Məhəmməd | təbiyyat | Qazax |
| 26 | Mustafazadə Ağaveys | riyaziyyat | Göyçay |
| 27 | Musaxanlı Atababa | ədəbiyyat | Bakı |
| 28 | Nəcəfqulubəyzadə Nəsir | riyaziyyat | Ağdam |

İnstitutda ilk məzun günü çox təntənəli şəkildə keçirildi. Azərbaycan Xalq Maarif Komissarlığının, tanınmış elm adamlarının və institutun müəllimlərinin iştirakı ilə keçən məzun günündə öncə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri olan ***Nəriman Nərimanovun*** Azərbaycan Ali Pedaqoji İnstitunun ilk məzunlarına - elmlərini yeni tamam etmiş müəllimlərə açıq məktubu oxundu. (***Bax***: s.110-111). Sonra Azərbaycan SSR Xalq Maarif Komissarı ***Mustafa Quliyev***in Azərbaycan Ali Pedaqoji İnstitunun ilk məzunlarına təbrik məktubu (***Bax:*** s.112-113) iştirakçıların nəzərinə çatdırıldı.

Azərbaycan SSR XMK-nın Kollegiyasının 1924-cü il 24 may tarixli iclasının qərarı ilə institutu bitirənlərdən 3 nəfəri Bakı kişi seminariyasına, 3 nəfəri Gəncə, 2 nəfəri Şuşa, 2 nəfəri Qazax, 1 nəfəri Naxçıvan seminariyasına, qalanları isə digər maarif müəssisələrinə işə göndərildi.

Azərbaycan SSR XMK Kollegiyasının 1923-cü il 3 aprel tarixli qərarı ilə 1924/25-ci tədris ilindən etibarən Ali Pedaqoji Kişi İnstitutu və Ali Pedaqoji Qadın İnstitutu ilə inzibati cəhətdən birləşdirildi. İnstitut inkişafının ikinci mərhələsinə qədəm qoydu. Təəssüf ki, qısa bir müddətdən sonra institutun müstəqil fəaliyyətinə son qoyuldu, o Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsi ilə birləşdirldi. Ali Pedaqoji İnstitutun təşkilatçıları və ilk müəllimləri üç il müddətində Azərbaycanda milli kadr hazırlığını həyata keçirən ali təhsil müəssisəsi yarada bildilər, institut üçün bina tapdılar, müəllim kollektivi formalaşdırdılar, laboratoriya, kitabxana, muzey təşkil etdilər, institutun ilk buraxılış gecəsini təntənəli şəkildə keçirtdilər. Bu günümüz üçün olduqca dəyərli mənbə olan ***"Ali Pedaqoji İnstitutun salnaməsi"*** (1924), iki il sonra isə ***"Ali Pedaqoji İnstitut-5 il"*** məcmuələrini nəşr etdirdilər. Həmin mənbələr bir əsrlik tarix yazan Pedaqoji Universitetin təşəkkülü və inkişafının ilkin mərhələsini öyrənmək baxımından olduqca dəyərlidir.





***"Ali Pedaqoji İnstitutun salnaməsi"*** məcmuəsi məzunlara müraciətlə açılır: *"Yavrular!.. Pedaqoji İnstitutu sizi tərbiyə etdi; böyütdü və ruhani qida ilə bəslədi. İnstitut sizin ananızdır. Ananızı odlu qəlbinizlə sevmək, göz bəbəyi kimi barındırmaq, onun hər hangi məsum və səmimi, pak və munis baxışlarını yenə eyni şeylə isitmək, yaşadığınız hər saniyədə onun haqqını düşünmək, sizin müqəddəs və təmiz vəzifənizdir. Şimdi siz, onun və ancaq onun inkişafına, əbədiyyətlə yaşamasına, böyüməsinə, yüksəlməsinə deyil, Azərbaycan, bəlkə, bütün şərq-türk zəhmətkeşlərinə işıq saçar bir məşəl olmasına, proletar kütləsinə xidmət etmək istəyən bəşəriyyətin pak və ali ideallari uğrunda çarpışacaq, bin-bin sizlər kimi gənc ruhlu müəllimlər yetişdirməsinə səbəb olunuz!... 14 mayıs 1924"*

İlk bölmə ***"Ali Pedaqoji İnstitutun tarixçəsi"*** adlanır. İnstitutun ilk direktoru *Fətulla bəy Rzabəylinin* "Azərbaycan birinci dövlət türk Ali Pedaqoji İnstitu-

tunun açılış tarixçəsinə dair", *A.Lukyanovanın* "Ünas Ali Pedaqoji İnstitutunun surət-i təşkili və davamı" və Nümunə məktəbinin müdiri *Qafur Əfəndizadənin* məruzəsi əsasında tərtib olunmuş "Nümunə məktəbinin tarixçəsi" məqalələri verilmişdir.

Məcmuənin ***"Təşkilati və idarə işləri"*** adlı ikinci bölməsində *Səfər Ramazanzadənin* "Ali Pedaqoji İnstitutun tələbə təşkilatı", *Feyzi Məhəmmədzadənin* "İnstitutun Kommunist Gənclər İttifaqı özəyi", "Nümunə məktəbinin təşkilat və idarəsi" məqalələri öz əksini tapmışdır.

Məcmuənin ***"Tərbiyə və tədris işləri"*** adlı üçüncü bölməsində "Ali Pedaqoji İnstitutun Ədəbiyyat şöbəsində nümunə dərsləri" (*İ.Hikmət*), "Ali Pedaqoji İnstitutu 1923-24 sənəsi hikmət-riyaziyyat şöbəsində riyaziyyatdan yapılan tətbiqat dərsləri haqqında izahat" (*M.Əfəndizadə*), "Təbiət şöbəsində nümunə dərsləri" (*E.Rəhimov*), "Ali Ünas Pedaqoji İnstitutunda tərbiyə işləri" (*A.Lukyanova*), "Müvəffəqiyyətin sirləri" (*X.Fikrət*) verilmişdir.

Məcmuənin ***"İnstitutun gələcəyi"*** bölməsində *Nəriman Nərimanovun* "Elmlərini yeni tamam etmiş müəllimlərə açıq məktub"u, Xalq maarif komissarı *Mustafa Quliyevin* "Məzunlara xitab" adlı təbrik məktubu verilib. Həmin bölmədə *A.Əfəndizadənin (Azaqbəyli)* "İctimai həyatda ali pedaqoji təhsilin və azərilər üçün Azərbaycan Ali Pedaqoji İnstitutunun əhəmiyyəti", *E.Rəhimovun* "Doğru vədələr", *Abdulla Şaiq*





*Talıbzadənin* "İnstitut və Azərbaycan" yazıları yer alıb. Məcmuədə institutun fars ədəbiyyatı tarixi müəllimi *Mirzə Möhsünün* "Məzun talibə və tələbələrə bir xatirə", Təbiət şöbəsinin məzunu *Əbdülrəşid Əfəndizadənin* "Məsul vəzifə qarşısında", Ədəbiyyat şöbəsinin məzunu *H.Surxayın* "Vəzifəmiz" yazıları da yer alıb.

Məcmuənin ***"Duyğular və xatirələr"*** bölməsində *Fatma Tutayevanın, İsmayıl Novruzinin, Qafur Rəşadın, Heydər Verdiyevin, Cavad Cuvarlının, Xədicə Qazızadənin, Sübhanverdi Xanzadənin, E.Tahizin və Atababa Musaxanlının* məzunlara təbrikləri verilib, xatirələr paylaşılıb. Məcmuədə məzunlara həsr olunmuş iki şeir də yer alıb: "Ali darülmüəllimat məzunlarına ithaf" (Fatma Tutayeva), "İlk fatehlərə!" (Nəsir Quluzadə).

1921-1924-cü illərdə Ali Pedaqoji İnstituta onun əsas təşkilatçılarından biri olan ***Fətulla Rzabəyli*** rəhbərlik etmişdir. Nəriman Nərimanovun təklifi ilə o, 1924-cü ildə Xalq Maarif Komissarlığında Baş İctimai Tərbiyə İdarəsinə müdir vəzifəsinə irəli çəkildikdən sonra institutun direktoru vəzifəsinə ***Məmməd Əfəndiyev*** təyin olunmuşdu.

Ali Pedaqoji İnstitutun təməl daşını qoyanlar üç il müddətində *ali təhsilli müəllim kadrları hazırlığında möhtəşəm işlər gördülər, tarix yaratdılar və həm də onun tarixini yazdılar, "Ali Pedaqoji İnstitutun salnaməsi" adı ilə bizə dəyərli miras qoydular.*

AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutundan, M.F.Axundov adına Milli Kitabxananın "Azərbaycan kitabı" şöbəsindən əldə etdiyimiz "Ali Pedaqoji İnstitutun salnaməsi" məcmuəsinin Pedaqoji Universitetin kitabxanasında və arxivində bir nüsxəsi belə yoxdur. Məcmuənin əski əlifba ilə nəşr olunması, mətnlərdə külli miqdarda ərəb və fars sözlərindən istifadə edilməsi indiki oxuçular üçün əlçatan deyil. Bu səbəbdən də ADPU-nun bir əsrlik yubileyi ilə əlaqədar olaraq 1924-cü ildə nəşr edilən "Ali Pedaqoji İnstitutun salnaməsi" məcmuəsini transliterasiya etməklə latın qrafikası ilə nəşr etməyi vacib hesab etdik.

Kitabın ərsəyə gəlməsində dəyərli məsləhətlərini əsirgəməyən layihənin rəhbəri, ADPU-nun rektoru, prof.*Cəfər Cəfərova,* elm və innovasiyalar üzrə prorektor prof.***Asəf Zamanova,*** kitabın elmi redaktoru prof.***Yaqub Babayevə,*** AMEA-nın Şərqşünaslıq İnstitutunun Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin elmi işçisi, tarix üzrə fəlsəfə doktoru ***Yaxşıxanım Nəsirovaya*** təşəkkürümü bildirirəm.

***Fərrux Rüstəmov***

*ADPU-nun İbtidai təhsil fakültəsinin dekani, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi, Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü, akademik Mehdi Mehdizadə, "Gənc alimlər" və "Qızıl Qələm" mükafatları laureatı*





***Bütün dünya proletarları birləşiniz!***

# Ali Pedaqoji İnstitutu salnaməsi

## İllik sayı

**Azərbaycan Dövləti Türk Ali Pedaqoji İnstitutu üç sənəliyi və ilk məzunları dolayısı ilə nəşr olunur**

*Xalq Maarif Komissarlığı*
*Azərbaycan Dövlət Xalq nəşriyyatı*
**1924**
**Bakı**

**Yavrular!..**

Pedaqoji İnstitutu sizi tərbiyə etdi; böyütdü və ruhani qida ilə bəslədi. İnstitut sizin ananızdır.

Ananızı odlu qəlbinizlə sevmək, göz bəbəyi kimi barındırmaq, onun hər hangi məsum və səmimi, pak və munis baxışlarını yenə eyni şeylə isitmək, yaşadığınız hər saniyədə onun haqqını düşünmək, sizin müqəddəs və təmiz vəzifənizdir. Şimdi siz, onun və ancaq onun inkişafına, əbədiyyətlə yaşamasına, böyüməsinə, yüksəlməsinə deyil, Azərbaycan, bəlkə, bütün şərq-türk zəhmətkeşlərinə işıq saçar bir məşəl olmasına, proletar kütləsinə xidmət etmək istəyən bəşəriyyətin, pak və ali idealları uğrunda çarpışacaq, ***bin-bin sizlər kimi gənc ruhlu müəllimlər*** yetişdirməsinə səbəb olunuz!...

**14 mayıs 1924**





# ALİ PEDAQOJİ İNSTİTUTU TARİXÇƏSİ

## Azərbaycan birinci Dövlət Türk Ali Pedaqoji İnstitutunun açılış tarixçəsinə dair

Hələ Müsavat hökuməti zamanı məktəblərin millləşməsinin həyata tətbiqi türk müəllimlərinin ruhundan doğan bir hiss və sevinclə qarşılandı. Türk balalarının kəndi ana lisanında təlim və tərbiyə görmələrinin pedaqoji əhəmiyyətini və Azərbaycan türklərinin bu sahədə nə qədər uzaqlarda qaldığını türk müəllimliyi, əlbəttə, qayət iyi görüyor və düşünüyordu.

Türk məktəblərində təlim və tədris məsələlərini lazımi dərəcədə qaldırmaq üçün müəllimlər hazırlamaq icab[12] ediyordu. Bu da qısa müddətli pedaqoji kursların açılması ilə qismən təlafi[13] ediliyordu. Həmən kurslar Azərbaycan şuralaşdığı zamanlarda qüvvətlənməyə başladı.

1920 sənəsində türk, rus və erməni məktəblərinə müəllimlər hazırlamaq üçün Bakıda təşkil olunan bir

[12] lazım
[13] əvəzini ödəmə

sənəlik pedaqoji kurslarının təsisi projesini bu məruzədə göstərməyi artıq və faydasız görmüyorum. Müəssislər məzkur kursların küşadını[14] vaxtilə Azərbaycanda türk institutunun açılmasına bir zəmin ədd[15] ediyorlardı.

İştə söylənilən proje:

"Məktəblərin milliləşməsinin həyata tətbiqinin ilk günlərində türk məktəbləri, burada tədris edə biləcək lazımi qədər hazırlıqlı müəllimlərin azlığından axsayaraq getdiyi və gənc türk məktəblərinin xalqın rəğbət və simpatiyasını qazanamadığı iyicə görülürdü. Yeni milliləşmiş məktəblər şimdi də eyni vəziyyətlə yaşıyor və lazımi tədbirlər görülmədiyi təqdirdə çox fəna nəticələr verəcəyi təbiidir.

Yeni məktəblərimizi doğru və aydın yola çıxarıb qeyri-adi vəziyyətinə son verən tədbirlərin ən sağlamı Azərbaycanda türk pedaqoji institutunun açılması məsələsidi. Fəqət, hal hazırda türk ana lisanında tədris edə biləcək dərəcədə hazır və müqtədir[16] müəllimlərin yoxluğu bu məsələnin birdən-birə həyata keçirilməsinə imkan vermiyor. Bununla belə bu acı vəziyyətə qarşı yabançı qalamazdıq. Milli məktəblərin məruz qaldığı fəna vəziyyətlərini bərtərəf[17] üçün sənəlik pedaqoji kursları açılması ehtiyacı əşəd[18] dərəcədə lazım gəlir. Bu kurslardan məqsəd birinci dərəcəlilərin iki son qruplarında və ikinci dərəcəlilərin iki əvvəlinci qruplarında tədris edə biləcək müəllimlər hazırlamaqdı. Kurs müdavimləri məktəbdə oxudacaqları dərsləri burada nəzəri və tətbiqi olaraq hazırlamalı idilər. Bundan əlavə kəndi məlumatlarını doldurmaq üçün ümumi pedaqoji məlumata dəxi artıq dərəcədə ehtiyacları vardı".

Tərtib edilən bu proje Rzabəyli tərəfindən Xalq Maarif Komissaralığı kollegiyasına təsdiq üçün verilir. 1920 sənəsinin 17 noyabrında proje kollegiya tərəfindən təsdiq edilir və təcili olaraq kursların təşkilinə şüru[19] olunur.

Bakı Darülfünunu binasında kurslara bir kaç oda verilmişdi. Günüzləri (gündüzləri) məktəblərdə çalışan müəllimlərin kurslardan məhrum qalmaması məqsədilə dərslər axşam gedirdi. Qəza maarif şöbələri tərəfindən göndərilmiş müdavimlər üçün iki şöbədən ibarət internat təşkil edilir ki, birisi qadınlara, digəri erkəklərə məxsus idi.

Kursların adminstrativ-pedaqoji personalını göstərməyi lazım görüyorum.

Zira bunların da institut təsisində xidmətləri olmuşdur:

1) Kursların müdiri – Rzabəyli
2) Müdir müavini – Mahmudbəyli
3) İkinci müavin – Cəfərov

[14] açılış
[15] saymaq, hesab etmək.
[16] bacarıqlı, gücü çatan, güclü
[17] aradan qaldırmaq, qarşısını almaq
[18] şiddətli, daha sərt
[19] başlamaq

**Müdərrislər**[20]:

1) Əfəndizadə Abdullah
2) Əfəndizadə Məhəmməd
3) Talıbzadə Abdullah Şaiq
4) İbrahimov Mirzə Möhsün
5) Mirza Camalov Hüseyn
6) Əfəndizadə Yusif
7) Hüseynzadə Sadıq
8) Adiyev Məhəmməd Əli
9) Yeremeyev
10) Qatquşin
11) Boqoslovski
12) Almeforov
13) Zeyferet
14) Dubrovin
15) Tağı Unusof
16) Xanzadyan
17) Teteryan
18) Qaziyans
19) Ter-Qriqoryan
20) Ter-Andrasyan
21) Qara Mirzə

Kurslarda 150 nəfər müdavim vardı. Müdavimlər üç seksiyaya bölündülər: *türk, rus* və *erməni* seksiyaları. Hər hangi şöbə dərsləri hər seksiyanın ana dilində tədris olunurdu. Kursları bitirdikdən sonra müdavimlər müəyyən şəhadətnamələr ilə təmin edildilər.

[20] mədrəsə və ya məktəbdə dərs verən





Bu sənəlik kursların təşkilatı Azərbaycanda Ali Pedaqoji İnstitutu təşkili üçün bir özül idi. Həqiqətən, türk müəllimlərini türkcə tədris etməyə cəlb etmək və internat təsisi institut üçün həp birər hazırlıq idi. Kurslar qapanana[21] kimi institutun iş planının mühüm qismi hazır idi; onun üçün də məncə məzkur kurslar institut tarixində birinci yer tutmalıdır.

Həmin sənənin iyun ayında ***Azərbaycan Dövləti Türk Zükur***[22] ***Ali Pedaqoji İnstitutunun*** aşağıda göstərilən *düsturüləməli*[23] Fəthulla Rzabəyli tərəfindən tərtib və tənzim edilir:

**Azərbaycan Dövlət-i Türk Zükur Ali Pedaqoji İnstitutu**

**I. Ümumi qism**

1. Azərbaycan birinci Dövləti Türk Zükur Ali Pedaqoji İnstitutu, kəndilərini pedaqoji fəaliyyətləri ilə təchiz etmək istəyən gənc türk vətəndaşlarına ətraflı pedaqoji təhsilini vermək məqsədini təqib ediyor[24].

[21] bağlanana
[22] kişi
[23] nizamnamə
[24] nəzərdə tutur

2. İnstitutda tədris ***dövləti türk dilində*** aparılıyor.

3. İnstitut ikinci dərəcəli məktəblər üçün mükəmməl hazırlıqlı müəllimlər buraxıyor.

4. İnstitut Xalq Maarif Komissarlığının təsvibi[25] ilə müdir tərəfindən idarə ediliyor.

5. İnstitutda institut tələbələri üçün internat vardır.

6. Tələbələr tətbiqat dərsləri vermək üçün institut nəzdində (müttəhid[26] məsai məktəbinin ümumi vəziyyəti əsası üzrə) 2-ci dərəcəli nümunə məktəbi təsis ediliyor.

## II.Tədrisat qismi

7. Tələbələr 2-ci dərəcəli müttəhid[27] məsai məktəbində yeni tədris məsələlərilə əlaqədar olaraq dərs apara bilmək üçün fənni təhsil və düzgün hazırlıq görməlidirlər.

8. İnstitut 3 sinifdən ibarətdir: birinci, ümumi və ancaq nəzəri təhsil, 2 sonuncu isə ixtisasi və tətbiqi (pratik) siniflərdir.

9. İxtisas siniflər işbu qruplara ayrılıyorlar:

a) Tarix-ədəbiyyat

b) Təbiət-coğrafiya

c) Fizik-riyaziyyat

10. İnstitutda sənəyi-tədrisiyə (akademik sənəsi) 40 həftə olmalıdır.

[25] uyğun, münasib görmək,

[26] birlikdə, birləşmiş

[27] birləşmiş





Qeyd: İnstitut tələbələri yay tətilinə buraxılıyorlar.

11. İnstitutda atidəki[28] dərslər oxuduluyor:

1. Ana dərslər
2. Fəlsəfə (məntiq, ruhyat, tarix fəlsəfə)
3. Pedaqoji və didaktik
4. Riyaziyyat
5. Astronomi
6. Fizik
7. Kimya
8. Elm-i təbiyyə
9. Coğrafiya
10. Tarix-i ümumi
11. Şərq tarixi
12. Siyasi iqtisad
13. İctimaiyyat
14. Şura qanun-i əsasisi
15. Kənd təsərrüfatı
16. Rus lisanı
17. Şərq hüsnxətti
18. Əl işləri
19. Musiqi

12. Siniflərdə keçiləcək dərslərin təqsimi[29], imtahan və keza[30] tələbələrin tətbiqat işləri intizamı, Xalq Maarif Komissarlığının xüsusi qərarları mocibincə[31] icra ediliyor.

II maddəyə əlavə

1. Ana dili

a) Ümumi təhsil sinfi:

Ədəbiyyat nümunələri ilə tanış eləmək, əsərləri məzmun və üslub etibarilə təhlil etmək.

b) İxtisas siniflərində:

Lisan tarixi, onun şəkilləri, xüsusiyyətləri, ədəbiyyat tarixi, üsul-i tədris, sərf və nəhv[32] , üslubiyyat (stilistik), izahlı qiraət, nəzəriyat-i ədəbiyyə, asar-i atiqə[33] və hüfruyat[34] təhriyyatı[35]

**IV – pedaqoji, didaktik və fənn tərbiyə tarixi**

**V – riyaziyyat**

a) Ümumi təhsil sinfində:

Elementar cəbr, həndəsə və müsəlləsat[36]. Təbiət (funksiyon) və onun qrafik ilə arayəsi[37], hesab-i əsfər-i namütənahi[38]

b) İxtisas siniflərində:

Hesab-i təfazuli[39] və hesab-i tamami (differensial və inteqral) və bunların həndəsəyə tətbiqi, müsəlləsat-i kurbiyə[40] , cəbr-i ali, hesab-i nəzəri və hesab-i ehtimalidən[41] müxtəsər məlumat, tarix-i riyaziyyat.

**VI – astronomi (kainat)**

a) Ümumi təhsil sinfində: kosmografiya kursu.

b) İxtisasi siniflərdə: təsviri və səfərik astronomi

**VII - fizik (hikmət əl-təbiyə)**

a) Ümumi təhsil sinfində

Fizikdən müntəxab[42] fəsillər, yeni nəzəriyyat və hipotezlər burada tətbiqat işlərinə və məsələlər halına fazla əhəmiyyət veriləcəkdir.

**VIII – kimya**

a) Ümumi təhsil sinfində

Qeyri-üzvi və üzvi kimya – kimyadan labarator işləri

b) İxtisasi siniflərdə

Kimyayi qeyri-üzvi və üzvidən müntəxab parçalar. Kimya təhlili. Müxtəsər fizioloji kimya.

**IX – Elm-i təbiyə**

a) Ümumi sinifdə

Nəbatat, heyvanat, geoloji ilə bərabər mineroloji

b) İxtisas siniflərində

Tarix və fizioloji nəbati. Tarix və fizioloji heyvani. Geoloji. Biboloji (həyatiyat)

**X – Coğrafiya.** Fiziki, riyazi və iqtisadi coğrafiya

**XI – Tarix-i ədəbiyyat**

**XII-XIII – sosioloji və şura qanuni əsasisi.**

XIV – kənd təsərrüfatı məfhumundan, siyasi ziraət və kənd təsərrüfatı sistemi anlaşılıyor. Bununçün

[28] burada: növbəti, aşağıdakı
[29] bölünməsi
[30] həmçinin
[31] lazım olduğu səviyyədə
[32] qrammatika
[33] qədim
[34] qazıntı
[35] tədqiqat
[36] triqonometriya, üçbucaq
[37] təqdimat
[38] sonsuz, ucu bucağı olmayan
[39] differensial hesab
[40] yaxın üçbucaqlar
[41] ehtimallar hesabı
[42] seçilmiş

də bu kursun siyasi iqtisad və iqtisadi coğrafiya ixtisası dairəsində oxudulması lazım gəlir.

I, II, III qruplara üsul-i tədris:

Təbiət və riyaziyyatçılara fizik təcrübələrinin texnikası. Təbiətçilərə ilim-i təbiyə təcrübələrinin texnikası.

13. Pedaqoji şurası, Maarif Komissarlığının təsdiqi ilə II maddədə göstərilən dərslərdən başqa yeni dərslər əlavə etmək səlahiyyətini haizdir[43].

14. Maarif işlərinin gedişi və pratik vəziyyəti ilə yaxından tanış olmaq üçün tələbələr, müəllimləri və Maarif Komissarlığı instruktorları rəhbərliyi ilə məktəbə qədər və məktəbdən xaric idarələrə gediyorlar.

### III.Tələbələr

15.İnstituta 16 yaşından küçük və müəllimlik vəzifəsini iyi aparmaya mane ola biləcək cismani xəstəliyi olmayan şəxslər qəbul edilirlər.

İnstituta birinci sırada darülmüəlliminləri iyi yetişdirmiş, sonra 2 dərəcəli məktəbləri ikmal etmiş[44] və nəhayət, xüsusi imtahan vermiş olan tələbələr qəbul ediliyorlar.

16. Hər sinifdə 40-dan fazla tələbə olmamalıdır. İcabında[45] müvazi[46] siniflər açıla bilir.

---

[43] daşımaq, malik olmaq
[44] bitirmiş
[45] lazım gələndə
[46] oxşar, paralel





17. Yılda bir dəfə (sənənin başlanğıcında və ancaq birinci sinfə) tələbə qəbul ediliyor.

18. Tələbələr maddi tərəfdən təmin ediliyorlar.

19. İnstitut kursunu mükəmməl bitirmiş olan tələbələr diplom alıyorlar.

20. İnstitutdan məzun tələbələr, Maarif Komissarlığının göstərməsilə 3 yıldan az olmamaq şərtilə cümhuriyyətin maarif idarələrinin birisində vəzifədə bulunmalıdırlar.

### IV.İnstitutda vəzifədə bulunan şəxslər

21. İnstitutun tədrisat və təsərrüfat qismləri məsuliyyəti müdir üzərindədir.

22. İnstitut müdiri; Maarif İşçiləri İttifaqı rizası ilə pedaqoji şurası tərəfindən, ali təhsil görmüş və pedaqoji fəaliyyətləri ilə tanınmış olan şəxslərdən 3 sənə müddətinə intixab[47] olunuyor və Maarif Komissarlığı tərəfindən təsdiq ediliyor.

23. Müdir, tədrisat və təsərrüfat işlərinə aid olan məsələləri kəndisi yalnız deyil, pedaqoji şurası və təsərrüfat kollegiyası rizası ilə həll ediyor.

24. İnstitutda müdirdən başqa:

a) Müdir müavini

---

[47] seçmə

b) İxtisas və ümumi təhsil dərsləri müəllimləri
c) Laborantlar
d) Doktor
e) İnstitut kanselyariyası müdiri
f) İki kargüzar
g) Makinəçi
h) İdarə yazıçısı
i) Xəzinədar (eyni zamanda mühasib)
j) Ekonom, aşpaz və texniki xidmətçilər bulunuyor.

25. Müəllimlər, müavin-i müdir və labaorantlar pedaqoji şurası tərəfindən pedaqoji fəaliyyətləri ilə tanınmış olan şəxslərdən dəvət və Maarif Komissarlığı tərəfindən təsdiq ediliyorlar.

***Qeyd:*** *Tədrisat və təsərrüfat qismlərində tam məsuliyyət institut müdiri üzərində olduğundan müdir müavini namizədliyi müdir tərəfindən göstəriliyor.*

26. Müəllimlər tələbələrin tətbiqat dərslərində iştirak və rəhbərlik etməlidirlər.

27. Hər institut müəllimi (5 sənəlik tədris stajı olduğu təqdirdə) məlumatını genişlətmək üçün bir sənədən fazla olmamaq şərtilə elmi mərkəzlərə göndərilə bilir. Bu zamanda məzkur müəllim bütün maaşını alıyor. Göndərilmiş olan müəllim qayıtdıqda gördüyü işlər xüsusunda məruzədə bulunur.

***Qeyd:*** *Göndərilən müəllimin əvəzində dərs vermək üçün dəvət edilən müavinə veriləcək maaşın miqdarı smetaya əlavə olaraq əslinə mutabiq[48] və muadil[49] olur.*

[48] uyğun
[49] bərabər





28. Yeni açılmış olan institutun müəllimləri icabından az dərs veriyorsa da, (siniflər az olduğuna görə) bütün maaş alıyorlar.

## V.Pedaqoji şurası

29. Pedaqoji şurasına; pedaqoji personalı, doktor və müəllimlərin dörddə biri miqdarında tələbə nümayəndələri daxildir.

***Qeyd:*** *2-ci dərəcəli nümunə məktəbinin müdir və müəllimləri pedaqoji şurası üzvüdürlər.*

30. İclaslarda sədarəti müdir aparıyor.

31. Pedaqoji şurası katibi bir sənəlik müddətinə intixab olunur.

32. Pedaqoji şurasının üzvlərin ½-inin iclasda olduqları zaman çıxardığı qərarlar qanunidir.

33. Bütün işlər əksəriyyət səslə həll ediliyor.

***Qeyd:*** *Müəllimlərdən birinin pedaqoji şurası üzvlərinin ⅔-sinin iclasda iştirakı ilə tərdi[50] qanunidir. Bu məsələ pedaqoji şurası üzvlərinin əksəriyyəti tərəfindən verilən təhrir-i[51] ərizədən sonra Maarif Komissarlığı tərəfindən təsdiq olunur.*

34. Pedaqoji şurasının ayda bir dəfə pedaqoji iclası oluyor. İcabında təcili iclas yapıla bilir. Pedaqoji şurasının öhdəsində institutun təlim-tərbiyə cəhətinin rəhbərliyi duruyor.

[50] çıxarılma
[51] yazı, qeyd, yazma

### VI.Təsərrüfat Kollegiyası

35. İnstitutun təsərrüfat işlərinin icrası təsərrüfat heyətinə həvalə olunur.

36. Təsərrüfat heyəti üzvləri:

a) Müdir, yaxud müavini

b) Pedaqoji şurasının bir üzvü

c) Texniki xidmətçilərin bir nümayəndəsi

d) 2 nəfər tələbələr nümayəndəsi

37. Təsərrüfat heyətinin vəzifəsi:

a) Sənəlik smeta projesini tərtib etmək

b) Smeta üzrə xərcləmək

c) İnstitut adından hər növ əmlakı aktnaməyə bağlamaq

### VII.İnstitutun hüququ

38. İnstitut kəndi dairəsində müstəqil və şəxsi hüquqa malik olaraq, təcrübə istasiyonları, labaratorlar, müzelər, kitabxanalar, elmi dərnəklər, cəmiyyətlər, açıq yığıncaqlar, mühazirələr düzəltmək; pedaqoji şurası üzvlərini hər bir fənni idarələrə göndərmək; ehtiyacını təmin etmək üçün arazi almaq və istifadə etmək səlahiyyətini haizdir.

İnstitut kənd təsərrüfatı koloniyası təşkil ediyor.

***Qeyd:** İnstitutun damğası (möhrü) vardır.*

İşbu düsturüləməl 1921-ci ilin 13 iyununda Xalq Maarif Komissarlığı Kollegiyasında baxılaraq təsdiq edilir. Bundan sonra təsdiq üçün düsturül-əməl Komissarlar şurasına verilir. İştə Komissarlar şurasının 66-cı dekreti mocibincə iyuldan edtibarən institut küşad edilməli idi.





### Azərbaycan Birinci Dövlət-i Türk Zükur Ali Pedaqoji İnstitutunun idarəsi xüsusunda

### DEKRET № 66

Azərbaycan ictimai Şura Cümhuriyyətinin Xalq Komissarlar Şurası - Vahid Məsai Məktəbinin ideyalarını həyata tətbiq etməkə qabil mükəmməl hazırlıqlı maarif işçiləri ilə cümhuriyyəti təmin etmək məqsədilə qərara alıyor:

İşbu sənənin 1 iyulundan etibarən Bakı şəhrində 2-ci dərəcəli Şura məktəbləri üçün hökumət Türk lisanında müəllimlər hazırlaya biləcək Azərbaycan birinci Dövləti Ali Pedaqoji İnstitututu təsis edilsin və bu dekretin nəşrindən sonra biltarix[52] institut təşkilatına başlanılsın.

| | |
|---|---|
| Xalq Komissarlar Şurası sədri: | N.Nərimanov |
| Xalq Maarif Komissarı: | D.Bünyadzadə |
| Xalq Komissarlar Şurası işlər müdiri: | Şirvani |
| Katib: | R.Tahirov |

[52] tarixi müəyyən olmayan

İnstitutun düsturuləməli Maarif Komissarlığı və Komissarlar Şurası tərəfindən təsdiq edilməzdən əvvəl bir çoxları bu işə gülünc bir tərzdə baxırlardı; hələ bəziləri: bu bir kaç nəfərin muhiləsidir[53] və bundan hiç bir müsbət nəticə əldə edilməyəcəyi ədasında bulunur, Azərbaycan yurduna ziya saçacaq bu maarif ocağı əleyhində təbliğat da yapıyorlardı. Bu anlatır ki, bu kimi ədalarda bulunan adamların qəlbi bizim qəlbimizlə çarpmıyor, onların damağı və ruhu əski rus sərvətdar hökumətinin "ruslaşdırma" və sair bu kimi murdar vərasətilə[54] məşbudur[55]. Şərəfinə məcmuə verilən bu gün əlavə olaraq bir daha o zatlara diyor: ***"Azərbaycanda ikinci dərəcəlilər üçün müəllim hazırlayaraq pedaqoji institutu yaratmaq lazımdır və mümkündür".***

Hökumət dekretindən sonra Maarif Komissarlığı ictimai tərbiyə müdiri Azad Əmirovun məşruhası[56] mocibincə (1414 nömrəli mandat) institutun təşkil komisyonu düzəlir. Komisyon Fəthullah Rzabəyli, Həbib Mahmudbəyli və Rəhim Cəfərovdan ibarət idi. Üçlük komisyonun sədrliyinə Fəthulla Rzabəyli və katibliyinə o zaman bir sənəlik kursları bitirən Əli Abbas Vəlixanlı intixab[57] idilər. Vəlixanlının institu-

[53] təxəyyül
[54] miras
[55] doludur
[56] izah
[57] seçilmiş





ta az xidməti olmamışdır. Komisyona yardımçı olaraq başqa adamlar çağırılmasına icazə verildiyindən komisyon aşağıdakı adları göstərilən yoldaşları dəvət ediyor:

1) Talıbzadə Abdullah Şaiq
2) Əfəndizadə Məhəmməd
3) Hüseynzadə Sadıq

Məzkur komisyon Bakı darülmüəllimini binasında çalışıyordu. Komisyonun qərarlarını komissarlıqda keçirməkdə yoldaş Azad Əmirov dəxi artıq dərəcə kömək edərdi.

Komisyon qarşısında duran mühüm məsələlərdən birisi instituta müvafiq bina bulmaq və onu təchiz etmək idi. Komisyonun bu haqda qərarının bərat əl-qövlünü[58] göstərməyi lazım görüyorum:

Azərbaycan birinci Dövləti Türk Zükur Pedaqoji İnstitutu təşkil və təchiz xüsusunda Fəthullah Rzabəyli; Həbib Mahmudbəyli; Rəhim Cəfərov və Əli Abbas Vəlixanlı yoldaşlardan ibarət fövqəladə komisyonun birinci iclası (9 temmuz 1921 sənəsi) mezbatasından[59]:

| **Dinləndi:** | **Qərara alınır:** |
| --- | --- |
| İnstitut üçün bina tədarükü haqqında komisyon sədri institut və nəzdindəki | İnstitutun ümumi mənafeyi üçün Xalq Maarif Komissarlığına müraciət edilə- |

[58] imza sənədi, layihəsi
[59] burada: protokol

| | |
|---|---|
| nümunə məktəbini və internat üçün xüsusi bir bina lüzumuna üzvlərin diqqətini cəlb edər. Böylə bir bina ali məktəb və internat üçün əlverişli olması məsələsini ayrıca qeyd ediyor. | rək aşağıdakı binaların birini instituta verilәsi xüsusunda binagüzarlıqda bulunmaları rica olunsun:<br>1)Sabiq realnı məktəbi;<br>2)Sabiq müqəddəs Nina məktəbi;<br>3)Sabiq Marinski ünas gimnaziyası;<br>4) Sabiq parlaman binaları.<br>Bununla bərabər komisyonun rəyinə görə ən münasib bina sabiq Realnı məktəbi binası göstərilsin. Zira böylə bir bina institutun bütün təşkilatını kəndisində yerləşdirməyə qadir olacaqdır. |

Əslinə mütabiqdir[60]. Komisyon katibi: (imza)

Maatəəssüf[61] göstərilən binaların heç biri instituta verilmədi. Zira onlar əskəri hissələr tərəfindən tutulu idi. Vaxt itirməmək qəsdilə komisyon elmi kabinələr və pansion üçün lazımi əşya tədarükünə şüru etdi[62]. Komisyonun Maarif Komissarlığına təqdim etdiyi "smeta"nın qəbulundan sonra hələ darülmüəllimin binasında əşya tədarükünə başlanılır. İnstitut

[60] eyni
[61] çox təəssüf ki,
[62] başladı





üçün bina bulunmaması Komisyonu əşd[63] dərəcədə rahatsız edirdi. Bu miyanda bina haqqında Komisyona o zaman Bakı Maarif şöbəsinin məkatib[64] işləri müdiri *Ağa Əli Raqib* büyük yardım ediyor. "Lebedinski" küçədə mövcud əski "Turgenev" məktəbi binasını institut üçün təxliyə etdirir və bu cəhətdən Komisyonun işini yüngülləşdirir. Binanı alar-almaz Komissarlığın memarı Soltanovla birlikdə Komisyon binanın təmiri üçün "smeta" tərtib edir. 60 milyon rubləyə baliğ[65] smeta hökumət tərəfindən təsdiq ilə iyulun 1-nə kimi buraxılır. Binanın təmiratı bitir.

Komisyonun hər dürlü mümanəat[66] və müşkülat qarşısında mətanətlə çarpışmasının iki səbəbi vardı:

Komisyon: Gənc Azərbaycanın ikinci dərəcəli məktəblərinin müəllimə olan ehtiyacını dərindən qəlbən hiss ediyor, Komisyon ruhən iman etmişdi ki, Azərbaycanda institut olmadığı təqdirdə darülmüəlliminlər təşkil etmək imkan xaricindədir. Darülmüəlliminlər olmadığı təqdirdə də Azərbaycanın avam kütləsini maarif və mədəniyyət yoluna götürəcək və nicat verəcək ibtidai məktəblərin açılması və yaşaması dəxi mümkün deyildir. *Azərbaycan xalqını yeni həyata doğru yetirəcək bir vasitə və kommunizmaya ruhən sarındıracaq yeganə amil məktəblərdir.*

[63] xeyli, çox
[64] məktəb
[65] burada: dəyərində
[66] maneələr

İkincisi: Yoldaş Nəriman Nərimanovun əlindən gələn qədər Komisyona yardım etməsidir. Komisyon yapacağı işi yapmadan əvvəl yoldaş Nərimana məruzədə bulunuyordu. Nəriman hər dəfəsində:

*"Mən görüyorum maarifin nərədən başlanmasını siz ruhən düşünmüsünüz və Azərbaycan türklərinin nicatı yolunu görüb onu qurtarmağa sarılmışsınız. Sizin bu zəhmətinizi Azərbaycan Şuralar Cümhuriyəti hər zaman təqdir edəcək, Azərbaycan xalqı hər vaxt yad edəcəkdir"* kimi sözlərlə Komisyona ruh verəcəkdi.

Digər tərəfdən yoldaş Bünyadzadə sıx-sıx Komisyonun iclasına gəlir. Çətin məsələlərdə yol göstərər və yardım edərdi. İştə Komisyona ruh verən, "mətanət ilham edən müəssər[67] bunlar idi.

Binanın təmiri bitər-bitməz elmi kabinələr; labaratuvarlar; kitabxana və bunlar kimi başqa yardımçı elmi müəssisələrin təşkilinə başlandı.

Zira göstərilən bu müəssisələrsiz institutda dərslərin lazımi dərəcədə gedəmiyəcəyini əvvəlcədən bilirdik. Digər tərəfdən Şuralar Federasyonunun ağır vəziyyətindən dolayı kabinə labaratuvarlar təşkili artıq dərəcədə gücdü[68]. Bununla belə dərslərin başlanğıcına kimi Komisyon göstərilən kabinələrin əsasını qoydu. Hökumət müzesinin artıq fizik alətləri institut üçün alındı, alınan bu kabinə alətləri əski firmalardan və işlənmiş olduğundan yenidən düzəlməyə əşəd ehtiyacı vardı.

*Fizik alətlərinin ədədi əllidən ziyadə deyildi.* Əlbəttə, ehtiyaca nisbətən bunlar pək azdı. İştə fizik kabinəsinin əsası bu minval üzrə qurulmuş olur. Kimya labaratuvarına gəldikdə məsələ başqa şəkil alır: Komisyon üzvü kimyagər mühəndis vətəndaş Sadıq Hüseynovun yardımı ilə institut xalq təsərrüfat şurasının kimya labaratuvarını instituta verirkən böylə bir şərt bağlamışdı: Hər ay institut xalq təsərrüfat şurası üçün 10-15-dən az olmamaq şərtilə analiz (təhlil) yapmaq məcburiyyətində idi. İnstitut xalq təsərrüfat şurası üçün yapdığı analizin sayı 10-dan artıq olmadı. Xalq təsərrüfat şurası tərəfindən bağlanan əhdnamədə təbii mevtlə[69] olaraq labaratuvar institutun xüsusi malı oldu. Hələ 1921-ci sənədə institutun kimya labaratuvarı, Azərbaycanın deyil, Zaqafqaziyanın belə ən zəngin və müntəzəm labaratuvarı mövqeyini tutmuşdur.

*Təbiət kabinəsi* dəxi böyük müşkülat ilə təşkil edilmişdir. Buraya lazım olan əşya qismən Komisyon üzvləri, qismən sair əşxas[70] tərəfindən alınaraq toplanmışdır.

Dərslər başlanana kimi institut 23 milyon 372 min rubləlik alət əldə edilmişdir (o zamanki hesabi ilə).

---

[67] təsirli
[68] çətin

[69] ölüm. burada: ləğvetmə, silinmə
[70] şəxslər

Bunların arasında "seysa" sistemində iki mikroskop dəxi mövcud idi. Yenə hökumət tərəfindən müntəzəm və mükəmməl mədəniyyət koleksiyonu alınmışdı. Kitabxana tədrici olaraq təşkil edilir ki, dərslərin başlanğıcında türk dilində 500 ədəd və əcnəbi dilində 73 ədəd kitab vardı.

*Kabinələrin və kitabxananın artmasına və zənginləşməsinə daima cidd-ü cəhd edirlərdi*[71]. Kabinə, labaratuvar və kitabxana təşkili meyanında[72] bir auditor dəxi təchiz edilmiş bulunurdu. Auditorun əşyasının bir çoxu sənəlik pedaqoji kurslarından qalmışdı.

İnternat təsis etmək məsələsi bir qədər qolaydı, zira pedaqoji kurslarının pansion işləri mexaniki surətdə tamamilə institutun öhdəsinə keçdi, fəqət əlbisə və bu kimi bir taqım işlər təşkilatçıların bir qədər vaxtını aldı. Burada da Həbib Dadaş kimi təcrübəli arkadaşın yardımı və o zaman Maarif Komissarlığı işlər müdiri hörmətli yoldaş Bəna Məhəmmədovun ciddi iştirakına məbni[73] təmin edilmiş vaxta kimi əlbisə, yataq və bu kimi şeylərdən hazır edildi. Altmış nəfər tələbə üçün internat hazır edilmişdi. Tədris sənəsinin ibtidasına kimi bütün hazırlıqlar öylə sürətlə gedyordu ki, kəndimiz də belə heyrət ediyorduq. Yalnız internat o zamanki əşyası 25 min rubləyə qədər (muhabərədən əvvəlki para) hesab edilə bilirdi.

---

[71] böyük səy göstərmək
[72] arasında
[73] -dən dolayı, -a görə





Bu göstərilən işlərin həpsi 1921 sənəsi noyabrın 1-ə qədər bitmiş oldu. Bununla bərabər instituta tələbə qəbulu elan edilməklə, internat saxlamaq üçün bir sənəlik smeta tərtib edilərək maliyyə komissarlığı tərəfindən təsdiq etdirildi.

İnstitutda olan yerlər bütün Azərbaycan qəzaları arasında təqsim edilməsinə baxmayaraq, yenə də bəzi "bədxah"lar tərəfindən institut əleyhinə yürüdülən təbliğ və təşviqin tələbə toplamaya böyük təsiri olmuşdur.

Noyabrın 15-də yalnız 6 nəfər tələbə ilə dərsə başlamışız ki, onların da familiyalarını bu məcmuəyə qeyd etməyi vacib görüyorum:

| | |
|---|---|
| Rəhimzadə Əbdülhəsən - | Salyan qəzasından |
| Musaxanlı Atababa - | Bakı " " |
| Axundzadə Vəli- | Ağdam " " |
| Süleymanzadə Mahmud- | Göyçay " " |
| Mustafazadə Ağaveyis- | Göyçay " " |

Ədilzadə Əbdülmüsəvvər - Türküstan (Daşkənd)

10 yanvar 1921-ci sənədə, dərslərə başlamazdan əvvəl institut nizamnaməsi mocibincə, müdir, müavin intixabı[74] üçün müəllimlər dəvət etməyə şüru edildi[75].

Müdirliyə Fəthullah Rzabəyli, müavin Həbib Mahmud bəyi intixab edilir.

---

[74] seçim, seçmək
[75] başlanıldı

Müəllimliyə isə aşağıda adları qeyd edilmiş şəxslər dəvət edildi:

1) Abdullah Şaiq Talıbzadə - məşhur Azərbaycan ədibi, ədəbiyyat müəllimi,
2) Məhəmməd Əfəndiyev – Leninqrad Darülfünununu bitirmiş riyaziyyat müəllimi,
3)Həmid Şaxtaxtinski – Odessa Darülfününunu bitirmiş ruhiyyat (piskoloji) müəllimi,
4) Mühəndis Sadiq Hüseynov – Darmştad (Almaniya) Politexnikumunu bitirmiş kimya müəllimi,
5) İsmayıl Novruzi – İstanbul Darülfününunu bitirmiş – fizik və təbiət müəllimi,
6) Fəthullah Rzabəyli – Odessa Darülfününunu bitirmiş, təşrih[76] və fizioloji müəllimi,
7) V.V.Pismennaya – Leninqrad Ali Pedaqoji İnstitutunu bitirmiş – rusca müəllimədsi.

Bütün göstərilən yoldaşlar, institutda müəllimlik etmələri Maarif Komissarlığı tərəfindən təsdiq edilmişdir.

Bu növ təşkil olunmuş pedaqoji şurası noyabr ayının 12-də birinci iclasda ümumiyyətlə, möhtərəm yoldaş Abdullah Şaiqi katib intixab edərək və növbədəki məsələləri həll etməyə başlamışdır. Məsələlərdən birisi institut canibində[77] Qlinka –nümunə məktəbi təsis etmək idi. Şuranın qərarına məbni o zaman davam edən iki qruplu ikinci dərəcəli türk məktəbi – institut canibdə nümunə məktəbi təsmiyə edilmişdir[78]. Bu məktəb bütün əşyası və heyət-i müəllimini ilə bərabər institut idarəsinə tələbələr tərxis edəcəkdir.

[76] anatomiya
[77] yanında, tərəfində





Dərslər müntəzəm və gözəl bir surətdə getməklə bərabər institut gündən-günə böyük bir etibar qazanmağa müvəffəq olmuşdur. Bunun nəticəsi olaraq tələbələrin ədədi gündən-günə çoxalmış və 1922- yanvarın 1-ə qədər tələbələrin ədədi 40-a çatmışdır.

Böylə bir təşkilat ilə institut 1921-1924 sənəsində geniş addımlar ataraq Azərbaycan zəhmətkeşlərinin şərəfinə hər sənə böyümüş və tərəqqi etmişdir. Sənə nəhayətində, köylü kütləsinin içindən çıxmış gənclər, fənnin sərt dərinliklərinə pək ciddi sevk olduqları[79], ruhən və mənən tərəqqiyə böyük həvəs göstərmələri hər kəsə gün kimi aşkar oldu. Tədris sənəsinin nəhayətində tərəqqi edilən imtahandan bütün tələbələr müvəffəqiyyətlə çıxaraq həpsi ikinci kursa keçirilmiş və yay tətilinə buraxılmışlardı.

Tətil zamanı siniflərin çoxalmasına, yeni müəllimlər dəvət edilməsinə, kabinələrin təkamül edilməsinə və yenidən 40 nəfərlik pansion hazırlamağa sərf edilmişdir.

Nizamnamə mocibincə 1922-1923 sənəsindən etibarən üç ixtisas şöbəsi açılmalı idi ki, bunlar 1) tarix-ədəbiyyat 2) coğrafiya-təbiət 3) fizik-riyaziyyat şöbələrindən ibarət idi. Bunun üçün də yenidən üç audi-

[78] adlandırmaq
[79] daxil olduqları

toriya təmir etmək lazım gəliyordu. Fəqət institutun olduğu bina bu ehtiyacı təmin etmiyordu. Bu səbəbdən üç ixtisas şöbəsi üçün iki auditor açmaya müvəffəq olduq ki, bu da, əsasən, doğru deyildi, zira bu tərz ilə doğru dərs cədvəli tərtib etmək və dərs vermək güc[80] idi. İnstitut kursunun ⅓-i keçildikdən sonra təcrübə bizə göstərdi ki, gənc müəllim hazırlamaq üçün proqram daxilinə bir taqım[81] yeni dərslərin artırılması vacibdir. Məsələ, proqrama antropoloji və antropo-coğrafiya kimi bir taqım dərslər əlavə edildi. Fəqət bunları proqrama əlavə etmədən əvvəl bunları tədris edəcək müəllimlər aramağa ehtiyac görülüyordu. Bu da olduqca çətin bir məsələ idi. Çünki lazımi qədər mütəxəssis pedaqoji ali təhsili olan türk müəllimlərinin yoxluğu bu məsələni, əsasən, müşkül bir vəziyyətə qoyurdu. Yazın axırlarına yaxın İstanbul darülfünunu məzunlarından Məhiyəddin instituta dəvət edilmiş bulunurdu. Bu yoldaş tarix və ədəbiyyat şöbəsinin dərslərini aparmış və bu dairədə artıq çalışmışdır. Məşhur türk təbiətşünaslarından İskəndər Abuzalımov və o zaman Şimali Qafqaziyada yaşayan fizik müəllimi Rəhim Məlikov ilə olan yazı əlaqəmiz müvəffəqiyyətli bir nəticə vermədi. Yerli müəllimlərdən isə aşağıda adları qeyd edilmiş yoldaşlar:

1)Davud Şərifli – antropoloji və rus lisan müəllimi

[80] çətin
[81] bir sıra, bir çox





2)Hüseyn Mirzə Camalov – siyasi iqtisad müəllimi
3)Fəthullah Əlizadə - təşrih-i insani müəllimi
4)Keilhis – rəsm müəllimi
5)Mailyan – musiqi müəllimi
6)Berq – tətbiqi fizik müəllimi instituta müəllim sifəti ilə dəvət edildilər. Göstərildiyi kimi, yeniləşmiş müəllim heyəti ilə institut heyətinin ikinci sənəsinə (1922-23) qədəm qoyulmuş oldu. Kabinə və kitabxana ikmal edilmiş təbiət kabinəsində vəsaiqən[82] miqdarı ikinci tədris yılı başlanğıcında 5%, 138, fizik kabinəsində 45%, kitabxanada isə kitabların miqdarı 100%, fizik labaratuvarında isə 95% artmış idi. Artıq bu vaxta qədər bütün yeni vəsait Moskvadan gətirilirdi. Yay tətilindən sonra iyulun 15-dən etibarən tədrisat başlanmışdı. İxtisas şöbələrinə keçən tələbələr kəndi arzuları ilə atidəki[83] şöbələrə ayrıldılar.

1) tarix ədəbiyyat şöbəsinə
2) coğrafiya-təbiət şöbəsinə
3) fizik, riyaziyyat şöbəsinə 10 kişi ayrıldı.

Birinci ümumi təhsil şöbəsinə Azərbaycan qəzalarından, Dağıstan, Türküstan və başqa cümhuriyyətlərdən 30 yeni tələbə qəbul edilmişdi.

İkinci yıl müddəində pedaqoji institutunun böyüklüyü təzahür etmiş. Xalq Maarif Komissarlığı,

[82] sənədə görə
[83] burada: aşağıdakı

bilxassə Xalq maarif komissarı yoldaş Mustafa Quliyev və sabiq müavini doktor Tağı Şahbazi böyük bir zəhmətlə institutun ətrafına toplaşıb onu, Şərq cəbhəsində tədricən türk darülfünunu yapmaq qayəsini bəsləməyə başladılar. Bənim institut işləri haqqında yoldaş Mustafa ilə ilk görüşüm pək əla xatirimdədir. Bən institutun müdiri sifətilə ona, Xalq maarif komissarı olaraq, məruzədə bulunurkən (bu, daha onun Xalq Maarif Komissarlığında fəaliyyətə başladığı ilk günləri idi) o, Azərbaycanda ali təhsilin binası qoyulduğuna pək sevindi və dedi ki: ***"Pedaqoji İnstitut Azərbaycanda yeganədir, o, yalnız biz azərbaycanlıların deyil, bütün məhkum Şərq xalqının mədəni maarif qayələrini təmin etməlidir. İnstituta fəhlə və kəndçilərin kəndilərini cəlb etməli və onları iş, yaradıcı bir ruhda bilgi ilə təchiz etməlidir. Biz, gördüyümüzə nəzərən həyatın ehtiyacı yüzündən səhnəyə atılmış pedaqoji institutunu var qüvvəmizlə mühafizə edəcək və yüksəltəcəyiz!"***

Azərbaycan maarifinin başında duran yoldaşın bizimlə olduqca iyi münasibəti apardığımız işə qarşı bizi daha ziyadə təşviq və təhrik etdi və enerjimizin 10 qat artmasına səbəb oldu.

Hər hangi proje və qərarımızın söylədiyimiz yoldaş tərəfindən təsdiqi idi ki, institut normal və müəyyən bir yola düşərək inkişaf etdi. Gərək Quliyev, gərək Şahbazi yoldaşların institut işlərilə əlaqə və münasibətləri olduqca makul[84] və ciddi idi.

---

[84] məqbul, ağıllı





İkinci sənə-i tədrisiyyə, birinci sənə-i tədrisiyyə kimi binadarlığı müstəsna olmaq üzrə - gözəl bir şərait ilə başladı. Pedaqoji şurasının birinci dərəcədə fikri tələbələri bütün dərslərdən tamamilə hazırlamaq idi.

Pedaqoji şurası müasir məktəblər üçün müəllimlər hazırlamaq fikrində idi: Şuralar hökumətinin yeni məsai[85] məktəbləri mükəmməl, nəzəri və əməli, hazırlığı olan müəllimlər tələb ediyordu. İştə bu cəhəti pedaqoji şurası daima nəzərdə tutmuşdur.

İnstitut tələbələri dəxi bu fikri layiqilə düşünərək ciddiyyətlə işliyorlardı. Fəqət məsələnin mahiyyətini və institutun əhəmiyyətini düşünməyən bir qaçı[86] müstəsna təşkil ediyordu. 1922-1923 sənə-i tədrisiyyənin ikinci yarısında institut yeni binaya köçürüldüyü üçün dərsləri bir ay təxir uğradı. İşbu yeni bina sabiq "realnı" məktəbin binası idi. Daha bir sənə, yəni 1921-ci sənəsi bu binanın instituta verilməsini əvvəlcə institutun müəssis qrupu qət etmişdi. Əsgəri[87] hissələr sabiq "realnı" məktəbinin binasını boşaltdıqları zaman bina üç məktəb: Zükur pedaqoji institutu, Ünas pedaqoji institutu və şəhər əmələ[88] fakültəsi arasında təqsim[89] olunmuşdur.

---

[85] əmək
[86] bir neçəsi
[87] hərbi
[88] fəhlə
[89] bölünmə

Məzkur məktəblərin, bilxassə leyli[90] olan Ünas İnstitutunun işi doğru və düzgün getməsi üçün hər məktəbə xüsusi yol verilməli idi. Maatəəssüf ki, bu məsələ lazım gəldiyi kimi həll olunmadı...

Yay tətilində bina təmirə başlandı; xüsusi auditorlar hazırlandı, kabinələr quruldu və s... Bunların həpsinə 16 000 rubləyə qədər para sərf olunmuşdu.

İstanbuldan xüsusi sifariş ilə türk dilində 700-ə qədər kitab götürülmüş, fizik kabinəsi üçün Moskvadan bir qədər alət gəlmişdi. Kimya labaratuvarı 125%-ə qədər, təbiət kabinəsi 60%-ə qədər artdı. Əlavə olaraq Türkiyədən türk ədəbiyyatı tarixi müdərrisi İsmayıl Hikmət; tərbiyə doktoru Xəlil Fikrət; Şimali Qafqaziyadan fizik müəllimi Rəhim Məlikov çağırılmış və məktəbə Azərbaycandan isə:

1.Mustafa Quliyev – siyasi iqtisad
2.Cəlil Məhəmmədzadə – ictimaiyyat
3.Səlimə xanım Osmanzadə – təbiət
4.Mirzə Möhsün İbrahimov – fars ədəbiyyatı tarixi
5.Doktor Mirqasımov – təşrih-i insani[91]
6.E.Azaqbəyli – məntiq
7.B.Qarbulum – alman dili
8.Süleyman Səlim – coğrafiya müəllimi olaraq dəvət edilmişlərdi. Birinci kursa 41 tələbə qəbul olun-

[90] tələbələrin (şagirdlərin) həm oxuduqları, həm də gecə qaldıqları məktəb; internat.
[91] burada: anatomiya





du, bu tələbələr qəzalardan və qomşu Şuralar hökumətlərindən ezam edilmişlərdi.

Üçüncü sənə-i tədrisiyənin əvvəllərində üç ixtisas şöbəsi dəxi açıldı. 1923-24 sənə-i tədrisiyəsində pedaqoji institutu daha ziyadə genişləşməyə başladı. Ona görə institutun hal-hazırki vəziyyətdən məlumat vermək icab edər:

İnstitutun hal-hazırda bir ümumi hazırlıq sinfi, 6 ixtisas sinfi: (2 riyaziyyat, 2 ədəbiyyat, 2 təbiət) vardır.

Tələbələrin ümumi sayı 100-dür.

| | | |
|---|---|---|
| Üçüncü | ədəbiyyat şöbəsində | 6 |
| " " | riyaziyyat " " | 9 |
| " " | təbiət " " | 14 |
| İkinci | ədəbiyyat şöbəsində | 9 |
| " " | riyaziyyat " " | 8 |
| " " | təbiət " " | 12 |

Birinci ümumi təhsil şöbəsində 41 tələbə mövcuddu.

Adi leksiyalardan xaric tədrisatın gedişinə gəldikdə; kimya, təbiət və fizik dərslərinə aid təcrübələr yapılır; son kursun tələbələri tərəfindən nümunə məktəbində tətbiqat dərsləri verilirdi. Elmi tənəzzöhlər[92], institutu bitirənlərin uşaq bağçaları və darülyetimlərə[93] getmələri birər ictimai həyat hazırlıqları idi. Müxtəlif və mütəaddid[94] mövzularda müəllim və tə-

[92] gəzinti
[93] yetimxana
[94] bir çox, birdən çox

ləbələr tərəfindən referat konfranslar dəxi tərtib edilmişdir.

Kabinələrin hazırki vəziyyəti:

1. Fizik kabinəsində 254 alət vardır və xüsusi kabinə müdiri tərəfindən idarə olur. Fizik kabinəsinə lazım olan əşya və alət almaq üçün 27 000 rublə para buraxılmışdır. Məzkur alətlər işbu sənə təmmuz[95] ayında gələcəkdir.

2. Kimya kabinəsində 874 ədəd cihaz vardır. Böylə ki, hər hanki mürəkkəb bir təhlili yapmaq mümkündür. Kimyəvi meyardan qayət zəngindir. 150 000 rubləyə baliğ[96] əşyaya malikdir.

3. Kimya labaratuvarında gündə 120 nəfər tələbə işləyə biləcək cihaza malikdir. Kimya kabinəsini və kimya labaratuvarı xüsusi müdir tərəfindən idarə olunur.

4. Bu sənə institutda tarix və etnografi müzesi təşkil olunmuşdur. Müze 210-u mütecaviz[97] Misir, Assur, uzaq Şərq tarixinə aid modelləri havidir[98]. Başqa kabinələr kimi xüsusi müdir tərəfindən idarə olunur.

5. Təbiət kabinəsi və labaratuvarı mədəniyyət kolleksiyonundan, vəsait-i eyniyyədən və mikroskop-

[95] iyul
[96] yetişən, bu miqdar həcmində
[97] -dən çox, aşan
[98] ehtiva edir, vardır





dan qayət zəngindir. Xüsusi müdir tərəfindən idarə olunur.

6. Kitabxana bu sənə nəzdində qiraətxana təşkil edilmişdir. Hal-hazırda kitabxanada türkcə 2000; rusca 1000 ədəd kitab mövcuddur. İstifadə edənlərin həpsi 4500 mütəcavizdir. Məşhur şərqşünas və türkoloqlar dəxi kitabxanadan istifadə etmişdir. Kitabxana müdir və müavini tərəfindən idarə olunur.

**Müəllimlər:**

1. Məhəmməd Əfəndizadə - Leninqrad Darülfünunu məzunu – institut müdiri – riyaziyyat müəllimi
2. Həbib Mahmudbəyli – Aleksandrovski Müəllimlər İnstiutu – müdir müavini
3. Doktor Xəlil Fikrət – Berlin Darülfünunu məzunu – pedaqoji disiplinləri müəllimi
4. İsmayıl Hikmət – İstanbul Darülfünunu məzunu – türk ədəbiyyatı tarixi müəllimi
5. Abdullah Şaiq – məşhur Azərbaycan ədiblərindən – türk dili və ədəbiyyatı müəllimi
6. Mustafa Quliyev – Kiyev Darülfünunu məzunu – siyasi iqtisad müəllimi
7. Cəlil Məhəmmədzadə - Kiyev Darülfünunu məzunu – ictimaiyyat müəllimi
8. Mirzə Möhsün İbrahimzadə - Paris Darülfünunu məzunu – fars ədəbiyyatı tarixi müəllimi

9.Davud Şərifli - Kiyev Darülfünunu məzunu – antropoloji və rus ədəbiyyatı müəllimi
10.Sadıq Hüseynov – Darmştat Darülfünunu məzunu – kimya müəllimi
11.Rəhim Məlikov – Kazan Darülfünunu məzunu – fiik mexanik və kosmaoqrafiya müəllimi
12.Səlimə Osmanzadə - Leninqrad Darülfünunu məzunu – zooloji, təşrih və fizioloji nəbati müəlliməsi
13.Fətullah Rzabəyli – Odessa Darülfünunu məzunu – üsul-i tədris və bioloji müəllimi
14.İsmayıl Novruzi – İstanbul Darülfünunu məzunu – elm-i təbiyyə müəllimi
15.Doktor Əsədullah Mirqasımov – Odessa Darülfünunu məzunu – təşrih-i insani müəllimi
16.Doktor Fəthullah Əlizadə - Kazan Darülfünunu məzunu – fizioloji insani müəllimi
17.Abdullah Azaqbəyli – Aleksandrovski Müəllimlər İnstitutu məzunu – məntiq
18.V.V.Pismennaya – Leninqrad Ali Pedaqoji İnstitutu məzunu – Fransız dili müəlliməsi
19.Süleyman Səlim – İstanbul Darülfünunu məzunu – coğrafiya müəllimi
20.T.Qəribli – Derped Darülfünunu məzunu – alman dili müəllimi





21.Keylihis – Florensiya Rəsm Akademiyası məzunu – qrafik müəllimi
22.Meyliyan – kompozitor, musiqi müəllimi
23.Doktor Məhəmməd Rza Vəkilov – Xarkov Darülfünunu məzunu – məktəbin həkimi

İnternat – institut 120 leylileyli tələbə üçün təşkil və təchiz edilmiş pansiona malikdir. Bu leyli tələbələrin bir qismi institut nəzdində nümunə məktəbinə davam ediyorlar. Bunların sayı 20-dir.

Əgər Xalq Maarif Komissarlığı bu sənə yeni qəbul ediləcək tələbələrin müqəddəratını artırmaq istərsə, o zaman məktəb binasını genişləndirmək icab edəcəkdir. Bu sənə institut smetası üzrə ehtiyac üçün 112 679 rublə 49 qəpik buraxılmışdır. Bu məbləğ məktəbin tədris və pansion işlərinə sərf edilmişdir.

Məktəbin ən əhəmiyyətli cəhətindən biri də ta təsis zamanlarından bu günə qədər məktəbin idarə, təşkilat və akademik işlərində tələbələrin fəal olaraq çalışmasıdır. Məktəb öz-özünü idarə prinsipi üzrə bir çox tələbə təşkilatına malikdir. İşbu tələbə təşkilatının institut həyatında böyük əhəmiyyəti və təqdirə şayan fəaliyyəti görülmüşdür.

"Tələbə icraiyyə bürosu" başda yoldaş Səfər Ramazanzadə olmaq üzrə müntəxab tələbə nümayəndələrindən təşkil edilmişdir. Bu təşkilat bütün tələbə təşkilatlarının baş müdir qüvvəsini haizdir.

Tələbələr içərisində "kommunist" gənclər özəyi siyasi və ictimai bir təşkilat olmaq üzrə şayan əhə-

miyyətdir. Bunlardan başqa məktəbin ümumi və siyasi tərəflərinə aid məsələləri həll üçün kommunist müəllim və tələbələrdən ibarət "firqə bürosu" mövcuddur. Buranın sədarətində şimdiki Xalq Maarif Komissarı müavini Cəlil Məhəmmədzadə yoldaş bulunur.

İnstitutda sərbəst fənn və elm dairəsində çalışa bilmək üçün müəllimlərin rəhbərliyi ilə elmi pedaqoji dərnəklər təşkil edilmişdir. Bu dərnəklər haqqında iləridə məlumat veriləcəyindən ancaq adlarını qeyd ilə geçiyoruz. Bunlarda ədəbiyyat, riyaziyyat, təbiət, dram dərnəkləridir. İnstituta yeni tələbələr sabiq Xalq Maarif Komissarı müavini yoldaş Tağı Şahbazinin rəyasəti altında təşkil olunan "pedaqoji məktəblərinə qəbul komisyonu" tərəfindən qəbul eyləmişdir. İnstitutu bitirən yoldaşların qəzalara görə təqsimi şöylədir: Bakı qəzasından 2; Ağdam qəzasından 4; Lənkəran qəzsından 2; Gəncə qəzasından 2; Gürcüstandan 1; Göyçay qəzasından 3; Şamaxı qəzasından 2; Qazax qəzasından 4; Şəki qəzasından 2; Zaqatala qəzasından 1; Quba qəzasından 1; Şuşa qəzasından 1 .

Bunlardan 5-i ədəbiyyat, 7-u riyaziyyat, 16-ü təbiət şöbəsi ikmal ediyor. Bu sənə institutu bitirərək diplom alan yoldaşların adlarını qeyd ediyorum: (əlifba sırası ilə)

1.Axundzadə Vəli- Ağdam qəzası təbiət şöbəsi
2.Əhmədbəyli Əliağa- Lənkəran " "





3.Əfəndizadə Əbdülrəşid-Nuxa " "
4.Əfəndizadə Neman- Göyçay " "
5.Bayramzadə Məhəmməd- Nuxa " "
6.Bağırzadə Məhəmməd- Gəncə ədəbiyyat şöbəsi
7.Cəfərzadə Həsən- Gəncə təbiət şöbəsi
8.Hacızadə Hacıbala- Qazax " "
9.Hacızadə Vahid- Zaqatala " "
10.Hüseynzadə Surxay- Şuşa ədəbiyyat şöbəsi
11.Rəhimzadə Əbdülhüseyn- Salyan təbiət şöbəsi
12.Rzazadə Rza- Şamaxı " "
13.Rzazadə Həsənəddin-Tiflis riyaziyyat şöbəsi
14.Zeynalzadə Zeynal- Şamaxı " "
15.Süleymanzadə Məhəmməd- Göyçay " "
16.Şərəfəddin Seyidələm- Daşkənd ədəbiyyat şöbəsi
17.Şahverdili Teymur- Lənkəran " "
18.Qasımzadə Qafur- Bakı qəzası təbiət şöbəsi
19.Abdizadə Cami Əkrəm- Quba " "
20.Abdihzadə Tahir- Kazan " "
21.Abdihzadə Məhəmməd- Kazan " "
22.Abdihzadə Əli- Ağdam " "
23.Ədilzadə Əbdülmüsəvvər- Daşkənd riyaziyyat şöbəsi
24.Məhəmmədzadə Vəli- Ağdam " "
25.Mədədzadə Məhəmməd- Qazax təbiət şöbəsi
26.Mustafazadə Ağaveyis-Göyçay riyaziyyat şöbəsi

27.Musaxanlı Atababa- Bakı ədəbiyyat şöbəsi

28.Nəcəfqulubəyzadə Nəsir- Ağdam riyaziyyat şöbəsi

Bunlardan 19-u köylü, 6-ı işçi və 3-ü ziyalı zəhmətkeş sinfinə mənsubdur.

Şu tədris sənəsi tərəfindən institutun administrativ-pedaqoji həyatında məktəbin direktoru Fətullah Rzabəylinin getməsindən başqa heç bir təbəddülat[99] olmamış, bu nisanın[100] 15-dən etibarən onun əvəzinə institutun riyaziyyat müəllimi Məhəmməd Əfəndizadə təyin edilmişdir. Öhdəmə düşən bu şərəfli tarixi səhifələri yazmaqla bu günkü təntənəli və böyük şənlikdən istifadə edərək institutun təsisi uğrunda üzərilərinə düşən müqəddəs vəzifəni kamalınca və sevim qəlblə ifa etdiklərindən dolayı institutun bütün əməkdaşlarına artıq dərəcədə təşəkkürlər ediyorum.

Müsavat hökuməti zamanı möhtərəm yoldaşım Həmid Şahtaxtlı tərəfindən dəxi ideyası meydana atılan Türk Ali Pedaqoji İnstitutun müxtəsər tarixçəsini bitirərək gələcək ali pedaqoji institutun təsəvvürümdə canlandıraraq qurduğum projesini bir kaç kəlmə ilə tərsim etmək[101] istərdim: Xəzər dənizi sahilində mövcud Şərqin qapısı olan birinci türk sosialist

[99] dəyişikliklər
[100] aprel ayı
[101] təsvir etmək





şura cümhuriyyətinin coğrafi vəziyyətinə görə şu müqəddəs binanın müəzzəm[102] bir elm xəzinəsi olacağına qələmlə və ruhumla iman etmişəm.

Zəhmətkeş kütləsinə xidmət fikrini daşıyan hər bir elm aşiqləri hər tərəfdən irfan[103] ocağına axın-axın gələcəkdir. Lisan, ədəbiyyat, istilah və bu kimi sair məsələlər həp burada həll olunacaq, həp burada bütün məktəblərə yayılacaqdır.

Pedaqoji institutu, Azərbaycanda şərq institutu olaraq və Azərbaycandan bütün türk ölkələrinə yanar məşəl kimi ziya saçacaqdır.

Yaşasın dünyanın birinci Türk Sosialist Şura Cümhuriyyətində birinci ali türk məktəbi.

**Fətulla Rzabəyli**

[102] çox böyük
[103] elm, mədəniyyət

## Ünas Ali Pedaqoji İnstitutunun surət-i təşkili və davamı

Azərbaycanda maarif işlərinin ən əhəmiyyətli məsələlərindən birisi də qadın təhsilidir. Fəqət inqilabdan əvvəl bu məsələ xüsusunda çox az düşünülmüşdür. Zira, bunu iki səbəbdən dolayı həyata tətbiq etmək mümkün olamazdı: Əvvəl türkcə məktəblər yox idi; saniya[104], qadının erkək ilə bərabər təhsil ala biləcəklərinə və qadınlar erkək ilə müsavi[105] ictimai bir vəziyyət işğal edəcəklərinə qənaət hasıl etmiş bir cəmiyyət və mühit mövcud deyildi. Ancaq inqilab buna nəhayət verərək türk qadını üçün geniş bir surətdə maarif qapılarını açdı. Qadın tərbiyə və təhsilinə Şuralar hökuməti xüsusən artıq əhəmiyyət vermişdir.

Azərbaycan Şura hökuməti tərəfindən işğal edilər- edilməz qısa müddətli pedaqoji kursları açıldı; fəqət, bu kurslar mükəmməl bir təhsil almaq və təhsilə davam etmək istəyənləri qənaətləndirəməzdi. Öz məmləkətinin tələbatını bilən və qadın təhsil və tərbiyəsinin tərəfdarı olan Xalq Maarif Komissarlığının

---

[104] ikinci
[105] bərabər





məktəbəqədər tərbiyə institutunun açılması xüsusunda komissarlığına rapor vermişdir.

Məzkur raporda denilir ki: "Qısa müddətli kurslar lazımi surətdə hazırlanmış adamlar verəmədiyindən məktəbəqədər olan tərbiyənin əhəmiyyəti və türk analarının elmə olan maraqlarını nəzərə alaraq Bakıda birinci Məktəbəqədər Tərbiyə İnstitutunun açılmasını lazım biliyorum. Bu isə məktəbəqədər tərbiyə üçün hazırlıqlı və təcrübəli təlimatçılar və idarə edicilər yetişdirəcəyi kimi gənc nəsli tərbiyə etmək işlərində analara dəxi mənəvi müavinətdə bulunacaqdır".

Başda Xalq Maarif Komissarı yoldaş Bünyadzadə olmaq üzrə Xalq Maarif Komissarlığının heyət-i rəyasəti 1921-ci yılın mart ayının 1-də yuxarıda zikr olunan rapora baxaraq birinci Azərbaycan Məktəbəqədər Tərbiyə İnstitutunun açılmasını qərara aldılar. İnstitutda təhsil müddəti üç yıl olaraq qəbul edilmişdi. Bu institutun təsisində 30 nəfər qəbul edildi. Buraya qəbul olunanlar institutun qanunu mocibincə ikinci dərəcə məktəbi ikmal edənlər olmalı idi, fəqət, böylə təhsil görmüşlər çox az olduğundan ancaq sabiq idadiyələrin[106] 4-cu sinfini ikmal edənlər qəbul edilmişdilər.

---

[106] əvvəllər lisey tipli məktəblərə verilmiş ad

Məktəbəqədər Tərbiyə İnstitutunun proqramı pedaqojidə əhəmiyyəti olan bioloji fənlər üzərinə tərtib edilmişdi. İkinci növbədə humanitar fənlər daxil edilmişdi. Tərbiyə-yi bədəniyəyə son dərəcədə əhəmiyyət verilmişdi. Məktəbəqədər Tərbiyə İnstitutunda 8 nəfər leyli tələbə var idi ki, bunlar da qızlardan idi. İnstitutun başında olduqca fəal və ali tərbiyəli xanım *Makinskaya* və kiçik bir müəllimin heyəti (*Hüseyn Mirzə Camalov, Azad Əmirov, Həmid bəy Şahtaxtinski* və s.) duruyordu. Məktəbəqədər Tərbiyə İnstitutu məxsusi binaya malik olmayıb darülmüəllimat binasında oluyordu. Bu institutun açılmasından bir yıl sonra darülmüəllimat canibdə[107] olan pedaqoji kursları dəxi ona qatışdı. Bununla da institutda iki kursu mövcud olan 45 tələbə var idi ki, bunlardan 22-si leyli idi. Fəhlələr sinfi cəhətdən aşağıdaki nisbətdə idilər: 90% kəndli və işçi, 10% isə kənd müəllimləri çocuqlarından ibarət idi. 1922-ci yılın dekabr ayında Xalq Maarif Komissarlığı heyət-i rəyasətinin iclası Bakıdakı Məktəbəqədər Tərbiyə İnstitutunun dövlət-i türk dilində ikinci dərəcəli məktəblər üçün müəllimə hazırlamaq Azərbaycan Ali Pedaqoji institutuna təbdili[108] və hüququnun Zükur Ali Pedaqoji İstitutu hüququna məsavi[109] edilməsi qərara alındı.

---

[107] tərəf, yan
[108] dəyişdirmə
[109] bərabər tutulma





1922-ci yılda Ali Darülmüəllimat Kommunist küçəsində 8 nömrəli evdə özünə məxsus bina aldı ki, hal-hazırda dəxi məzkur binada bulunmadadır. Bu ali darülmüəllimat proqramı Məktəbəqədər Tərbiyə İnstitutunun proqramından fərqli idi. Bunun proqramı əsasına: türkcə, riyaziyyat, tarix, mədəniyyət, iqtisadiyyat, psixoloji fənləri vaz edilmişdi[110]. Bir institutun məqsəd və məsailik dəyişməsilə tədris planının dəxi dəyişdiyini görüyoruz.

1923-cü yılda Ali Darülmüəllimat mobilya[111] cəhətdən böhranlı hal keçirməkdə idi. O vaxta qədər darülmüəllimat mobilyasından istifadə ediyordu. Darülmüəllimat sinifləri artdıqca Məktəbəqədər Tərbiyə İnstitutu istifadə etməkdə olduğu mobilyayı geri verməli idi.

Fəqət az bir zaman içərisində Xalq Maarif Komissarlığının ciddi müavinəti və yoldaş *Fətulla bəy Rzabəylinin* ciddən iştirakı sayəsində bu böhranı bərtərəf etməyə müvəffəq olduq. 1922-ci yılın yayında Ali Darülmüəllimata daxil olmaq arzusunda olanların miqdarı çoxaldı və 115 qədər istida[112]verildi ki, bunlardan müsabiqə imtahanı icra edildiyindən sonra 62 nəfəri qəbul edildi. Birinci sinfə 52 tələbə, ikinciyə isə

---

[110] daxil edilmə, müəyyən etmə
[111] mebel
[112] diləkçə

10 tələbə qəbul edildi. Hal-hazırda Ali Darülmüəllimatda 104-ə qədər tələbə təhsil görmədədir ki, bunların 50% -i leylidir. Ali Darülmüəllimatda 52 leyli tələbəyə məxsusi vəsait mövcuddur. Tələbə vəziyyət-i ictimaiyyəcə aşağıdakı qərar üzrə təqsim edilmədədirlər: 75% kəndli çocuqları, 17% işçi çocuqları və 8% ziyalı işçi müəllimlər və şura işçilərinə mənsubdurlar. Darülmüəllimatda 22 müəllim vardır ki, bunlardan 18 nəfəri ali təhsillidir.

Azərbaycanda qadın tərbiyəsi ağır bir vəziyyətdə olduğu üçün Xalq Maarif Komissarlığı III kursun 17 nəfər tələbəsini bir yıl müddətində birinci dərəcə məktəblərdə dərs vermək üçün qəzalara göndərilməsini qərara almışdır. Bir yıldan sonra darülmüəllimatı üçüncü qrup qurtaracaqdır ki, bunlar qəzaya göndəriləcək və bu yıl qəzaya gedənlər isə təkrar Ali darülmüəllimata dönərək II dərəcəli məktəbdə dərs verməkdən ötrü xüsusi sinfini ikmal edəcəklərdir. Bu cari tədris yılında III kursun proqramı öylə tərtib edilmişdi ki, ümumi dərslərdən maəda[113]: türkcənin üsul-tədrisi, hesabın üsul-tədrisi, təbiətin üsul-tədrisi və pedaqoji tarixi dəxi daxil edilmişdi. Bunlardan başqa hər bir tələbə türkcə, təbiət və hesabdan nümunə dərsləri verməli idi. Ali darülmüəllimat qurtaran tələbələr ümumi dərslərdən olduqca gözəl bir surətdə hazırlanmışdır. Verdikləri nümunə dərslər bu-

[113] istisna olmaqla, başqa





nu isbat etməkdədir. Bunlar gələcək pedaqoji fəaliyyətlərində müvəffəqiyyət qazanacaqlardır.

Bu sənə çıxanların adlarını aşağıda göstəriyoruz.
(əlifba sırası ilə)

1.Axundzadə Mələk- Şamaxı qəzasından nəhari[114] tələbə
2.Atakişizadə Humay - Şamaxı " " nəhari " "
3.Eyyublu Sənubər - Qazax " " leyli " "
4.Usubova Gövhər - Qazax " " leyli " "
5.Tutayuq Fatma - Şuşa " " leyli " "
6. Pinova Nəzirə (Gürcüstan-Axısqa) nəhari " "
7.Hacızadə Tutu- Bakı " " nəhari " "
8.Xızırbəyli Şahizə- (Gürcüstan – Axısqa) nəhari " "
9.Xəlifəzadə Sürəyya- Şuşa " " nəhari " "
10.Şahtaxtlı Xədicə (İrəvan) nəhari " "
11.Sadıqzadə Şövkət- Şuşa " " nəhari " "
12.Səfərzadə Səkinə (Tiflis) - nəhari " "
13.Əlizadə Südabə (İrəvan) - nəhari " "
14.Qazızadə Güllərəc (İrəvan) nəhari " "
15.Qiyasbəyli Şirin Qazax " " leyli " "
16.Qiyasbəyli Müqdənisə Qazax " " leyli " "
16.Məhəmmədzadə Xanımana Bakı" " nəhari " "

Tələbələrin ictimai vəziyyəti:
Əkinçi sinfinə mənsub olanlar: 10
İşçi sinfinə mənsub olanlar: 4
Zəhmətkeş ziyalı müəllim sinfinə mənsub olanlar 3-dür.

**A.Lukyanova**

[114] gündüz (əyani)

## Nümunə məktəbinin tarixçəsi

Çar hökuməti qılıc qüvvətilə ələ keçirmiş olduğu qocaman məmləkətləri, əldə saxlamaq və ondan istədiyi kimi istifadə edə bilmək üçün xain siyasətini məktəblərə qədər soxmuşdu[115]. Zira ki onun ən çox qorxduğu məktəblər və onu ikmal etmiş olan açıq gözlü və alim gənclər idi. Ona görə də məhkum millətlərə ana dilində məktəblər açmaya müsaidə etməyib yalnız rus dilində və inanmış olduğu müdirlərin təxt-i idarəsində olan məktəblərdə oxumağa yol verilirdi. Azərbaycan bu xüsusda digər millətlərə nisbətən daha müşkül bir vəziyyətdə idi. Türk çocuqlarına məzkur məktəblərə girmək olduqca ağır və müşkül bir əmr idi. Zira ki rusca gözəlcə hazırlaşmayan və rus çocuqları ilə müsabiqə imtahanlarına girəmiyən türk çocuqları yüzünə məktəb qapıları bir növ qapalı idi. Bin zəhmətlə məktəbə girə bilən türk çocuqları da sıxı bir inzibat altına alınır. İstər kəndini hakim hiss edən rus müəllimləri, istər baş müdiriyyətdə hər gün yeni jurnallar almaqda olan müdir və müavinləri tərəfindən təzyiq görüb və türk çocuqlarını ruslaşdırmaq və onları türklükdən tamamilə uzaqlaşdırmaq siyasəti şiddətli surətdə təqib olunurdu. Türk

[115] daxil etmişdi, yeritmişdi





çocuqlarına məktəb daxilində müsamirə verməyə və türkcə əsərlər oynadılmağa müsaidə edilməyib onlara kəndi ana dili məcburi olmayaraq və türk müəllimlərinin tələbənin üzərində olan nüfuzunu qırmaq və onları əhəmiyyət və qiymətdən düşürmək siyasəti tərvic olunurdu[116].

Xülasə, türk tələbəsi, türk müəllimi məktəb daxilində kəndini məhkum və yabancı bir ünsür kimi hiss ediyordu. Müəllimlər şurasında müdir - baş müdirindən türk dilinin türk çocuqlarına məcburi olmayıb, leyli rus çocuqlarına məcburiyyəti – haqqında yeni gəlmiş jurnal oxunur ki, türk müəllimi bu haqsız əmrə etiraz ediyor, kəndisi pedaqoq və ana dilinin əhəmiyyətini anlamış olan arqadaşı rus müəllimi: "Rica ediyorum türk lisanı müəlliminin – bu etirazı protokola dərc olunsun, o bir kərə anlasın ki, Rusiya məmləkətində yaşıyor və "Rusiyada yaşayan hər bir millət rus qanunlarına tabe olmalı, boyun əyməlidir", diyor!!

Türk müəllimləri və tələbəsi bu ağır, əzici və öldürücü bir sıxıntı altında ta son inqilaba qədər sürünmək məcburiyyətində qaldılar. Nəhayət, böyük inqilab nəticəsində çar hökumətinin bütün millətlərə vurmuş olduğu ağır və mühlik[117] zəncirlər qırılmış və əsrlərdən bəri istibdad pəncəsi altında inləməkdə

[116] qəbul etmək
[117] öldürücü

olan məhkum millətlər artıq sərbəstlik və qurtuluş qoxusu dəymiş, 1917-ci yıl 28 noyabrda Zaqafqaziya Komissralığı (Seym) təşkil edilmişdi.

Məzkur təşkilatın Xalq Maarif Komissarlığı tərəfindən Azərbaycanda, Gürcüstanda və Ermənistandaki məktəblərin milliləşməsi haqqında əmr sədr olmuş və təcili surətdə icra edilməsi məktəb müdirlərinə bildirilmişdi. O zaman Azərbaycan maarif işləri nümayəndəsi Həmid Şahtaxtlıdan bütün Azərbaycan məktəb müdirlərinə olduğu kimi sabiq realnı məktəbi müdirinə də bu xüsusda əmr gəlmiş o zamana qədər kəndilərini hakim hiss etmiş olan rus müdir və müəllimlərini böyük təşvişə salmışdı. Məcburi dəvət edilmiş müəllimlər şurasının o vaxta qədər görülməmiş gurultulu-patırdılı iclasında, nəhayət, aşağı siniflərin milliləşməsinə qərar verilmiş və bu dəxi türk dili müəllimi Abdullah Şaiqə həvalə edilmişdi. Onun göstərməsilə Cəbrailbəyli Cəmo, Qasımzadə Ağa Əli, Qafur Rəşad və realni məktəbini ikmal etmiş olan Quluzadə Sadiq, Həsənzadə Qulam Əli və əski müəllimlərdən Abaşidze Abdullah müəllimlər şurasında qəbul olunmuş və bu yeni qüvvət sayəsində Realnı məktəbində 8 sinif milliləşdirilmişdir: - Əlifba şöbəsi 1, birinci ehtiyat şöbəsi 2, ikinci ehtiyat şöbəsi 2, birinci sinif 2, ikinci sinif 1.

Məktəblərin qapıları yüzlərinə geniş-geniş açılmış türk çocuqlarının və əsarət zəncirlərindən qurtulmuş türk müəllimlərinin yüzü gülüyor və onlara





həvalə edilən müqəddəs vəzifəni kamal-i ciddiyyətlə ifaya çalışıyorlardı.

İstər Qafqaziya komissarlığı, istər sonraki Müsavat hökuməti zamanında çar əsarətindən qurtulmuş türk müəllimlərini də əski düşüncə və müəllimlərindən ayrılmaq istəməyən rus müdir və müəllimlərinin əsarətindən qurtulamıyordu. Onlar bir kərə Azərbaycan xalqını tanımaq istəmədikləri kimi onların lisanını, məktəblərini və müəllimlərini də tanımaq və görmək istəmiyorlardı. Şura-yi müəllimin iclası gurultusuz-patırtısız keçəmiyor, hər zaman milli siniflərin önünə qocaman kötüklər yuvarlanaraq onu fəaliyyətdən durdurmaq və müəllimlərin ruh və enerjini qırmaq istərlərdi.

Lakin milli siniflər gənc və həvəskar müəllimlər çalışması sayəsində gündən-günə ilərliyor və tərəqqiyə doğru şitab ediyordu[118]. İşbu siniflərin milliləşdiyinin 2-ci sənəsi realnı məktəbi daxilində 9 türk və 12 rus sinifləri mövcud idi. Sənə nəhayətindəki otçotda[119] işbu 21 sinifdən milliləşən son üçüncü sinif əxlaq və müvəffəqiyyətcə birinciliyi qazanmışdı. Sinif mürəbbisi Abdullah Şaiq şura-yi müəlliminə üçüncü sinfin müvəffəqiyyəti haqqında izahat verdiyindən sonra "Əxlaqları haqqında kimsədən bir şikayət eşitmədim. Tələbədən məmnun qalmayan müəllimlər varsa, söyləsinlər" deməsilə fransız lisanı müəlliməsi

[118] sürətləndirmək
[119] hesabat

Qaplanova, a Iman lisanı müəllimәsi Barzak: biz bu sinfi nümunə görüyor və heç bir fənalığa təsadüf etmirik, dedilər. Və müdir və nəfər də onların sözlərini təsdiq etmişdi. İştə bu yıl məktəbimizi ikmal edən tələbələr 21 sinif içində nümunə olaraq göstərilən sinifdir.

Milli siniflərin tarixcəsi bununla da bitmiyor, şura hökumətinin təsisindən sonra məktəb binasını əsgərlər işğal etdiyindən məktəb binasız qaldı. Nəhayət, bir çox təşəbbüsatdan sonra əski 4-cü qız edadisi binasında öylədən sonra oxumaq şərtilə müsaidə verildi. Məktəb oraya köçmək məcburiyyətində qaldı və bir sənə orada davam etdi. Şura hökuməti zamanında bu məktəb ikiyə ayrıldı. Aşağı şöbələr və siniflər birinci dərəcə 9-cu məktəb, 3-cü sinifdən etibarən ikinci dərəcəli 12-ci məktəb namını aldı. O zaman yoldaş Rzabəyli Fətullah tərəfindən açılmış olan sənəlik pedaqoji kursları bitmiş və onun qutlu, yaradıcı əllərilə Ali Pedaqoji İnstitutunun təməli qurulmuşdu. İnstitut müdiri Rzabəylinin arzusu ilə işbu 12-ci məktəb Ali Pedaqoji İnstitutunun binasına köçürülüb institutun nümunə məktəbi namını aldı.

Bu yıl nümunə məktəbinin tələbəsi əskidən bəri nümunə məktəbin pərvanəsi olan müəllim möhtərəm Şaiq yoldaşın şərəfinə bir müsamirə tərtib etmişlərdi. Tələbə və müəllimlərin arzu-yi ümumisi əvvəlcədən kəşf edən Maarif Komissarlığı və baş tərbiyə-i ictimaiyyə dairəsi həmən müsamirə gecəsi bir çox





dolanbaclı yollardan gəlib bu yerə çıxan nümunə məktəbini "nümunə-yi Şaiq məktəbi" adlandırmışdır. Bu məktəb aşağıdakı tələbələri tərxis ediyor:

| | |
|---|---|
| 1. Ağazadə Soltan | Göyçay |
| 2. Əfəndizadə Azad | Şamaxı |
| 3. Əfəndizadə Əli Fuad | Axısqa (Gürcüstan) |
| 4. Əfəndizadə Adil | Axısqa (Gürcüstan) |
| 5. İbrahimzadə Şirəli | Göyçay |
| 6. İbrahimzadə Sadiq | Göyçay |
| 7. İsmayılzadə Yəhya | Göyçay |
| 8. Babazadə Əhməd | Bakı |
| 9. Bədəlbəyli Əfrasiyab | Qarabağ |
| 10. Bağırzadə Məhəmmədəmin | Bakı |
| 11. Hacı oğlu Vəli | Bakı |
| 12. Hüseynzadə Əbdülrəhman | Bakı |
| 13. Süleymanzadə İsrafil | Bakı |
| 14. Şıxəlizadə Murad | Göyçay |
| 15. Salahlı Saleh | Bakı |
| 16. Talıbzadə Talıb | Tiflis |
| 17. Əlizadə Ağakazım | Bakı |
| 18. Əlizadə Məhəmmədbağır | Göyçay |
| 19. Aşurbəyli Davud | Bakı |
| 20. Quluzadə Rəsul | Bakı |
| 21. Kazımzadə Qasım | Bakı |
| 22. Musabəyli Əmir | Şəki |
| 23. Mustafabəyli Ədhəm | Bakı |
| 24. Məhəmmədzadə Nəcəf | Bakı |
| 25. Mirzəzadə Arslan | Bakı |

26. Mirəhmədzadə Mir Əsədullah Göyçay
27. Yüzbaşıqlı Rəmzi Şamaxı

Bunların 15-i köylü, 7-i işçi və 5-i ziyalı əməkdaş sinfinə mənsubdurlar. İştə bu məktəbin bu illik məzunları yarınki türk darülfünunun ən mübarək oğulları və ön sırası olacaqdır.

*(Nümunə məktəbi müdirinin məruzəsindən alınmışdır)*





# TƏŞKİLAT VƏ İDARƏ İŞLƏRİ

## Ali Pedaqoji İnstitutu tələbə təşkilatı

Bu günkü quruluş şəraiti altında, məlum ki, hər məktəbdə tələbə təşkilatı mövcuddur. Bilxassə məktəblərdə "kəndi kəndini idarə" əsasına daha çox riayət edilməkdə olduğundan, məktəbimizdə mövcud tələbə təşkilatının da tərz təşkil və üsul-idarəsi haqqında məlumat verməyi lüzumsuz ədd edəməzdik.

Məlum ki, məktəblərdə mövcud tələbə təşkilatları quruluş və idarə üsulu etibarilə hər məktəbdə bir türdə deyildir və olamaz. Hər məktəb kəndi vəziyyət və şəraitinə müvafiq idarə olunduğu kimi tələbə təşkilatları da eyni şərait və vəziyyətə uyğun olaraq yaşamaqda və fəaliyyətdə bulunmaqdadır. Daha əvvəlləri, məktəbimizin illik təsis olunduğu vaxtlarda biltəbii, hər bir müəssisə və təşkilatın başlanğıcında olduğu kimi, bizim tələbə təşkilatında da təşkil və üsul etibarilə, bir qədər yanlışlıq və ibtidailik vardı. Son yıla qədər bu təşkilat sinif və kurs etibarilə, birər nü-

mayəndə intixab[120] etmək tərzilə qurulmuş və işə başlamışdı. Fəqət, hər bir doğru nəticə təcrübədən doğduğu kimi, təcrübə göstərdi ki, bu tərz təşkil və üsul-idarə ali və leyli məktəb həyatını lazımınca təmin edəmiyor. Nəhayət, bu yıl 23 şubatdan[121] etibarən müəyyən və əlverişli şərait taxtında tələbə təşkilatı yeni üsul üzrə quruldu. Ali Ünas və Zükur Pedaqoji İnstitutu talibə və tələbələrin məzkur gündə vaqe müttəhid[122] ümumi iclası nəticəsində 5 nəfəri Zükur, 4 nəfəri Ünas institutundan olmaq üzrə 9 nəfərlik bir heyət-i idarə intixab edildi. Bu heyət kəndi arasından sədri *Ramazanzadə Səfər* yoldaş olmaq üzrə bir İcraiyyə Bürosu, *Süleymanzadə Mahmud* yoldaşın sədarəti altında bir Akademik seksiyası və *Həsənzadə Həsən* yoldaşın sədarətilə bir Mədəni Maarif Komisyonu, bir də *İbrahim Xəliloğluzadə* yoldaşın taxt-i sədarətində Təsərrüfat komisyonu intixab etdi. Bu komisyonlar hər biri başda İcraiyyə Bürosu bulunmaq şərtilə müstəqilən fəaliyyətdə bulunurlar. Mədəni-maarif komisyonunun görəcəyi iş və vəzifəsi bilxassə tələbələrin kəndilərini çalışdırmaq və hər ixtisas dairəsində ayrıca iş görmək olduğundan həvəskarlardan ibarət olmaq üzrə bir qaç[123] dərnək təşkil etdi. Bu dərnəklər – ati izah ediləcəkdir.

---

[120] seçmək
[121] fevral
[122] birləşmiş
[123] bir neçə





1. Ədəbiyyat dərnəyi sədri: *Atababa Musaxanlı*
2. Təbiət dərnəyi sədri: *Hacıbala Hacızadə*
3. Riyaziyyat dərnəyi sədri: *Məhəmməd Abdullahzadə*
4. Dram dərnəyi sədri: *Şamil Vəzirzadə*

İştə bu surətlə qurulan üsul-idarə və təşkilat ilə Ali Pedaqoji İnstitutu tələbə təşkilatı idarə edilməkdədir.

Şimdi bir qədər də bu təşkilatın yıllıq fəaliyyəti haqqında izahat verilməsi lüzumsuz deyil zənnindəyiz.

1.**İcraiyyə bürosu**: Fəaliyyət müddətində büronun 12 dəfə iclası vaqe olmuş və qərarlara – məktəb daxilində təcili surətdə dərnəklər təşkil edilməsi üçün çalışılaraq müntəzəm fəaliyyətə başlanmış Mədəni Maarif Komisyonu dolayısilə təşkil edilən qiraətxana üçün qəzetə, məcmuə və s. tədarükü üçün və əlavə olaraq qiraətxanaya son siyasi nəşriyyat gətirmək xüsusunda maddi təminat əldə etmişdir. Məktəb daxilində bulunan Kommunist Gənclər İttifaqı ilə yaxın və sıxı əlaqəyə girişilmiş və büronun təşəbbüsü ilə yoldaş Cəlil Məhəmmədzadə tərəfindən bir qaç məruzə verilmişdir.

Bu mühazirələrdə Zükur və Ünas Pedaqoji İnstitutları talibə və tələbələri iştirak etmişlər. Bilümum, məktəb daxilində tələbə və talibələrin tam bir intizam daxilində bulunmaları üçün çalışılmış və müdiriyyət ilə sıxı və səmimi əlaqə təyid edilmişdir[124].

---

[124] təsdiqləmək

2.*Akademik seksiyası:* Seksiya işə başlar-başlamaz hər sinifdə kurskomlar intixabına başlayaraq kurslarda dərslərin gedişi və tələbə və talibələrin ləvazimat-i tədrisiyələrinə nəzarət edərək lazım olan yerləri islah və ikmal etmişdir. Pedaqoji şuralarında iştirak edərək tələbə və talibələrin hüququnu müdafiə etmiş və müdaviminin qüvve-yi elmiyyələrinin tədrici surətdə artırılmasına diqqət etmiş, son dövləti imtahanlarda da nümayəndə sifətilə iştirak etmişdir.

3.*Təsərrüfat komisyonu:* Tələbə üçün buraxılan parə və ləvazimatdan xəbərdar olaraq yerli-yerinə sərf olunmasına diqqət vermiş, ümumiyyətlə, giyəcək və yeyəcək kimi ehtiyacların təmininin mümkün qədər vaxtlı- vaxtında və müntəzəm bir surətdə olmasına səy və ihtimam[125] etmişdir.

4.*Mədəni maarif komisyonu:* - komisyon illik fəaliyyət olaraq aşağıda göstərilmiş olan dərnəkləri təşkil etmiş, məktəb daxilində pək lüzumlu olan qiraətxana açılması üçün təşəbbüsatda bulunmuş və açmış. Bu surətlə tələbə və talibələrin məhəlli siyasi və iqtisadi əhval ilə tanış olmasına çalışmış. Son imtahanlar başladığından yılın sonu üçün tərtib etmiş olduğu bəzi işləri həyata tətbiq edəməmişdir.

a)**Ədəbiyyat dərnəyi** – dərnək illik iclasda heyət-i rəyasət intixab edərək işə başlamış. Fəaliyyət müddəti içərisində 14 iclas etmiş. On gündə bir çıxmaq

[125] diqqət





üzrə 12 nömrü əl ilə yazılma "Örnək" adlı divar qəzetəsi çıxarmışdır. Bu qəzetədə yazı müsabiqələri talibə və tələbələrin fikri inkişafına çalışmışdır. Müxtəlif ədəbi və pedaqoji mövzularda 3 mühazirə vermiş. Başlayan tətbiqat – nümunə dərsləri və imtahanların başlaması üzərinə hazırlanmaqda olan ədəbi mühakimə təxirə uğramış və yıl sonu üçün çizmiş olduğu tənəzö[126] və səyahət proqramı həyata tətbiq ediləməmişdir. Fəaliyyət yılı içərisində çıxarılmış olan 12 nömrə qəzetənin müntəxab parçalarından təşkil edilmək üzrə nəşr edilməsi təsvir olunan ədəbi kitabçada, hələlik, təxirə uğramışdır. Dərnək təşəbbüsü ilə Suraxanıda mövcud tarixi Atəşgədələrə bir səyahət tərtib edilmişdir.

b) **Təbiət dərnəyi** – dərnək təşəbbüsü ilə tələbələr tərəfindən "Dövran demək mərkəzi", "Malpiki və həyat elmiyyəsi", "Cahan-i həzm", "Üzviyyətdə təkamül" ünvanlı 4 məruzə verilmiş və "Lenin" fabrikasına elmi tənəzö yapılmışdır.

c) **Riyaziyyat dərnəyi** – riyaziyyatın müxtəlif cəhətlərinə aid mövzularda ümumi konfranslar verilmişdir. Bu konfranslar qismən tələbələrə qismən müəllimlər tərəfindən oxunmuşdur. Mövzuların calib-i diqqət[127] tərəfi həyati və əməliliyi olmuşdur.

[126] gəzinti
[127] diqqət cəlb edən

d) **Dram dərnəyi** – tələbə və talibələrin səhnə həyatına alışması üçün təşəbbüsatda bulunan bu dərnək tərəfindən 4-5 tiyatro verilmiş və tətillərdə müsamirə konsertlər tərtib edilmişdir.

Konfrans, müsamirə, referatlarda Bakı pedaqoji məktəbləri iştirak etmiş və müxtəlif müsahibə və mübahisələrlə bitmişdir. İştə Ali Pedaqoji İnstitutu öz-özünü idarə prinsipini tətbiqindəki müvəffəqiyyətlər şu qısa yazdıqlarımızla ifadə ediləməz. Fəqət nə olursa olsun ümumi bir fikir verəcəyinə əminiz.

*İcraiyyə komitəsi sədri*
***Səfər Ramazanzadə***






"Ali Pedaqoji İnstitutu salnaməsi" məcmuəsinin üz qabığı. Bakı: Xalq Maarif Komissarlığı Azərbaycan Dövlət Xalq nəşriyyatı, 1924



Məktəbin ilk hamisi, sabiq Xalq Komissarları Şurasının sədri yoldaş Nəriman Nərimanov



Məktəbin hamilərindən biri Xalq maarif komissarı yoldaş Mustafa Quliyev



Məktəbin hamilərindən: sabiq Xalq maarif komissarı Dadaş Bünyadzadə



Məktəbin müəllimləri (soldan): Həbib bəy Mahmudbəyov, Əli-abbas Vəlixanlı, Fətulla Rzabəyli, Rəhim Cəfərov



Məktəbin ilk müdiri Fətulla bəy Rzabəyli



İlk müəllimlər Şurası (soldan): Rəhim Cəfərov, Həbib bəy Mahmudbəyli, Fətulla Rzabəyli, Məhəmməd Əfəndizadə, Abdulla Şaiq Talıbzadə, Əliabbas Vəlixanlı (*katib*)



Məktəbin ilk tələbələri (soldan): Vəli Axundzadə, Ağaveyis Mustafazadə, Əbdülmüsəvvər Ədilzadə, Zeynal Zeynalzadə, Atababa Musaxanlı, Əbülhəsən Rəhimov, Mahmud Süleymanzadə və məktəbin müdiri Fətulla bəy Rzabəyli (ortada)



Məktəbin müdiri (indi) Məhəmməd Əfəndizadə



Məktəbin müdir müavini Həbib bəy Mahmudbəyli



Məktəbin binasının xarici görünüşü (Azərbaycan İqtisad Universitetinin indiki əsas binası)



Məktəbin kitabxanası (soldan): kitabxana müdiri Əbdülhəsən Rəhimov, müavini Vəli Axundzadə



Məktəbin tarix və etnoqrafiya muzeyi (müdir Atababa Musaxanlı)



Məktəbin fizika kabinəsi:kabinə müdiri Məhəmməd Abdullazadə



Məktəbin kimya kabinəsi (sağdan) laborant Əbdülrəşid Əfəndizadə, kabinə müdiri kimya müəllimi Sadıq Hüseynov



Kişi İnstitutunun yataq odası



Kişi İnstitutunun yemək odası



İnstitutun nəzdində tətbiqat Şaiq məktəbi müəssisəsi yaradıcısı Talıbzadə Abdulla Şaiq



İnstitutun nəzdində tətbiqat Şaiq məktəbinin müdiri Qafur Əfəndizadə



Qadın Ali Pedaqoji İnstitutunun müdiri A.Lukyanova



Kişi Ali Pedaqoji İnstitutunun Pedaqoji Şurası üzvləri və tələbə nümayəndələri



Qadın Ali Pedaqoji İnstitutunun Pedaqoji Şurası və tələbə nümayəndələri



İnstitutun nəzdində tətbiqat Şaiq məktəbinin Pedaqoji Şurası üzvləri



Kişi və Qadın institutları:Tələbə İcraiyyə Bürosu üzvləri



İnstitutun nəzdində tətbiqat Şaiq məktəbinin tələblər komitəsinin üzvləri



İnstitut Kommunist Gənclər İttifaqının rəyasət heyəti



İnstitutun nəzdində tətbiqat Şaiq məktəbinin gənclər şurası



Kişi İnstitutunun tələbələrinin hazırladığı "Ədəbiyyat" adlı divar qəzeti



Kişi İnstitutunun məzun tələbələri



Qadın İnstitutunun məzun tələbələri (soldan yerdə oturanlar): Xanımana Məhəmmədzadə, Sürəyya Xəlifəzadə, Gövhər Usubova, Səkinə Səfizadə; (sandalyada oturanlar): Xədicə Şahtaxtlı, Sənubər Əyyublu, A.Lukyanova (məktəbin müdirəsi), Fatma Tutayuq, Nəzirə Pepinova, Şirin Qiyasbəyli, Humay Atakişizadə,(ayaqdakılar): Südabə Əlizadə, Müqədnisə Qiyasbəyli, Gülruh Qazızadə, Şahla Xızırbəyli, Şökət Sadıqbəyli



İnstitutun nəzdində tətbiqat Şaiq məktəbinin məzun tələbələri müəllimlərlə birlikdə



İnstitutun riyaziyyat şöbəsi məzunları (sağdan, yerdə oturanlar) Zeynal Zeynallı, Vəli Məhəmmədzadə, Ağaveyis Mustafazadə, (oturanlar) Əbdülmüsəvvər Ədilzadə, Tahir Abdullazadə, Məhəmməd Abdullazadə, Məhəmməd Süleymanzadə, Həsənəli Rzazadə, Nəsir Nəcəfquluzadə, Məhəmməd Əfəndizadə (müdir, ortada)



İnstitutun ədəbiyyat şöbəsi məzunları (sağdan oturanlar):Atababa Musaxanlı, İsmayıl Hikmət (müəllim), Teymur Şahverdili, (ayaq üztə duranlar): Feyzi Məhəmmədzadə, Surxay Hüseynzadə, Seyidələm Şərəfəddin, Məhəmmədbağır Bağırzadə



İnstitutun nəzdindəki tətbiqat Şaiq məktəbi məzunları (sağdan yerdə oturanlar): Vəli Axundzadə, Məhəmməd Bayramzadə, (sandalyədə oturanlar):Cəmiləkrəm Abdizadə, Məhəmməd Mədədzadə, Hacıbala Hacızadə, Neman Əfəndizadə, Hilal Rzabəyli (müəllim), Səlimə Osmanzadə (müəllim), Vahid Hacızadə, Rza Rzazadə, Qafur Qasımzadə, (ayaqdakılar): Əli Abdullahzadə, Əbdülhəsən Rəhimov, Əbdülrəşid Əfəndizadə, Əliağa Əhmədbəyli



İnstitut tələbələri kimya laboratoriyasında çalışarkən



Tələbələr təbiət odasında



İnstitutun nəzdindəki tətbiqat Şaiq məktəbinin tələbələri
kimya laboratoriyasında çalışarkən



Məktəbdə musiqi dəstəsi



Qadın İnstitutunda dərs zamanı



Kişi İnstitutunun məzunları müəllimlərlə birlikdə



Ali Pedaqoji İnstitutun müəllim və tələbələri



## İnstitutun Kommunist Gənclər İttifaqı Özəyi

Azərbaycan Ali Pedaqoji İnstitutu nəzdindəki "Lenin Kommunist Gənclər İttifaqı Özəyi" 12 noyabr 1923-cü yılında şəhər dairə komitəsi və məktəbin bir qaç həqiqi üzvləri təşəbbüsü ilə təsis edilmişdir. İlk günlərdə özəkdə 13 nəfər üzv və namizəd iştirak ediyordu.

Özək, Zükur, Ünas pedaqoji institutları və Şaiq namına olan Nümunə məktəbinin vahid bir siyasi bürosudur. Odur ki, həmin müttəhid özəyi heç bir vəchilə (məktəbin quruluşu etibarilə) yekdigərindən ayırmaq olmaz. Çünki bu məktəblər biri-birinin qiymətli məhsulu və eyni zamanda şərq zehniyyəti üçün bir düsturul-ali tutulmadadır.

Özəyin üzv və namizədlərinin təvəllüd ili:1901, 1902, 1903, 1904, 1905, 1906, 1907, 1899 və ilx. olanlardır.

Bunlardan birinci yılda üzv olanları: 6 nəfər, 21-ci yılda 5 nəfər, 22-ci yılda 2 nəfər, 23-cü yılda 5 nəfər, 24-cü yılda 4 nəfərdir. Hal-hazırda 22 nəfər üzvün pedaqoji institutu həyatında olması, siyasi nöqteyi-nəzərdən pək qiymətli və dəyərli bir amil həqiqi və həm də yarınki nəsil üçün birər rəhbər və örnək olsa gərəkdir.

Bu görüşdən sonra tələbə və talibələrin özəyə olan səmimi həvəsləri artır və hər addımda kəndilə-

rinə əsas məslək ittihaz[128] etdikləri "gənc kommunistlər" ittifaqına axın-axın gəlməyə başlıyorlar. Bu səbəbdəndir ki, şimdilikdə özək 45 nəfər üzv və namizədə malikdir. Bunlardan 12 nəfəri Ünas institutusu şöbəsindən olmaqla 5 nəfəri üzv, qalanlar isə namizəddirlər.

Tələbə və talibələrdən özəyə daxil olmaq arzusunda olanlar pək çoxdur. Özəyə təhkim olunmuşlar şimdi artıq davam etməzlər, cünki ittifaq daxilində "kəndini təmin" (самообслуживание) qalası qurulmuşdur. Bu qala yaşıyor və ələlbət, yaşayacaqdır. Bunun nəticəsi olaraq özək üzvləri arasında dürlü-dürlü siyasi mövzular altında məruzə gedər və məqsədə müvəffəq olunur.

Özək dini mövhumat və xürafat ilə ciddi mübarizə aparar.

Yoldaş Leninin söyləmiş olduğu: "Kommunist Gənclər İttifaqı Gənc Kommunist nəsli ittifaqı olub da hər bir addımını tərbiyə və biliyini yalnız istismarçılar əleyhinə zəhmətkeşlər ilə mübarizəyə sərf etməklə kəndi adını təsdiq edər".

İştə bundan dolayı böyük miqyasda götürmüş olduğumuz proje və vəzifəni "marksizm-leninizm" üzərində həyata təsbit etmək üçün mütləqa kütləvi bir dairədə yol gedəcəyimizə yəminliyiz".

Heç şübhə yox ki, böyük tərəqqi və təkamül bütün həyat-i ictimaiyyəmizdə birər canlı makinə və eyni zamanda xalq müəllimləri üçün zəhmət dünya-

[128] saymaq, olaraq görmək





sının bir parçasını göstərəcəkdir. Özək məktəb daxilində təşkil olunmuş dərnəklərin bir yardımçısıdır.

Özəyin məktəb firqə bürosu, icraiyyə şurası, mədəni maarif komisyonu, əncümən-i daniş komisyonu, müəllimlər şurası, əmələ ilə əlaqəsi fakültəsi pək möhkəmdir. Yuxarıda göstərilən təşkilatlarda özək nümayəndəsi iştirak ediyor. Əmələ fakültəsindən dəxi institut özəyində bir qadın və bir erkək daimi nümayəndə vardır.

Aşağıda çəkilmiş olan "statistik" özəyin faizi hesabı ilə əsasını göstəriyor. Burada Azərbaycanın müxtəlif qəzalarından və bilxassə şərqin uzaq ölkələrindən belə üzv və namizədlər vardır.

| Sıra nömrəsi | Qəzanın adı | Faiz hesabı ilə | Qeyd |
|---|---|---|---|
| 1 | Bakı | 5 | Özəkdə olan gənc kommunistlərin vəziyyəti ictimaiyyələri əsas etibarilə: fəhlə, əkinçi, kəndçi, qulluqçu, ziyalı və tələbələrdən ibarətdir. |
| 2 | Lənkəran | 2 | |
| 3 | Salyan | 9 | |
| 4 | Ağdam | 4 | |
| 5 | Qaryagin | 2 | |
| 6 | Gəncə | 5 | |
| 7 | Şamaxı | 1 | |
| 8 | Ağdaş | 3 | |
| 9 | Naxçıvan | 2 | |
| 10 | Quba | 1 | |
| 11 | İrəvan | 1 | |
| 12 | Gürcüstan ölkəsi | 1 | |
| 13 | Türküstan | 3 | |
| 14 | Krım | 3 | |
| | Həpsi: | 45-dir | |

Özəyin son günlərə kimi 3 dəfə heyət-i rəyasət seçkisi olmuşdur. (Heyət-i rəyasətdə Ünas institutundan dəxi intixab[129] ediliyor). Özəyin müsbət nəticələri pək çox, mənfi nəticələri isə azdır. Özək təşkil olunalı 53 iclas çağrılmış və 108 siyasi və ictimai məsələlər həll etmişdir. Bunlardan 5-i fövqəladə iclas təsmiyə[130] olunur. Özək üzv və namizədləri arasında olan münasibət pək gözəldir. Erkək – qadın məsələsi dəxi səmərəlidir. Üzvlərin bitərəflər arasında nüfuzu iyi, həm də ictimai hazırlıqları vardır.

Burada rəhbər və müəllimimiz Leninin fikirlərindən istifadə ilə xitam ediyoruz: *"Kommunist olmaq, yeni yetişən nəsli birləşdirmək, təşkil etmək və onlara mübarizədən ötrü tərbiyə və intizam vermək deməkdir. O zaman siz kommunist cəmiyyəti binasının inşasını başlayıb nəhayətinə çatarsınız". Və yaxud: "Kommunist olan gərək bəşəriyyətin hasil etdiyi bütün zənginliklər ilə kəndi biliyini kamilləşdirsin".*

İştə bu hal həqiqi ilə addımlamalı və leninizmi yaşatmalıyız!!!

*Rəyasət-i heyəti naminə*
***Feyzi Məhəmmədzadə***

[129] seçilmə
[130] adlandırma





## Nümunə məktəbinin təşkilat və idarəsi[131]

Məktəbin hazırki quruluşu. Nümunə məktəbi 4 sinifli və ikinci dərəcəli bir məktəbdir. 4 sinifdə olan tələbənin sayı 129-dur. Bunlardan 42-si Bakılı, 78-i xaricdən gəlmələrdir. Xaricdən gələnlərin bir qismi və ən fəqir olanları Ali Pedaqoji İnstitutunun pansiyonunda yaşıyorlar.

Birinci sinifdə 40, ikincidə 36, üçüncüdə 26 və dördüncü sinifdə 27 tələbə vardır. Bu yıl axırıncı sinifdəki tələbənin həpsi məktəbi bitiriyor.

## Tədris heyəti

Məktəbimizin türkcə və ədəbiyyat müəllimləri Abdullah Şaiq və Hüseyn Sadıqdır. Türkcə dərslərini birinci, ikinci sinifdə Həsən Sadıq, yenə birinci, ikinci sinfin rusca müəllimi Səmədağa Qayıbov, üçüncü və dördüncü sinfinki Aleksandr Leplinskidir. Tarix və ictimaiyyat müəllimi Süleyman Səlimdir. Riyaziyyat dərsləri: birinci, ikinci siniflərdə Ziya Azaqbəyli, üçüncü və dördüncüdə Kərim Qaziyevdir. Bundan başqa müsəlləsat[132] dərsi son sinifdə Məhəmməd Əfəndizadə tərəfindən tədris edilir.

[131] Ali Pedaqoji İnstitutu nəzdində ikinci dərəcəli Şaiq Nümunə məktəbi müdiri Qafur yoldaşın məruzəsindən alınmışdır
[132] triqonometriya

Ruhiyyat müəllimi üçüncü və dördüncü sinifdə doktor Xəlil Fikrətdir. 1-ci, 2-ci siniflərdə ruhiyyat dərsi yoxdur. Təbiət müəllimi birinci və ikincidə Ali Pedaqoji İnstitutu təbiət şöbəsi son kurs tələbəsindən Neman Əfəndizadə, üçüncü və dördüncüdə Məhəmməd Bayramzadədir. Üç axır siniflərdə hikmət dərsi İsmayıl Novruzi tərəfindən tədrs olunur. Birinci sinfin hikmət dərsləri bütün siniflərin kimya dərsləri Xudaverdi Kələntərli, coğrafiya dərsləri Qafur Rəşad Mirzəzadə, almanca dərsləri İvan Viktoroviç Denfer, rəsm dərsləri İvan Vasilyeviç Berinq tərəfindən tədris edilir.

Şura-yi müəllimin katibi Xudaverdi Kələntərli, katib-i ümumi institut tələbəsindən Teymur Cabbarzadədir.

### Dərslər

Hər sinifdə proqram "dərs" üsulu ilə təqib edilmişdir. Lazım gələn təcrübələr Ali institutun kabinələrində göstərilmişdir.

Nümunə məktəbi, əsasən, eyni zamanda institutun "tətbiqat" məktəbidir. Bina-i aliye-yi institutun bu yıl məzuniyyətə çıxacaq müəllimləri – yəni son sinif tələbəsi – nümunə məktəbində birər, ikişər tətbiqat dərsləri vermişlərdir. Dərslərdə Nümunə məktəbi müəllimləri də iştirak etmişdir.

Təlim və tədris sərbəst üsulu ilə davam etmiş tələbə heç bir sıxıntıya məruz qalmayaraq heyət-i müəlliminin daima pədəranə nəsihət və rəhbərlik ilə dərsinə çalışmışdır.





### Şura-i müəllimin

Məktəbin pedaqoji işlərini tərtib və tənzim üçün lazım gəldikcə şura-yi müəllimin dəvət olunaraq əsaslı məsələlərə baxılmış və qərarlar çıxarılmışdır.

### Tələbə təşkilatı

Məktəbin "tələbə komitəsi" vardır. Komitə bütün şagirdin ümumi iclası ilə intixab olunmuşdur. Tələbə komitəsi ədəbiyyat, riyaziyyat və təbiət dərnəklərinə bölünür. Hər dərnək ixtisası daxilində çalışar, divar qəzetələri, müsamirələr, referatlar verilir.

Bundan əlavə məktəbimizdə bir də "gənclər ittifaqı" vardır. Bunlar institut və ali darülmüəllimatın gənclər heyətilə birlikdə işliyorlar. Şura-yi müəllimin iclaslarında hər iki komitənin daimi nümayəndəsi iştirak edir. Məktəbimizdən bu sənə gənclər ittifaqına qoşulanların miqdarı 18-dir.

### Təsərrüfat və maliyyə işləri

Nümunə məktəbin xüsusi təsərrüfat həyatı yoxdur. Məsarif və sairə müəllimlərin maaşı həpsi institutun təsərrüfat və maliyyə şöbəsi tərəfindən təsviyə edilir.

# TƏRBİYƏ VƏ TƏDRİS İŞLƏRİ

## Ali Pedaqoji İnstitutu Ədəbiyyat şöbəsi nümunə dərsləri

Ədəbiyyat şöbəsinin 1923-24 sənəsi fəaliyyəti arasında nümunə dərsləri də ayrıca izaha dəyər.

Nümunə dərsləri, bütün sənə, hətta bütün məktəb və təhsil müddətində əldə edilən məlumatın əməli bir hala gətirilməsi, tətbiq edilməsi deməkdir ki, müəllimlik həyatı, tədris və təlim, idarə və tərbiyə cəhətlərincə böyük bir qiymət və əhəmiyyəti haiz məsələdir.

Nümunə dərsləri müəllimliyə hazırlanan gənc yoldaşların gələcəkdəki fəaliyyətləri üçün birər nümunə olacaq, qabiliyyət və müvəffəqiyyətləri haqqında əsaslı bir fikir verəcəkdir. Şu etibar ilə, Ali Pedaqoji İnstitutunda, öylə sanıyorum, bu cəhətə hər halda çox fazla əhəmiyyət vermək lazımdır.

Şu qədər var ki, nümunə dərsləri verən gənc yoldaşların xüsusilə iyirminci əsrdə böyük bir qiymət





alan, bir fənn məxsus olan üsuliyyəti haqqı ilə bilmələri lazımdır.

Müəllim demək üsul deməkdir. Həyat tədrisiyyəsində elmi bir üsul əldə edib tətbiqə müvəffəq olmamış tələbəsini məsud və müvəffəqiyyətli bir yoldan götürməyə müzahərət[133] əldə etməmiş bir müəllim bütün müddət həyatınca bədbəxtdir. Şu etibarilə müəllim hazırlamaq xüsusunda sərf edilən zaman yol və vaxt içində tətbiqata, üsuliyyata verilən qiymətin hər halda şimdiyə qədər təqib ediləndən çox daha fazla olması lazımdır.

Bu sənə dərsiyə əsnasında üsuliyyata ümumi bir nəzərlə türkcənin tədris üsullarına dair müxtəsərcə olsa bir fikir alan ədəbiyyatçılar şubat[134] ayı əsnasında institut binasındakı Nümunə məktəbində müxtəlif siniflərdə nümunə dərsləri vermək surətilə də bir hazırlıq yapdılar. Dərslər təbii olaraq, Nümunə məktəbi siniflərində şubat ayı tərəfində tədris olunan dərslər arasında intixab ediliyor və mövzular bilxassə Nümunə məktəbi müəllimləri tərəfindən təyin olunurdu.

Nümunə dərsi verəcək olan ədəbiyyatçı verəcəyi dərsin konspektini hazırlamaq üçün sinif müəllimi ilə müzakirə ediyor və hazırladığı konspekti məsudə halında üsul tədrisi müəlliminə göstərərək tədqiq və islah edildikdən, izahat lazimə alındıqdan sonra yü-

133 dəstək olmaq, kömək etmək
134 fevral

zünü ağartaraq hazırlayır və müəyyən zamanda konspekt üzrə dərsini veriyordu.

Dərslər nəhayət bulduqdan sonra iştirak edən bütün ədəbiyyatçılar institutun sair şöbələri əfəndilərindən arzu edənlər xaricdən dərsə iştirak edən müəllim mürəbbi və maarif adamlarından istəyənlər Nümunə məktəbi sinif müəllimi və üsul tədris müəllimi hazır bulunduqları halda verilən nümunə dərsinin tənqidi və münaqişəsi yapılıyor. Dərs əsnasında görülən əksiklər söyləniyor, konspektin quruluşuna, tətbiq edilmiş, dideksiyona, üsula, müəllimin hərəkətinə, sairəyə dair iyi və fəna cəhətlər göstəriliyordu. Bu tənqidatın hazırlanacaq olan digər ədəbiyyatçılar üzərində iyi və ibrətli təsirlər buraxacağı pək təbiidir.

Ədəbiyyatçılar gördükləri üsuliyyatın mövcudluğuna, ümumiliyinə rağmən, verdikləri nümunə dərslərində müvəffəqiyyət göstəriyorlardı. Bunda da sırf şəxsi qeyrətlərinin həvəs və məslək aşiqinin böyük əsərləri vardı. Bu da gələcək üçün böyük ümidlər verə bilir. Verilən nümunə dərsləri arasında ikinci dərəcəli məktəblərdə tarix- ədəbiyyat dərsi, qiraət və izah dərsləri, fikrin və bədii qiymətin izahı, əski və yeni ədəbiyyatın ayrılıq nöqtələrinin izahı kimi mühümcə cəhətlərə fazlaca əhəmiyyət veriliyordu. Bilxassə verilən dərslərin elmi bir quruluşla təqib və tətbiqinə nəzər olunurdu.

Nümunə dərsləri, ümumiyyətlə, müvəffəqiyyətli keçmişdi, fəqət yuxarıda da söylədiyimiz kimi müəl-





lim demək üsul deməkdir. Şu halda institutu bitirən gənc müəllimin gələcək müvəffəqiyyətindən əmin olmaq üçün onu fəaliyyət sahəsində fazla görmək, heç olmazsa, son sənə əsnasında fazla çalışdırmaq şərtdir. Bu nöqtəyə lazımi dərəcədə əhəmiyyət verilməyəcək olursa, öylə sanırım ki, əldə edilən məlumatın tətbiqi cəhəti bir az zəif qalacaqdır. Halbuki onu hər cəhətdən ziyadə qüvvətləndirmək pək mümkündür. İnstitutun daxilində bir nümunə məktəbinin mövcudiyyəti bunun üçün kafidir. Gənc müəllimlərin sənə nəhayətində böylə bir-iki nümunə dərsi verərək tətbiqat sahəsinə atılmaları tədris-i elmiyyatda bəzi yanlışlıqlara, yoxlama və təcrübə türləri ilə vaxt qaib etmələrinə, hətta bəzən idarəsizliklərə belə meydan verə bilir. Hər halda son sənənin heç olmazsa, ikinci dövrəsində hər müəllim namizədi on iki dərs qədər verərək türkcənin müxtəlif şöbələrində nasıl dərs verildiyini bilfəal tətbiq edərək öyrənməlidir. Bilxassə lisan məsələsi ən canlı və ən həyati bir məsələdir. Hətta gənc müəllimlər bu mümarisələri[135] ibtidai məktəblərindən başlayaraq ikinci dərəcəli məktəblərə yüksəlməli "əlifbeyi" oxutmaqdan işə girərək dərəcə-dərəcə ədəbiyyat siniflərinə qədər gəlməli təcrübəsini, mümarisəsini qüvvətləndirməlidir.

Şübhə yox ki, qiraətin, imlanın, mükalimənin müşahidə və təhlil dərslərinin, yazı və lisan dərslərinin,

---

[135] təcrübə, işə alışma

inşad[136] və əzbər dərslərinin, sərf ve nəhv[137], qüvve-i edadiye[138], üsul-i tahrir dərslərinin üsullarında böyük fərqlə, əsaslı təfavütlər vardır.

Yetişən müəllimlər hər halda bunlardan birər, ikişər dərs verərək bu fərqləri tətbiqi və əməli bir surətdə görərək anlamalı və görməlidir. Biltəbii bunun üçün son sənədə veriləcək üsuliyat dərslərinə də fazlaca zaman ayırmalı, əsaslı surətdə uğraşılmalıdır.[139] İştə institut bu cəhətdə düşündüyü üçün gələcək illərın proqramında üsul dərsləri saatlarını artırmağı da nəzərə almışdır.

*Ali Pedaqoji İnstitutunun*
*Türk ədəbiyyatı tarixi və*
*üsul tədris müdərrisi*
***İsmayıl Hikmət***

136 şeir oxuma, qiraət
137 qrammatika, sintaksis
138 əvvəllər lisey tipli məktəblərə verilən ad
139 məşğul olmalıdır





## Ali Pedaqoji İnstitutu 1923-24 sənəsi hikmət-riyaziyyat şöbəsində riyaziyyatdan yapılan tətbiqat dərsləri haqqında izahat

Riyaziyyat şöbəsi üçün bu sənə riyaziyyatın üsuluna təhsis edilən[140] zaman həftədə ancaq bir saatdan ibarət idi. Sənə əvvəlindən şubata qədər cəbr, həndəsə və müsləsatın üsul-i tədrisinə cəmiən on səkkiz saat sərf edilmişdir. Şubat və mart aylarında da tələbələrə tətbiqat dərsləri üçün konspekt hazırlamaları təklif olunmuş.

Dərs mövzuları da institut daxilində Nümunə məktəbində riyaziyyat dərsləri verən müəllimlərlə üsul-i tədris müəllimi tərəfindən təyin olunmuşdur.

Hər tələbə biri cəbrdən, biri həndəsədən olmaq üzrə iki nümunə dərsi verməyə məcbur edilmiş. Hər dərsə hazırlanmaq üçün də kəndilərinə üç, dörd gün verilmişdir. Hər tələbə hazırladığı konspekti üsul-i tədris müəlliminə tədqiq və islah etmək üzrə verir.

Müəllim də kəndisinə lazım gələn izahat verərək konspektlərini müvafiq bir hala gətirmələrinə yardım edər və bilmədiklərini də öyrədirdi.

Burada təsirlə söylənəcək bir cəhət vardır ki, o da vaxtın az və dar olması, digər cəhətdən də konspektlərin nümunə tələbələrinin şubatda keçməkdə olduq-

140 ayrılan

ları dərslərdən intixab edilmək məcburiyyətində bulunmasıdır.

Əgər böylə bir məcburiyyət qarşısında qalınmasaydı, riyaziyyat şöbəsi tələbəsi kəndi ixtisası fənlərinin ən əsası qismlərindən nümunə dərsləri hazırlamaq surətilə daha ziyadə istifadə təmin etmiş olacaqları kimi, konspektləri də sadəcə üsul müəllimləri ilə kəndi aralarında alilacələ[141] və qısaca deyil, bəlkə, bütün sinif yoldaşları ilə bərabər və ətrafilə tədqiq və münaqişə edilərək hazırlanırdı ki, bu da şübhəsiz, kəndi haqlarında çox daha faydalı olurdu.

Nümunə dərsləri üçün verilmiş olan mövzular bunlardır:

**Həndəsədən:** Mütəvazi[142] aləzəlain[143] və müstətilin[144]qətərlərinin[145] xassələridir. Bir müsəllisin[146] iki zələnin[147] müntəsif[148] nöqtələrinin vəsl edən[149] xəttin xassəsi, şəbəh[150] münhərifin[151]orta xəttinin xassəsi, bir gölün ərzini[152] ölçmək və müəyyən bir nöqtə ilə yanı-

[141] tez, təcili
[142] burada: paralel
[143] paraleloqram
[144] düzbucaqlı
[145] diaqonal
[146] üçbucaq
[147] yan tərəflər
[148] daimi
[149] birləşdirən, qovuşduran
[150] bənzər
[151] əyri, çəp
[152] enini





na varılmayan bir cism arasındaki məsafəni ölçmək. İki müvazi[153] müstəqim[154] xəttin üçüncü bir müstəqim ilə qəti halında hasil olan zaviyələrin[155] xassələri:

Dairə və mühit-i dairə və onlara mütealliq[156] müstəqimlər. Müəyyən və mürəbbe[157] və onların qətərlərinin xassələri.

Müşabe[158] müsəllislər (hallardan biri)

Bir qətəyi-müstəqiməni[159] bir taqım müsavi[160] parçalara təqsim etmək.

**Cəbrdən:** Bütün hədlərində müştərək olan məzrubi[161] mötərizə xaricinə almaq surətilə bir zuhdud kəsirəyi[162] iki məzrubə təfriq etmək[163].

Zərb[164] düsturları vasitəsilə bir zuhdud kəsirəyi məzrubatına təfriq etmək.

Zohdud kəsirələrin tarhı[165].

Zohdud kəsirələrin zərbi.

Zohdud kəsirələrin təqsimi.

Zərb düsturları.

[153] paralel
[154] düz
[155] bucaq
[156] bağlı, əlaqəli
[157] kvadrat
[158] oxşar
[159] düz parça
[160] bərabər
[161] vurulan
[162] limitsiz kəsr
[163] ayırmaq
[164] vurma
[165] bir sayı o biri saydan çıxmaq

Faiz-i mürəkkəb

Dərslərin əksərisi öristik[166] (isticvabi[167]) üsul ilə tədris olunmuşdur.

Üsul-i tədris dərslərində və tətbiqat dərslərində əldə edilən nəticə və qiymət haqqında bunu deyə biləriz:

Əvvəla, üsul-i tədrisə təhsis edilən on səkkiz saat pək azdır. Haqqilə üsul-i tədrisi izah və təqrirə[168] kafi deyildir. Ancaq əski məsələlərdən bəhs edilə bilir. Məsələ: Cəbrdən tələbələrin nəzər-i diqqətinə verilən elm-i hesabdan, cəbrdən tələbə ilə nə fayda ilə görülməli. Mənfi ədədlər bəhsi də tələbələrin özlərini düşündürə biləcək və məsələlərdən çocuqlar kəmiyyətləri adi ədədlərlə deyil onların əksi olan ədədlərə təsadüf edərək burada başqa ədədlər qullanılmaq[169] lazım olduğu nəticəsini kəndiləri çıxara bilsinlər və eyni məsələlərdən o mənfi ədədlərin əməliyyatını və qaydalarını da öyrənsinlər.

Cəbrin məqsədi müadələ[170] qurmaq və müadələlər həll etmək olduğundan tələbələrin fikrini bilxassə bu nöqtəyə cəlb edərək cəbrin ibtidasından sonuna qədər müadələlər bəhsi gözlərinin önündə tutmalarını və dərs verdikləri zamanlarda bu ümdə məqsədi unutmamalarını kəndilərinə tövsiyədən xali qalmıyordum.

---

[166] qısa yol, alqoritm
[167] sorqulama,
[168] məlumat, hesabat
[169] İstifadə etmək
[170] tənlik





Bir də məsələlərin təhlil və tərkib üsulları ilə həll etmələri lüzumunu da izhar etdim. Məsələlərin təhlil üsulu ilə həlli tələbələrin fikrinə tənqidi bir tərbiyə verdiyindən mürəkkəb məsələlərin həllində də o məsələləri təhlil ilə bəsit məsələlər halına gətirilməsi işi qolaylandırdığından tələbə üçün də çox qolay və faydalı olur.

Birinci, ikinci dərəcəli məktəblərdə yeni riyaziyyat proqramlarının məthul[171]komitələrin və onların yekdigərinə[172] təbiətləri fikrini tədricən tələbəyə anlatmağı tələb etdiyini nəzərə alaraq bu xüsusda qrafik üsulunun məsələ və müadələlərin həllindəki qiymət və əhəmiyyətini göstərdim. Və qrafik üsulilə mümkün olan yerlərdə tədrisatda bulunmalarını tövsiyə etdim.

Hökmi və kimyəvi xassələrin təyinində qrafik üsulunun verdiyi nəticələr riyaziyyat işarətləri ilə əldə edilən düsturlardan daha aydın olaraq hadisələri düşündürməyə xidmət etdiyindən təcrübəli bir müəllim əlində, şübhəsiz, təbiətdə daima təsadüf etdiyimiz hadisələrin yekdigərinə tabe olduğunu anlatacaq və aydınlaşdıracaq qüvvətli bir vasitə olur.

Həndəsəyə gəldikdə tələbəyə əməli həndəsədən tədricən nəzəri həndəsəyə keçilmək lazım gəldiyi göstərilmişdir. Həndəsə də cəbr kimi əsasını hesabdan almalı və həndəsə haqqında verilən məlumat ço-

---

[171] dəyişən
[172] biri o birinə

cuğun gördüyü və gözilə qavradığı aşkarlı öyrətmək və rəsmlərini yapdırmaqla başlamalıdır.

Həndəsə lazım olduğu qədər bu təcrübələr tətbiq edildiyindən və məsafə haqqında bir fikir verildiyindən sonra onlara yalnız təcrübə vasitəsilə doğru və bir nəticə alamadığımızı və onların məntiqi isbatına da lüzum olduğunu anlayacaq bir dərəcəyə qədər gətirməlidir. Böylə məsələlərin çocuğu kəndi qənaətilə inandıraq məntiqi isbatın lüzumunu kəndilərinə də təsdiq etdirmək mümkün olacaqdır. Həndəsədə təhlil üsuluna fazla əhəmiyyət verilərək davaları[173] tələbəyə bir məsələ tərzində söyləməli, məsəla: "bir müsəllisin daxil zaviyələrinin məcmuyu iki qaiməyə məsavidir" davasının yerinə: "Müsəllisin daxil zaviyələrin məcmuunu təyin ediniz!" demək olur. Bu üsulun isbatı daha iyi nəticə verir və tələbənin bazate[174] hərəkətilə yaratmaq qabiliyyəti artır. Fəqət, tərtib üsulu tələbəni hərəkətsiz olaraq hazırlanmış olan isbatları olduğu kimi öyrənməyə məcbur edər. Cəbr və həndəsə üsul-tədrisləri üçün düzəlmüş rəhbər bulunmadığından tələbələrə riyaziyyatın üsul-tədrisi haqqında mümkün olduğu qədər bəzi kitablar göstərilmişdir.

Bunları aşağıda göstəriyoruz:

1. Ciyun-Yong – Nə tərzdə riyaziyyatdan dərs verməli

2. Serra – Cəbrin üsul-i tədrisi

[173] tapşırıq

[174] burada: qığılcım kimi, sürətli





3. Şuhur Trotski – Məsələlər üzrə həndəsə

4. Esteyab - Əməli həndəsə

5. Simon – Riyaziyyatın didaktiki və üsul-tədrisi

6. E.Tison – Cəbrin qrafik üsulilə tədrisi və ilx.

Bundan maəda[175] tələbələr üsul-tədrislərində tutduqları notlardan da ayrıca istifadə etmişlərdir. Şu verilən məlumatın kəndilərinə verdiyi şövq ilə və kitablardan və tətbiqat dərslərindən aldıqları nəşə ilə tələbələr riyaziyyatın yeni-yeni üsul tədrisləri haqqında bütün qayrət[176] və ciddiyyətləri ilə tədqiqat və təhriyyatda bulunuyor və müttəhid[177] məsai məktəblərinin proqramlarına da böyük əlaqə göstərdikləri məmnuniyyətlə müsaidə ediliyordu.

*Ali Pedaqoji İnstitutunun*
*riyaziyyat və üsul-i tədris müdərrisi:*
***Məhəmməd Əfəndizadə***

[175] başqa

[176] böyük güc sərf etmək

[177] birləşmiş

## Təbiət şöbəsində nümunə dərsləri

Təbiət şöbəsinin nümunə dərsləri başlanmazdan əvvəl bu dərslər əsnasında rəhbər ittihaz[178] ediləcək elm-i təbiətin müxtəlif tib metodlarından nəzəri olaraq leksiyalar dinlənilmişdir. Üsul-i metoddan əvvəl elm-i təbiyə tədrisinin rükununu[179] təşkil edən onun tarixi və metodolojisi haqqında lazımi məlumat verilmişdir. Təbiət şöbəsində metod dərslərini aparan institutun müdiri *Fətulla Rzabəyli* idi. Elm-i təbiyə metodolojisinin kursundan leksiya bitdikdən sonra metodun kəndisinə başlanılmışdır. İllik dərslərdə digər elmlərin metodilə elm-i təbiyə metodu arasındaki başqalıqlar, metod və tədrisdə metodun əhəmiyyəti, əski yunanilərdən tutmuş son zamanlara kimi elm-i təbiyə metodunun tədricən təkamül və inkişafı haqqında lazımi qədər məlumat verilmiş. Başlanğıc olan şu məlumatdan sonra tək-tək üzvinin, qeyri-üzvinin və coğrafiyanın tərz-i tədrisində söylənmişdir. Bunlar miyanında[180] "kompleks", "laboratuvar" və "biolojik" metoduna da ziyadəsilə vaxt sərf edilmiş. Laboratuvarlar, kabinələr quruluşundan qaydası, "akvarium", "vivarium", "terarium"dan geniş məlumat verilmişdir ki, bunlar birər elm-i təbiyyə müəlliminin

[178] burada: gərəkli, lazımlı
[179] sütun
[180] arasında, içində





ən dəyərli və qiymətli tərəflərindən add edilsə[181] gərək. Təcrübə dərslərinin metoduna gəldikdə "son laboratuvar", "laboratuvar təhri" "laboratuvar-illüstrasion", "laboratuvar-təhlili", "laboratuvar-demonstrasion", "aktiv-passiv" istehsal kimi ən son və yeni metodlar üzərində bəhs aparılmış. Birər-birər bunların mövqe tətbiqi, iyi və fəna tərəfləri şərh və izah edilmişdir. Təbiət dərslərində elmi "ekskursiya"ların və fotoqrafiyanın mühüm rolu olduğundan onların üsulları dəxi göstərilmişdir. Birinci dərəcəlilər elm-i təbiyəsilə, ikinci dərəcəlilər elm-i təbiyəsi metodu arasında nə kimi fərqlər var, onlar da söylənilərək anlatılmışdır.

İştə metodlar haqqında nəzəri bu məlumatı anlayaraq qavradıqdan sonra təbiət şöbəsi tələbələri institut nəzdində mövcud ikinci dərəcəli nümunə məktəbində tətbiqat nümunə dərslərinə başlamışlardır. Təbiət şöbəsi tələbələri nümunə dərslərini martın birindən başlamışlar. *Kimyadan, təşrih*[182] və *fizioloji-i insanidən, botanik və zoolojidən* birlikdə olaraq on üç nümunə dərsi olmuşdur. Əməli olaraq hər tip metodun nöqsan və muhsənatını[183] dərindən öyrənmək və bu günkü zəhmət məktəblərinin tələbatına uyğun və yararlı tərəflərini lazımi dərəcədə təmin etmək məqsədilə dərslər yuxarıda göstərilən müxtəlif metodlar üzrə aparılmış. Dərs verən hər tələbə kəndi istədiyi

[181] qəbul etmək
[182] anatomiya
[183] üstünlüklər

fəndən olaraq nümunə məktəbinin eyni fənn müəllimindən material alıb istədiyi metod üzrə konspekt yapdıqdan sonra konspektin təhsisi üçün və göstərmələr almaq üçün metod müəlliminə müraciət edərək səlahiyyət alandan sonra dərsini vermiş. Şöbənin bütün nümunə dərslərinə *Fəthullah Rzabəyli* rəhbərlik ediyordu: Təbiətçilərin nümunə dərslərində əksəriyyətində komissariyyatın qəza müfəttişləri, institut müəllimləri və bəzilərində Maarif Komissarı yoldaş *M.Quliyev* dəxi iştirak ediyordu. Təbiət şöbəsi tələbələrinin nümunə dərsləri aşağıdaki tip metodlar üzrə aparılmışdır:

1)"laboratuvar-illüstrasion" metodu ilə 1 dərs
2)"laboratuvar-demonstrasion" metodu ilə 4 dərs
3)"laboratuvar təhri" metodu ilə 2 dərs
4)"biolojik" metodu ilə 4 dərs
5)"aktiv-passiv" metodu ilə 2 dərs

Dərslərin təhlil və müzakirəsinə gəldikdə metod və sair dərslərdə olduğu kimi Rusiyanın Pulutsov və sair bu kimi məşhur metodistlər şagirdliyində bulunan möhtərəm Fəthullah Rzabəylinin rəhbərliyilə burada dəxi böyük təcrübələr və dəyərli məlumatlar əldə edilmişdir. Dərslərin müzakirəsi olduqca böyük və gurultulu münaqişələrlə keçirdi ki, bu da tələbələr üçün pək faydalı idi. 1-3 dərs müstəsna olmaq üzrə təbiət şöbəsinin nümunə dərsləri əla və müvəffəqiyyətlə keçilmişdir.

*Ali Pedaqoji İnstitutunun*
*Təbiət şöbəsi məzunlarından*
***E.Rəhimov***





## Ali Ünas Pedaqoji İnstitutu tərbiyə işləri

Ali Darülmüəllimatda imdi tərbiyəyə son dərəcədə əhəmiyyət verilmədədir. Tərbiyə təməlinə ictimai tərbiyə əsasları zəhmət prinsiplərini havi[184] İtaliya pedaqoqu Mentesurinin[185] üsulu vəz[186] edilmişdir. Ali darülmüəllimatın nizamnaməsində bir qism xüsusi surətdə olaraq tərbiyə təhsis edilmişdir. O da aşağıdakından ibarətdir.

### VI. Tərbiyə qismi

28 – Ali darülmüəllimatda tərbiyə işləri zəhmət prinsipi üzərində olmalıdır. Ahəngdar bir surətdə nəzəriyyat və əməliyyat uyuşmalıdır. Fənn tələbələri həyatdan ayırmamalıdır. Onlar gələcək ictimai fəaliyyət üçün hazırlanmalıdırlar. Bütün fikrin çox hissəsi fənn qismlərinin öyrənilməsinə verilməyərək əxlaqi hazırlığa verilməlidir. Zira tələbələr gələcəkdə müəllimlikdən maəda gənc nəslin mürəbbiyəsidirlər.

Əl işlərinə lazımi surətdə vaxt verilməlidir. Hər bir tələbə biçmək, tikiş makinəsində dikmək, toxumaq və kəsmək bacarmalıdır. Tədris müddətində tələbə yalnız öz camaşır tikməyini bacaracağı kimi, başqalarını da tikməlidir.

---

[184] əhatə edən
[185] Mariya Montessori (1870- 1952)
[186] qoymaq, yerləşdirmək

30 - bədii tərbiyə məqsədi ilə tələbələr bəzən tiyatrolara getməsi və habelə darülmüəllimat canibində qiraətdən qruplar işğalı, dram dərnəkləri, müsamirələr sairələr tərtib etməlidirlər.

31 - türk qadının bu son günlərə qədər ictimai həyatdan ayrı olaraq yaşadığı və hal-hazırda onların bu nöqsanlarının ikmal edilməsi məqsədi ilə tələbə vəziyyət-i hazıran haqqındakı mühazirələrə və ədəbiyyata aid mühazirələrə getməlidirlər və Ali Ünas Pedaqoji İnstitutu canibində ədəbi və ictimai mahiyyətdə mühazirələr tərtib ediyorlar.

Ali darülmüəllimat qiraətxanəsində yeni qəzetə və məcmuələr olunmalıdır.

32 - Leyli tələbələr məktəbə öz evləri kimi baxmalıdırlar. Bunun üçün də onlar təsərrüfat həyatındaki bütün ehtiyacları bilməlidirlər. Hər bir leyli tələbə mətbəxdən başlayaraq yataq odasına qədər növbədə bulunmalıdır.

33 -sağlam zabt-o rabt[187] darülmüəllimat həyatının əsasını təşkil etdiyindən heç bir tələbə müdirə və yaxud mürəbbiyənin icazəsi olmadan darülmüəllimatından kənara çıxamaz.

Ali darülmüəllimatda mədəni maarif işləri olduqca mükəmməl bir vəziyyətdədir. Hər cür dərnəklər təşkil edilmişdir. Bunlar Ali Pedaqoji İnstitutu ilə birlikdə tərtib edilmişdir. Hər bir tələbə onu maraqlandıran dərnəkdə çalışa bilər. Bu dərnəklərdə qızğın surətdə fəaliyyət davam etmədədir. Fəqət, tələbələr məruzədə bulunmuyorlarsa da, onlar böyük yoldaşları tələbələri dinliyor və "yarın" aktiv olaraq bu işdə çıxışda bulunmaq üçün hazırlanıyor.

[187] zabitə və rabitə: nizam və əlaqə





Ali Ünas Pedaqoji İnstitutunda siyasi məruzələr dəxi oluyor ki, bunlara Xalq Maarif Komissarı müavini yoldaş **Cəlil Məhəmmədzadə** çox vaxt sərf ediyor.

Hal-hazırda Ali Ünas Pedaqoji İnstitutu qarşısında böyük məsələlər durmadadır:

1) Ali Pedaqoji İnstitutu binasını genişləndirmək lazımdır, çünki hər il buraya daxil olmaq istənilərək miqdarı 200% qədər artıyor;

2) məktəb canibində II dərəcə nümunə məktəbi açmaq lazımdır ki, bu da talibələr üçün laboratuvar vəzifəsini ifa edər (burada talibələr nümunə dərsləri verə bilərlər);

3) Xüsusi siniflər açmaq. Xalq Maarif Komissarlığı tərəfindən Ali Ünas Pedaqoji İnstitutuna olan yardım və əlaqə sayəsində bu məsələləri həll etmək mümkün olacaqdır. Ünas Pedaqoji İnstitutu sağlam bir təməl üzərində duruyor və gələcəyi təmin edilmişdir. Bu məktəb Azərbaycanda qadınlar üçün maarif ocağı olacaqdır.

*(Ali Ünas Pedaqoji İnstitutu müdirəsi A.Lukyanova yoldaşın məzkur məktəbin tarixçəsinə əlavə etdiyi bu tarixçəni salnaməmizin tərbiyə və tədris qisminə keçirməyi müvafiq bulduq).*

## Müvəffəqiyyətin sirləri

Azərbaycanın ilk pedaqoji institutundan çıxan ilk müəllim namizədlərinə, girmək üzrə olduqları həyat imtahanında müvəffəq olmalarını təmin etmək, səmimi bir arqadaşlıq borcudur.

Əcəba təhsilləri iyicə qutlu olan bu arqadaşlar, vəzifələrində mükəmmələn müvəffəq ola biləcəklər mi? Bən, nə çox nikbin və nə də çox bədbin olaraq diyorum ki, yeni vəzifələrə girmək üzrə olan arqadaşların müvəffəq olması, bu günə qədər olan vəziyyətlərindən deyil, yarın vəzifə başında alacaqları vəziyyətdən anlaşılacaqdır. Hər halda mühəqqəq[188] olan cəhət şurasıdır ki, yeni müəllim namizədləri yarın müvəffəq olacaq şəraiti açıq gözlə araşdırdıqları təqdirdə məqsədlərinə daha əmin və qəti addımlarla yerişə bilirlər. Əksi təqdirdə müvəffəq olmaq ehtimalı gücləşir. Əcəba yeni arqadaşlarımızın gedəcəkləri yolda şaşırmamaq üçün əllərinə rəhbərlik vəzifəsini ifa edəcək bəzi tövsiyələrdə bulunmaq mümkünmüdür? Bən bunun qismən mümkün olduğunu zənn ediyorum və düşündüklərimi bir- iki cümlə ilə burada xülasə etməyi faydalı add ediyorum:

1) Müəllim vəzifəsinin böyüklüyünü məşur[189] olaraq işə başlamalı və vəzifəsi əsnasında bəşəri və

[188] qəti
[189] bir şeyi yaxşıca qavramaq





mali böyük bir rol ifa edildiyi bir an xatirindən çıxarmamalıdır.

Vəzifəsinə lazım olan qiymət və əhəmiyyəti verməmin, vəzifəsini zəruri bir baş bəlası add edən müəllimlər, inşa etmək üzrə başladıqları qutlu binanın, ən mühüm təməl daşlarını sökmüşlərdir. Bu müəllimlərin müvəffəq olamıyacaqlarını daha əvvəldən söyləmək mümkündür.

2)Müəllim, qəlbində bir qayə və məfkurə atəşi yaşatmalıdır. Ruhsuzluq, müəllimlik məsləyində müvəffəqiyyətsizliyin əsasıdır. Müəllimlik çox üzücü, çox yorucu bir məsləkdir. Əgər biz hər gün qarşımıza çıxan təsirlərin oyuncağı olursaq, hər vaxt nəşəmiz qaçar, ruhumuz buz kəsilir, qəlbində atəş və ruh olmayan bir kimsə, digərlərinə həyat və hərarət göndərə bilirmi? Canlı, atəşli və fəal ruhlar, qidalarını bilxassə yaşadıqları mahiyyətdən alırlar. Miskin, qorxaq və atil[190] ruhları gizlin mahiyyətləri yetişdirir. Məktəb mahiyyətinin ən mühüm üzvləri olan müəllimlər də can, həyat, qan və nəş`ə olmazsa, onların ruhunda müəllimlik məfkurəsinin heç eksilməyən hərarəti bulunmazsa, o mahiyyət qutlu, sıxıntılı, ruhsuz və cansız qalır. Böylə bir mahiyyətdə yetişənlərin mətlub[191] şəraiti haiz olmamaları yenə müvəffəqiyyətsizlikdir.

[190] tənbəl, boş
[191] əlverişli

3)Müəllim, eyni zamanda mürəbbi olduğunu qətiyyən unutmamalıdır. Tərbiyə saridir[192]. Birindən digərinə keçər. Hər ailə çocuğunu tərbiyəsi iyi olan məktəbə göndərmək istər; zira onlar təcrübə eyləyə bilərlər ki, tərbiyəsi fəna olan məktəbdən çocuqların tərbiyələrinə ruhunu vermək, mühüm və uzun bir pedaqoji məsələsidir. Burada ən mühüm digər nöqtə, müəllimlərin çocuqlara iyi nümunə olmalarıdır. Binaənəleyh[193], bir müəllim, tələbəsinə qarşı nə qədər mülayim davranırsa davransın, bunun zərəri yoxdur. Lakin bir müəllim hər gün kəndi qüsuru və qəbahətlərini araşdırmalı, gördüyü nöqsanlarını yox etməyə, tələbəsinin qarşısına təmiz və nəcib bir ruhla girməyə çalışmalıdır. Müəllimləri mükəmməl olan bir məktəbdə tərbiyə məsələsi yarı yarıya kəndiliyindən həll edilmiş sayılır.

4)Müəllim hər çocuğu belə istisna sevməli və hər çocuğa eyni müamilədə bulunmalıdır. Hətta tərbiyəsi nöqsan olan çocuqlara qarşı belə müəllim davamlı bir düşmanlıq və soyuqluq göstərməməlidir. Biləks, bunlara insan müamiləsi yapılmaq, onları sevməklə getdikləri fəna yollardan çevirmək doğru yola sevketmək[194] mümkündür. Müəllim tələbədən bəzisinə

[192] yoluxucu
[193] bunun üçün, bundan ötrü
[194] burada: göndərmək, yollamaq





fazla məhəbbət göstərir, onlarla nə çox qonuşur, onları digər tələbəyə tərcih edərsə,[195] tərbiyə nöqteyinəzərindən çox, həm də pək çox xətalı hərəkətdə bulunur. Çox zaman tərbiyə işlərində müvəffəq olmamaq bu kimi yanlış hərəkətlərin nəticəsidir.

5)Müəllim, elmində daima irəliləməli. Gərək kəndi ixtisasına və gərək tərbiyə məsələlərinə aid iki şeylərdən daima istifadə etməlidir. Bu nöqtəyə əhəmiyyət verməyən bir mürəbbi və müəllim, bu gün yeni və əsri bir müəllim sayılırsa, on sənə sonra o müəllim iyicə geri qalmış olur. Zira elmlərdə və tərbiyə işlərində canlı bir həyat vardır. Hər gün küçük və böyük, az mühüm yaxud çox mühüm elmi və tərbiyəvi məsələlər bulunmaqdadır. Bunları təqib etmək, həm məsləyimizdə yüksəlməyə və həm də müvəffəq olmağa yardım edər. Bunlardan başqa təfərrüata aid bir daha bir çox nöqtələr vardır. Lakin bu beş nöqtə müvəffəq olmanın sirləri, müvəffəq olmanın böyük və dəyişməz prinsipləridir.

*Ali Pedaqoji İnstitutu*
*pedaqoji disiplinləri müdərrisi*
*doktor* **Xəlil Fikrət**

[195] seçmək

# İNSTİTUTUN GƏLƏCƏYİ

## Elmlərini yeni tamam etmiş müəllimlərə açıq məktub

Əziz yoldaşlar! Tazə həyata qədəminizi təbrik edirəm. Vəzifəniz hər nə qədər qayət çətin, ağır, məsuliyyətli bir vəzifədirsə də, bunu da düşünməlisiniz:İnsanın ruhunu ucaldan bir çox şey varsa, onun ən birincisi zəhmətdir. Bən istərdim siz gələcək həyatınızda üç məsələyə diqqət edəsiniz:

1)Sizin tərbiyənizdə olan Azərbaycan balaları gərək zəhmət sevən olsunlar, yəni başqasının yox, öz zəhmətlərinin qüvvətilə ehtiyaclarını rəf edici[196] olsunlar: bunun üçün balalara təbiəti sevdirmək, onları təbiətin əlamətlərilə maraqlandırmaq lazım gəliyor.

2)Sizin tərbiyənizdən çıxan cavanlarımız gərək cəsur, cürətli və dəyanətli olsunlar.

Yəni bir parça çörəkdən ötrü ikiyüzlük etməsinlər, filankəsin xoşuna gəlmək üçün "qatığa qara" deməsinlər.

[196] aradan qaldırma





Amandır, yoldaşlar!

Buna yaxşı fikir veriniz. Mənsəbdən ötrü yalan söyləyən, gündə vicdanını satan "ikiyüzlü" adamlar – bizim gələcək kommunaya üzv olamazlar.

Ona binaən uşaqlarla daima əlaqədə olaraq hərəkətinizdə, sözünüzdə artıq dərəcədə ehtiyatlı olmalısınız. Çünki uşaq gördüyünü götürər.

3) Biz ədamızdan əl çəkmiyoruz: Azərbaycan Şərq üçün bir məktəbdir, yəni Şərq hazırki halında qalarsa, biz ona hər cəhətdən müəllim olacağız. Beş ildən sonra Türkiyə, İran, Əfqan üçün bizim müəllimlərimiz elm-fənn meydanında hazır olacaqlar.

Ona binaən dilimizi lüzumsuz qeyrisinin lisanının təsiri altında saxlamaq bütün işimizi təxirə salar. Bu səbəblərə görə dilimizi müstəqil bir şəklə soxmaq[197] üçün ən çox siz müəllimlərə ümid bağlayıb, məktəbi bitirmənizi yenə də səmimi qəlbdən təbrik edirəm.

*Nəriman Nərimanov*

*İdarədən:* Bu və bunu təqib edən yoldaş Mustafa Quliyevin məqaləsi, idarəyə ilk formalar basıldıqdan sonra yetişdiyindən ilk səhifələrdə verə bilmədik. Bu haqda hörmətli mühərrirlərindən üzr istəriz.

[197] salmaq, şəkilləndirmək

## Məzunlara xitab

Dəyərli yoldaşlar!

Ağır çalışmalar yılı içərisində sizin tərbiyə almış olduğunuz pedaqoji institutlarımız meydana çıxarıldı. İşçi və köylülər kəndi istismarçılar əleyhinə apardıqları ağır mübarizələr içərisində ehtiyac və yoxsulluğa baxmayaraq maarif və mədəniyyətin ilk ocaqların yaratdılar.

Maarif və mədəniyyət böylə parlaq ocaqları hal-hazırda kəndi məsul vəzifələrini ifa edən pedaqoji institutlarımızdır.

Bu yıllarda şura hökuməti pedaqoji institutlarının işini böyük bir diqqətlə təqib ediyordu. Bu yıl artıq kəndi böyük bayramını – bu institutlardan ilk tələbə buraxılışını – tərtib ediyor. Maarif işçilərinin xəyalları doğru oldu. Siz xalq maarifinin ilk mübarizləri, böyük xalq müəllimi adilə həyata addım atıyorsunuz.

Hər şeydən əvvəl, pedaqoji maarifinin gələcək boyu və çiçəklənməsi: pedaqoji institutlarımızın gələcək nişanəsi və qəza darülmüəllimlərimizin möhkəmlənməsi sizin işlərinizdən asılıdır. Biz mükərrərən[198] demişiz ki, pedaqoji məktəblərini pedaqoji məfkurəsinin mərkəzi addetməli, bizim bütün müəllimlərimiz onların ətrafına toplanmalı orada bizim müəllimlərimizi hazırlamalı, tərbiyə və maarifin təməlini qoymalıyız. Müəllimlər sayının azlığı bizim pedaqoji məktəblərimizdə işi bu istiqamətə çevirməyə müsaidə etmiyordu. Siz var qüvvənizi bu sahəyə verməli və bütün enerji məktəbləri və texnikumlarımızın şərəfini yüksəltməlisiniz.

*Siz məsudsunuz, zira siz böyük müəllim adını daşıyorsunuz.* Sizin borcunuz bu böyük ada ləyaqətli olmanızdır. Əskidə müəllim bu çinovnik olmuş mülkədar və sərmayədarların qulu və hamisi rolunu oynuyordusa, şimdi şura müəllimi kəndi böyük vəzifəsini – yeni kommunizm cəmiyyətinin məsul yaradıcılığı və yeni nəslin tərbiyəciligini sədaqət və doğruluqla ifa etməlidir. Geri qalmış işçi və köylüyə ictimai bir işçi və rəhbər olmaq, zəhmətkeş həyatına yardımçı olmaq sizin vəzifəniz, sizin borcunuzdur.

Hər daim xatirdə saxlamalıdır ki, işçi və köylü kəndi sinfi düşmənləri, həyat-məmat[199] mübarizəsi veriyordurkən bitərəf qalmaq burjuaziyaya ən gözəl bir yardımda bulunmaqdır. Pedaqoji bitərəf qalmağa imkan verməz, yalnız kəndi xüsusi həyatı ilə maraqlanan mülkədar və dükancılar davam etməkdə olan sinif mübarizəsində bitərəf qala bilirlər. Şura müəllimi, hər şeydən əvvəl, kommunist cəmiyyətinin məsul təşkilatçısıdır. Dəyərli yoldaşlar! Bən əminəm ki, siz şura hökumətinin qayə və məfkurəsinin nəqli olacaq və böyük gənc nəslin mürəbbisi adını məğrurənə daşıyacaqsınız!

***Mustafa Quliyev***[200]

[198] tez-tez, təkrar

[199] ölüm-dirim məsələsi

[200] *Mustafa Zəkəriyyə oğlu Quliyev Nuxa (Şəki) şəhərində anadan olmuşdur. Tiflis gimnaziyasını bitirmiş (1913) və Kiyev Universitetinə*

## İctimai həyatda ali pedaqoji təhsilin və azərilər üçün Azərbaycan Ali Pedaqoji İnstitutunun əhəmiyyəti

Bu günkü mədəni məmləkətlərin kafəsinin[201] məktəbləri təlim və tədris nöqtəsi nəzərindən üç qismə ayrılmışlar ki, bunlara hər yerdə: ibtidai (birinci dərəcəli), edadi[202] (ikinci dərəcəli) və ali məktəblər diyorlar. Ali məktəblərin xüsusi qismi (ali pedaqoji institutları və qeyri) edadi məktəblər üçün müəllimlər hazırlıyor, edadi məktəblərin də xüsusi qismi (darülmüəlliminlər) ibtidai məktəblər üçün müəllimlər hazırlıyor. Deməli, hər məmləkətdə mövcud ən müqtədir pedaqoqlar və başqa elmlər həmin məmləkətin ali məktəbləri ətrafında toplanıyorlar və məhz orada

*daxil olmuşdur. Tələbəlik illərində inqilabi hərəkata qoşulmuşdur. RK(b) Kiyev komitəsi müsəlman bölməsinin sədri seçilmişdir. 1919-cu ildə Bakıya qayıtmış, Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Lənkəran qəza inqilab komitəsinin sədri (1920), Azərbaycan K(b)P Qaraşəhər Rayon Komitəsinin katibi (1921-1922), "Maarif və mədəniyyət" (1923-1926), "İnqilab və mədəniyyət" (1929-1932) jurnalının məsul redaktoru vəzifəsində çalışmışdır. Azərbaycan SSR-in Xalq maarif komissarı (1922-1927) vəzifəsində işləmişdir. Kommunist Akademiyasını bitirdikdən sonra Çimkənd şəhər partiya komitəsinin katibi, Odessa vilayət partiya komitəsinin şöbə müdiri işləmişdir. Azərbaycanda ibtidai icbari təhsilin həyata keçirilməsində, müəllim kadrlarının hazırlığında mühüm xidmətləri vardır. "Oktyabr və türk ədəbiyyatı" (1930) kitabının müəllifidir.*

201 bütün, hamı

202 1917-ci il aprel inqilabından sonra ibtidai və rüşdiyyə məktəblərindən sonra gələn və şagirdləri ali məktəbə hazırlayan məktəbin köhnə adı.





çalışaraq məmləkət üçün elmli və tərbiyəli işçilər, cavan alimlər və məmləkətin edadi məktəblərini idarə etmək üçün müqtədir[203] müəllimlər və mürəbbiyələr hazırlıyorlar. Edadi məktəblərin də ən müqtədir müəllimləri ibtidai məktəblər üçün müəllimlər hazırlıyorlar.

İşbu maarif quruluşunu iyi anlamaq üçün böylə bir təşbiyə[204] götürəlim. Tutalım bu quruluş bir nərdiban təşkil ediyor. O surətdə bunun üç pilləsi olmalıdır. Çünki aşağı pilləsi – *ibtidai*, orta pilləsi – *edadi* və baş pilləsi – *ali təhsili* nişan verəcəkdir. Həmin nərdibanı aşağıdan yuxarıya doğru çıxanlar hənuz həyati mübarizədən aciz, tərbiyə və təlimə möhtac çocuqlar və bir çox səbəblərdən dolayı geriyə qalmış böyüklər olurlar. Bu yolu gedənlər gün-gündən maddi və mənəvi vaxt kəsb edərək yüksəliyorlar. Birinci və ikinci pillələrin müxtəlif cəhətlərində yorulub qalanların müqəddəratı nisbətcə ziyadə olursa da, üçüncü pilləyə ayaq basanların da müqəddəratı bir o qədər az olmuyor. Nərdəbanı yuxarıdan aşağıya doğru enən cəsur qafilənin ön cəhətini müəllimlər güruhu təşkil ediyor. Çünki bu karvan cəhalətlə mübarizə aparmaq, qaranlıq binaları işıqlandırmaq, hər taqım səfsataları[205] elm nuru ilə yandırıb yaxmaq, əhalini tərbiyə, maarif və mədəniyyətcə yüksəltmək

203 səlahiyyətli, yaxşı, savadlı

204 bənzətmə

205 boş , mənasız söz

kimi ən ağır və həm də ən müqəddəs vəzifəni daşımaq üçün hazırlanmış maarifçilər kütləsinin səraməddir. Çünki bu karvan əşrəf-i məxluqat addetdiyimiz insanın və daha doğrusu, onun yavrusunun ruhu kimi dünyada ən mürəkkəb və eyni zamanda ən zərif bir qüvvəni tərbiyə etməklə müvəzzəfdir[206]. İkinci sırada yürüyənlər insan hifz əl-sıhhasının[207] və bədən tərbiyəsinin xadimləri olan təbiblər, sonra təbii qüvvələrdən istifadə edərək qolaylıqla dünyada yaşamaq üsulunu öyrədən mühəndislər, topraqdan iyi məhsul götürmə üsulunu öyrədən aqronomlar və başqa bu kimilərdir... Hər iki cərəyan biri digərini kamala ərdirmək üçün lazım və məlzum[208] hökmündədirlər. Lakin burasını bir daha diqqətlə nəzərdən keçirməlidir ki, aşağıdan yuxarıya doğru axan cərəyanın mərkəzi gələcək ümidi və səadətidir. Yəni məmləkət əhalisinin hər şeydən əziz tutduğu çoluq-çocuqlardır. Buna görə yuxarıdan aşağıya doğru axan cərəyanın da mərkəzi həmin çoluq-çocuq, yəni gələcəyin əhalisini ümid və səadətini tərbiyə etməklə müvazzaf olan müəllimlər guruhu olsa gərəkdir. Dəməli, diri məxluqlar sırasında insan taqımının da vəzifəsi başqa heyvanlar və nəbatlar[209] kimi yeni nəsil törətmək və o nəsli tərbiyələyib böyütmək və kəndini idarə edə biləcək məqamlara yeriyənəcən ona yardım etməkdən ibarətdir.

[206] burada: borclu, vəzifələndirilmiş
[207] sağlamlığın qorunması
[208] burada: vacib
[209] bitki





İştə yalnız bu nöqteyi-nəzərdən baxdığımız surətdə mədənilərlə bədəvilərin arasında böyük bir fərq gərəcəyimizə şübhə yoxdur. Lakin hər nəsl olursa olsun, hər hansı nöqteyi-nəzərdən işə baxırsan bax, görəcəksən ki, insan həyatında oynanan rolların ən birincisi müəllim və mürəbbiyəyə məxsusdur. Buradan məmləkət üçün müəllim yetişdirən darülmüəllimin-lərin və müəllim yetişdirmək üçün müəllim yetişdirən ali pedaqoji institutunun nə əhəmiyyətdə təşkilat olduqları özü-özünə meydana çıxıyor, məmləkət əhalisinin ana dilində tədrisat aparan ali pedaqoji institutu, doğrudan-doğruya, ümum əhaliyə feyz verən və hər taqım qaranlıqları işıqlandıran maarif günəşi hökmündədir. Çünki təbib, mühəndis, aqronom və qeyri mütəxəssislər və alimlər başqa dillərdə və başqa məmləkətlərdə təhsil gördükdən sonra kəndi məmləkətlərinə lazım olan xidməti mükəmməl surətdə apara bilirlər. Hətta məmləkətin dilini bilməyən əcnəbi təbibləri, mühəndisləri və qeyriləri gəlib yer əhlinə tam bir müvəffəqiyyətlə xidmətdə bulunur və külli mənfəətlər verirlər. Lakin müəllim öylə deyildir. O gərək əhalinin içərisində böyüsün, onun dilinə, tarixinə, ədəbiyyatına, hər türlü kültürünə və hər türlü ehtiyacatına bələd olsun, fikrin, həyatın və hüsnün ən incə cərəyanlarını başqalarının danışığından, hərəkətlərindən və əsərlərindən seçə və anlaya bilsin

və həm eyni zamanda hər fikri, hər hissi, hər xəyalı yer əhlinə onun öz dilində anlata və öyrətə bilsin. Mənsub olduğu elin çocuqlarının əhval-ruhiyyəsinə bələd olsun, onların mərtəbəsinə enib onlarla bərabər yüksəlsin, tədric üzrə maarifin aşağı təbəqələrindən yuxarıya doğru suud[210] etsin və bunun üçün də o gərək həm qiymətli bir alim və həm həqiqi bir mürəbbi olsun. Qiymətli alim olmaq üçün ali təhsil görmək və həqiqi mürəbbi olmaq üçün fitri qabiliyyətə malik olmaqla bərabər tərbiyə və tədrisat tətbiqatını görmək lazım gəlir. Bunu da dəfayətlə söyləmiş olduğumuz kimi ali pedaqoji institutu və onun canibində bulunan edadi tətbiqat məktəbi verə bilirlər.

Rusiya inqilab-i kəbirinin birinci turu bitdikdən sonra çarizm xərabazarlığı üzərində təsis edilmiş mütəəddid[211] maarif ocaqları sırasında biz azəri türkləri üçün ən birincisi və ən əhəmiyyətlisi "Azərbaycan Ali Pedaqoji İnstitutu" olduğunu bilməliyiz.Yalnız burası vardır ki, Azərbaycanda həqiqi bir ali pedaqoji məktəbinin vücuda gələ bildiyinə inanmayanlarımız çox çoxdur. Bunlar bir o qədər haqsız da deyillər. Çünki yüz sənədən ziyadə rus imperiyalizminin pənceyi-qəddaranəsi altında əzilən və mədəniyyətcə hər taifədə girovda qalan azəri türklərinin 3-4 sənə zərfində ən azı 15-20 sənənin məsafəni yürüyüb keçdiyinə inanan olur mu? Dün bir danə bilə olsun

[210] yüksəlmə
[211] bir çox





milli ibtidai məktəbimiz yox ikən, yüzləri mütəcaviz[212] milli ibtidai və bir çox da edadi məktəbimiz vardır, deyərsək, bizdən şübhələnərlər. Bunun üzərindən bir daha ali pedaqoji institutumuz vardır, deyərsək bunu inkar etməyə hər kəs özünü haqlı bilər. Çünki fikir ya gərək mütearifə[213] şəklinə girib meydana çıxsın ki, ona hər kəs inana bilsin və yaxud möhkəm əsaslara və dəlillərə söykənsin ki, onun həqiqət olduğunu isbat etmək mümkün olsun.

Ali Pedaqoji İnstitutumuzun varlığı hənuz mütəarifə şəklini almamışdır. Çünki buranı bitirmiş cavan müəllimlər bir qaç sənə məmləkətimizin hər guşəsində fəaliyyətdə bulunmalı və orta dərəcədə tərbiyə görmüş işçilər yetişdirməlidir ki, hər kəs ali məktəbin canlı əsərlərini aydın surətdə görsün və onun varlığına dəlilsiz-sübutsuz inansın. Filhəqiqən[214], işin nəticəsi böylə olacağına bizim şübhəmiz yoxdur. Fəqət biz buna inandığımız kimi hər azəri türkünün də inanmamasını istiyoruz. Məktəbin müəssisləri məmləkətin elm adamlarından olduqlarını kimsə inkar edəməz, zənnindəyəm. Heyət müəllimin üç sənə zərfində fədakaranə bir surətdə çalışmış və ancaq bu çalışmaqla qeyri-kafi və bin türlü hazırlıqları və daha doğrusu, hazırlıqsızlıqları olan tələbələrlə həm tali[215]

[212] aşan, -dən çox
[213] təsdiqlənməsi lazım olmayan, aksiom
[214] həqiqətən, əslində
[215] ikinci dərəcəli

və həm də ali məktəb proqramı keçə bilmişdir. Deməli, məmləkətimizdə bildiyiniz çalışıb-vuruşub türk dilində tədris edə biləcək müəllimlərimiz bulunduğu kimi azdan-çoxdan ibtidai məlumatı olmaqla bərabər elmə həvəsli cavanlarımız da yox deyildi. Hər iki tərəfin qarışmasına inqilab hökuməti müsaidə verdi. Və külli miqdarda paralar buraxdı. Ən böyük fədakarlıq bu xüsusda Maarif Komissaralığına və müəssislər heyətinə aiddir. Məktəbi bin türlü hücumlara qarşı müdafiə etməli, məktəbə lazım olan müəllimləri, kitabları və qeyri mahiyyətçi əldə etmək və məktəbin daxili həyatını nizam altına almaq lazım idi. Bu işlərin zəhmətini çəkən, ona qarşı endirilən zərbələrə təhəmmül edən məktəbin yeganə mütəşəbbüsü, ən birinci müəssis və üç sənəlik müdiri və eyni zamanda ali ictimai tərbiyə şöbəsinin müdiri yoldaş *F.Rzabəyli* ilə məktəbin həqiqi hamisi, onun həyatının üsul-i səbəbi olan yoldaş *M.Quliyev* olmuşlar. Böylə fədakarlıqlar səbəbli və həm də müəllimlər və tələbələr həyatının fövqəladə bir çalışqanlığı sayəsində bu gün böyük bir nəticə əldə edilmişdir: bu gün ali pedaqoji institutu edadi məktəblərimizi aparmaq üçün birinci sıra müəllimlər və onun həyatında açılmış Şaiq Nümunə məktəbi darülfünunda və yaxud ali pedaqoji institutunuz özündə təhsilə davam etmək üçün birinci abituriyentlər buraxıyorlar.

Hər məmləkətin maarif günəşi həmin məmləkətin ali məktəblərindən doğuyor, diyorlar. Bizim də Azərbaycanımız yüksək mədəniyyətə malik millətlərdə olduğu kimi bu gün parlaq bir maarif günəşi doğurmuyorsa da, həmin yüksək mədəniyyətə doğru kamal-i cəsarətlə birinci addım atdığı şübhə xaricindədir. Şu gələcək səadətimizin həqiqəti, ümidgahı gözümüzün önündə iki artıq şəkə-şübhəyə yer qalıyormu? Daha bundan sonra darülfünunumuz politexnikumumuz və başqa ali maarif müəssisələrimiz olacağına həpimiz inanmalıyız və bu müəssisələr özləri hal-hazırdaki Ali Pedaqoji İnstitutumuzdan nəsihət edəcəyinə və yaxud onun sayəsində vücuda gələcəyinə inanmalıyız. Varsın ali məktəbimiz imdilik ibtidai və edadi məktəblərimiz kimi nöqsanlı olsun. Nöqsanlar müvəqqəti bir şeydir. Hər biri mürur [216] zaman ilə ikmal edilə bilir. Maarifin bizdən daha çox nöqsanlı dövrlərini hər millət keçirmişdir və xəyalıca zəhmətlərə vaxt sərf etdiyindən sonra bu günkü səadətələrinə yetmişdir.

Bizim işimizə isə o qədər zəhmət və müddət gərək olmayacaqdır. Çünki məktəbimiz əski məktəb deyildir, xalq məktəbi, ikinci və fəhlə məktəbidir. Onu təşkil edən fərdlərin hər biri, istər müəllim olsun, istər tələbə olsun, arı kimi işləməkdə gecə-gündüz çalışmaqda və hər kəs öz işində tərəqqi etməkdədir. Məktəbin qapıları xalq içərisindən çıxan və həqiqi müəllimliyə madərzad[217] istedadı olan hər şəxs üçün açıqdır. Əski rəsmlərdə olduğu kimi milli iste-

[216] keçib getmə
[217] anadangəlmə istedadlı, fitri istedadlı

dad xalq içərisində ölüb itməyəcəkdir, ümum əhalinin ictimai həyatına iştirak edəcək və hər kəs ictimai təlim və tərbiyə sayəsində bu istedaddan istifadə edəcəkdir.

Biz istiyoruz ki, məktəbimiz yalnız Azərbaycanda deyil, bütün Şərq aləmində müttəhid məsai məktəbi ən doğru bir yola qoymağa müvəffəq olsun. Biz istiyoruz ki, məktəbimiz ümum türk ellərinin hüsn-rəğbətini qazansın, bütün şərq elmi üçün inqilab məşəli olsun, bütün Şərqin Avropa əsarətindən və məhəlli istibdad zülmündən qurtuluşuna doğru yol göstərə bilsin. Nəhayət, biz istiyoruz ki, məktəbimiz "Oksford" və "Kembric" darülfünunları kimi Şekspirlər, Nyutonlar, Miller və Darvinlər yetişdirməyə müvəffəq olsun.

Arzumuz çox böyükdür. Fəqət onun müqabilində qüvvəmiz çox küçükdür deyə bizə irad edən olursa, onun cavabında: "ərlərin hümməti dağları qoparar" həqiqətini söyləməklə iktifa[218] edəriz.

*Ali Pedaqoji İnstitutu*
*məntiq müəllimi*
***A.Əfəndizadə-Azaqbəyli***

[218] kifayət





## Doğru vədələr

Əsr-hazır kültürünün məzlum və müdhiş texnikası və təbiət üzərində insanın hakimiyyəti elm-i təbiyyə amilliyi ilə qazanıldığı hər kəs tərəfindən etiraf edilir həqiqətlərdəndir. İştə institut dəxi buna qüvvətlə iman etdiyindəndir ki, digər şöbələri miyanında[219] təbiət şöbəsinə də əhəmiyyət verməmiş. Laboratuvar və kabinələrini zənginləşdirməyə çalışmışdır. Zira o bilirdi ki, kəndisini mədəni məmləkətimizin qocaman möhtəşəm ali məktəbləri sırasına elm-i təbiyə amilliyilə sala biləcəkdir. Bununla da bir qarın çörək üçün elmsizliyindən dolayı təbiətə məhkum olaraq yılan kimi sürünən zəhmətkeş avam xalqını mübarizə üçün təbiətin qüvvətlərinə qarşı silahlandıracaq, bir parça cəsarət və bənlik verəcək, təbiətə hakim kəsdirəcəkdir. O vaxt Azərbaycan köylüsü "bən də varım və yaşıyorum" deyə biləcəkdir. Bu şöbənin təbiət ruhu ilə tərbiyə almış təbiətçi müəllimləri Azərbaycan xalq məktəblərində azəri türk yavrularına ölkəsinin zəngin və mütənnəm[220] təbiətə qarşı maraq və cəstuculuq[221] hiss və məhəbbəti aşılayacaq və onlara "ya qismət" deyil təbiətlə mübarizə və mücadələ yaparaq yaşamaq yolunu daddıracaqdır. Təbiətlə mübarizə prinsiplərilə tərbiyələnən Azərbaycanın

[219] burada: yanında
[220] əziz, şıltaq
[221] axtarış

zəhmətkeş oğulları artıq yurdunun bitməz-tükənməz təbii surətini kəndisi, kəndi qafası ilə tədqiq edər və kəndi əlləri ilə istehsal edəcəkdir. Tarixin dərin mazilərində dünyanın müxtəlif ölkələrinə əkmək[222] verən ucsuz-bucaqsız "qırmızı Muğan"ı kültürü sayəsində təkrar ölkələr duyuracaq qədər münbit, məhsuldar hala gətirəcəkdir. Dağlarının zəngin mədənlərini kəndisi istehsal edərək xaricə çıxaracaq vlx.vlx... Bin yıllarla damla-damla birikərək böyük bir "elm gülünə" şu küçücük şuralar Azərbaycanında dəxi "irs və mədəniyyət irmaqları" sel etdirəcək və ölkədə hər zaman kəndi kültürü ilə mütəkəbir[223] qərb qarşısına müəzzəm[224] və möhtəşəm bir şərq kültürü çıxaracaqdır.

İştə xalqını təbiətə hakim kəsdirməklə ölkəsini elm və maarif vadisinə bitirəcək bir şöbəni kəndi ağuşunda bəsləyən Azərbaycan Ali Pedaqoji İnstitutunun cahan darülfünunlarının pişanı[225], ulu babası qocaman Nevil darülfünunu kimi yeddi yüz sənələr yaşamasını istəməklə məhkum şərqə azadlıq ruhu aşılayacaq şu irfan ocağı müəssəsini təhsin[226] və təqdir edəriz.

*Ali Pedaqoji İnstitutun*
*Təbiət şöbəsindən məzunu*
***E.Rəhimov***

---

[222] çörək
[223] təkəbbürlü
[224] ali, yüksək
[225] öndə gedən, öncül
[226] bəyənmək





## İnstitut və Azərbaycan

Hər bir həqiqət ilk görünüşdə, ilk zühurunda insana bir xəyal şəklində görünür. İnsan onun bir gün vücud pezir[227] olacağına bir türlü inanamıyor. Zaman keçir, tarixin iri və burulmaz təkərləri durmadan dönər, nəhayət, bir gün o həqiqət açıq, aydın siması ilə, bütün böyüklüyü və parlaqlığı ilə dumanlar altından süzülüb çıxar və göz qamaşdırıcı ziya və hərarətilə hər kəsi heyrətdə buraxır.

Əvət, böylədir!

Üç sənə bundan əqdəm ali pedaqoji institutu fikri bir çox adamlara xəyal kimi görünürdü. Bir çoxları onun vücud pezir olacağına inanamıyordu. Lakin o bir gün həqiqət olaraq parlayacağına inanan məfkurə və iradə sahibi insanlar da yox deyildi. İştə onların sarsılmaz və yorulmaz enerjisi sayəsində bu gün o həqiqət bütün əzəmət və ehtişamı ilə və onun həqiqət olduğuna canlı bir han olan 28 günəşi ilə parlıyor və o günəşləri bu gün sıcaq qucağından Azərbaycanın, Dağıstanın, Türküstanın yaxın və uzaq guşələrinə ataraq: "Bən doğdum, doğurdum, siz də doğdunuz, doğurunuz" diyor.

Alnında bir sitarə nur, yox bir afitab
Üfüqə doğ, önündə şu maziyi-purməhən[228]

---

[227] mövcudluğunu qəbul etmək
[228] qəm-qüssə ilə dolu keçmiş

Sönsün mubidən[229]"

Bir türk şairi: "Bir həqiqət bin həqiqət doğurur" diyor ki, bu pək doğrudur.

Böyük inqilab nəticəsində Romanov xanədanının qanlı taxt-tacilə yıxılması hər məmləkətdə olduğu kimi Azərbaycanda dəxi xalq hakimliyini doğurdu. Xalq hakimliyi də kəndi ehtiyacından doğan bir çox həqiqətlər yaratdı ki, onların ən qiymətlisi Ali Pedaqoji İnstitutudur.

İnstitut xalq hakimiyyətinə, füqərayi kasibə hökumətinə nə vermiş və nə verəcək. Məktəblərimiz daha on səkkizinci sənədən etibarən milliləşərək getgedə yüksəlməkdə davam etdiyi üçün ikinci dərəcəli məktəblərə müəllim yetişdirəməmək qorxusu, yenidən bütün fənlərin birinci dərəcəli məktəblərdən başlayaraq rus dilində oxunması məsələsini doğurmaq üzrə idi. İştə institut maarif cəbhəsində çalışmaqda olan böyük yoldaşlara ümid və qüvvət verərək o məsələni qolayca həll etdi.

Bu gün biz ikinci dərəcəli məktəbləri türkləşdirməklə o məktəblərdə ana dilində orta təhsil almış gənclərimizlə qayət təbii olaraq darülfünunda kəndi kəndindən milliləşmiş olacaq və biz darülfünun kimi ali bilik yurdlarımızın sayəsində mədəni ölkələr sırasına daxil olub, xalq kütləsi arasında elm və mədəniyyəti geniş surətdə nəşr edə biləcəyiz.

[229] əbədi





Bununla bərabər Ali Pedaqoji İnstitutu pək mühüm bir məsələni də həll edəcəkdir. Son zamanlarda hər yerdə hökumət idarələrini xalq kütləsinə yaxınlaşdırmaq üçün idarələrin türkləşməsi lazım olduğu söylənilir. Bu xüsusda qərarlar çıxarılır, komisyonlar, komitələr təşkil olunur. Fəqət bu türkləşmə işi məqsədə uyğun bir halda getmiyor. Çünki türkcə bilikli, iyi savadlı adamlar olmadığından idarələrin türkləşməsi məsələsi çətin bir vəziyyət almışdır. Böylə adamları yetişdirəcək müəllimləri də Ali Pedaqoji İnstitutu verəcəkdir.

Ali Pedaqoji İnstitutunun səmərəsini biz yalnız beş on sənə sonra görəcək və bunun Azərbaycanda nələr yaratmış olduğunu o zaman kamalınca hiss edəcəyiz...

**Talıbzadə Abdullah**

# İŞIQLIĞA DOĞRU

## Məzun talibə və tələbələrə bir xatirə

Fərda sizin, sizin bu təcəddüd[230] , bu inqilab!

Münəvvər gənc talibə və tələbələr! Ali və mütəvəssit[231] elm yurdlarını bitirməyinizdən dolayı ən səmim qəlblə sizləri təbrik edərək ölkədə bulunan qeyri-mədəni ünsürləri mədəniləşdirməyinizə müvəffəqiyyət diliyorum.

Məlumdur ki, bir dəstəniz elmin- o böyük sahərin[232] cazibəsilə ali elm yurdlarına və digər dəstəniz isə cəhalət ordusuna qələbə çalmaq həvəsilə cəbhələrə qoşacaqdır[233]. Bu cəbhədə çalışan təbibələrin əhəmiyyəti daha böyükdür, zira qadınlıq yüksəlmədən, bəşəriyyət yüksəlməyəcəkdir.

Əlbət, deyil nəsibi məzalət qadınlığın,
Əlbət, deyil mələkliyin ümidi zalim və şər

[230] yeniləmmə,
[231] orta
[232] sehr
[233] qaçacaqdır





Əlbət, səfil olursa qadın, alçalır bəşər

Bilaşək mədəni bir ünsür ancaq mədəni bir ana qucağında başlənə bilər. Mədəni olmayan ana, kəndi yavrsunu mədəniyyət ruhuna müvafiq bir tərbiyə verəməz. Alman dahisi Höte "Faust" nam əsərində - Das Evig viblish zicht uns hinans – *"Qadınlıq daima bizi yüksəkliyə doğru cəzb eylər!"* diyor.

Təbib və təbibələrin aldıqları məlumata kifayət etməyib də təkamül yolunda davam edərək bilgiləri-ni qat-qat artıracaqlarını qabil-i inkar deyildir, zira!

Mənhumən lə işbəən: talib əl-dunya və talib əl-elm – iki adamın gözü doymaz: "biri surət arayan, digəri isə elm dalınca gedəndir" qanunu pək doğru bir həqiqətdir, zira yaşayış-i Qafqazi get-gedə şiddətli bir şəkil alır, mübarizeyi-həyatiyədə üstün çıxmaq ancaq güclülərə nəsib olur, qoçaq varsa, sözün sözdür, yoxsa yox, zira: ***la raison de plus fort toujours est meilieur.*** *"Ən qutlu adamın hökmü hökmdür!"* deyən böyük bir həqiqət söyləmişdir ki: "elm və sənət qüvvət və qüdrətin bitməz tükənməz bir xəzinəsidir"... Gənc yoldaşlar!

Bu maarif məbədinə girmədən əvvəlki hal və əfkarınızla şimdiki hal və əfkarınız arasında bir müqayisə yapdınız mı? deməyiniz. Nə kimi bir təbəddülata[234] uğradığını dediniz mi? Elmi təcrübələrə məxsus türlü-türlü makinələr, kabinələr, laboratuvarlar ma-

[234] dəyişiklik

cəralarının qüdrətini seyr etdiniz mi? Bunların sayəsinə bir takım mücərrədat[235] və mövhumat deyil, maddi və həqiqi məlumat əldə etdiniz, deyil mi? Bu elmi və said[236] mədəniyyətə aşiq olan mədəni adamlar tərəfindən ixtira edilmişdir. Hər bir mədəni insan, qeyri-mədəni ünsürləri mədəniləşdirməyə borcludur. Böylə olduqda sizin də vəzifəniz məlum olmazmı? Sizlərə ümid bəsləyən və sizləri bəkləyən yoxmudurmu? Azərbaycanın qaranlıq nöqtələrinə bir atif nəzər ediniz! Bu sakit və samit nöqtələrdən pək həzin və məlul səslər gəlməkdədir. Bu yerlər zəban-i hal ilə:

Təəssüb və cəhalət zəncirlər və sıxıntıları altında əzildik və üzüldük, haydi imdada çatınız! deyə bağırırlar. Bu səsləri eşitməmək əhl-i dil üçün qabil deyildir. Baxınız ərəblərin Ömər Xəyyamı olan Əbül-ülə Məərri nə diyor:

وقد تنطق الاشياء و هي صوامامت نطق وما المخبر گل كلام ين

"Bütün əşya sağır olduğu halda qonuşur, hər mühabirin danışığı kəlam olmaya lüzum yoxdur".

Haydi, ey elm orduları ümdədə!

Gəncliyin ilk baharı və məlumat ilə müsəlləh əfkarınıza bir əzm-i sabitdə mulhəq[237] etsələr, nadanlıq qalalarını yıxıb yaxmaya kifayət edəcəkdir.

---

[235] mücərrəd
[236] səadətli
[237] əlavə





Ey inqilab və təcəddüd dövründə əkilmiş olan ağacların meyvəsi, çürük fikirlərilə malamal olan qafalarda bir təcəddüd, inqilab törətmək qayəsini gözdən iraq tutmayınız! Yeni fikirlərə, çıxacaq maneələrə də əhəmiyyət verməməlisiniz. Zira bu zavallılar kəndi mənfəətlərini belə tanımamışlardır. Baxınız Krılov qaba hərifin haqqında nələr söylüyor:

Невежда также в ослепленье
Бранит науки и ученье
И все ученные труды
Не чсувствуя, что он вкушает их плоды.

Bilməyənlərin bilicilər ilə mübarizəsi əskidən bəri davam etməkdədir. Ey nur orduları, xalq kütlələrini qaranlıqdan işıqlığa doğru yürütmək kimi bir vəzifə öhdənizə düşüyor. Sizləri gördükdə Azərbaycanın parlaq bir gələcək ərəfəsində bulunduğuna iman etməmək küfr olur.

Şura hökumətinin şüarları və ideallarını həyata tətbiq etməklə məzkur hökumət üçün canlı və sağlam bir təbliğat rolunu da ifa etmiş olacaqsınız. Hökumətin idealı geri qalmış xalq kütlələrini mə`nən və maddətən yüksəltmək və qoca Sə`di deyən kimi sinfi mübarizələrə hatmə çəkməkdir:

Bən-i adəm ouza-i yekdigərənd
Ke dər afərineş-e ze yek couhərənd
Ço ozv-i bedərd avərd ruzegar
Degər ouzaha nəmand qərar.

To kəz mehnət-e digəran bi qəmi
Nə şayəd ke naməd nəhənd adəmi.

Yəni: - yaradılış etibarilə bir əsldən olan insanın əfradı[238] bir-biri üçün üzv-i mənziləsindədir (yəni bəşəriyyət bir gövdə təşkil edir). Bədənin bir üzvü ağrımaya başlarsa, digər üzvləri də rahatsız olur. İnsanların qəm-qüssəsindən xəbərsiz olan adam, insanlıq namını daşımağa müstəhəq[239] deyildir.

Böylə bir idealı şüar tutan hökumətinin haqqından çıxmaq olurmu?

Əz dəst o zəban gəh bər ayəd,
Kəz ohdeye şokrəş bedər ayəd.

Boynunuzda olan böyük haqqı hökumətin idealını üvafiq icraya qoymaq ilə bəlkə, bir qədər yüngüllətmiş olursunuz.

Gənc yoldaşlar!

Başda kommunizm fikri, yürəkdə ölkə sevgisi və əldə elm silahını tutaraq cəhalət cəbhələrində cahilə qələbə çalmaq və vətəndaşları işıqlığa doğru götürmək üçün bir an əvvəl təcil ediniz və unutmayınız ki, əlverişsiz bir iş yoxdur. Napaleonun "İl ne ya pas imposible" "imkansız bir şey bulunmaz", - deməsi bir həqiqətdir. Ərəblərdə: همم الرجال تقلع الجبال

[238] fərd, insan
[239] layiq





"Ərlərin hümməti sayəsində dağlar yerindən oynar!" demişlər. Yetər ki, tam bir həvəs və qızğın bir məhəbbət , yəni eşq ilə işə yapışasınız. Eşq, pək əcubə[240] bir şeydir. Hissin istianən edilirsə, bu böyük əfsunkarın hökmü bütün kainata rəvandır.

An Rəbb-e moqdəder ke bud eşq nam-e u
Əbəd əst Həsən ra, benokər eqtedar-e Həsən.

Bütün kainatı əsir edən Həsən hər yerə gedərsə, zavallı eşq də onu təqib etməyə məcburdur.

Həsən behər koca keşəd damən-e naz bər zəmin
Eşq bepai u nəhəd ruy-e niyaz bər zəmin.

Bununla bərabər bəzən eşq bu qədər əzəmət və cəlala malik olan Həsəni də tarhimə[241] gətirir. Yəni qüvvət ilə qələbə çalmaqdan aciz qaldıqda acizi kəndisi üçün bir silah qərar verir. İngilis şairi: ***ies love indeed is lightfrom heaven,*** diyor. Əvət, doğrudan - doğruya, sevgi, yuxarıdan gələn bir nurdur.

Burada bacı-qardaşlarınızı işıqlığa doğru götürmək üçün tam bir müvəffəqiyyət diləyərək məqaləmi bitiriyorum.

*Ali Pedaqoji İnstitutu fars*
*ədəbiyyatı tarixi müdərrisi*
***Mirzə Möhsün***

[240] qəribə
[241] rəhim, mərhəmət

## Məsul vəzifə qarşısında

Gənc şuralar Azərbaycanının yaratmış olduğu Ali Pedaqoji İnstitutu bu sənə müəllim buraxıyor. Ali Pedaqoji İnstitutunun açılması Azərbaycan tarixinin parlaq səhifəsini təşkil edəcəyi kimi, institutun bu sənə ilk dəfə olmaq üzrə müəllim buraxmasını da tariximiz qeyd etmədən keçəmiyəcəkdir. Üç sənə bundan müqəddəm, başda bir heyət-mütəşəbbüsə[242] olmaq üzrə Azərbaycanın mühüm bir ehtiyac qarşısında bulunduğunu hiss ilə, bu ehtiyacın isə orta dərəcəli məktəblərə müəllim hazırlamaq üçün bir pedaqoji institutunun təşkilindən ibarət olduğunu göstərdilər. Xalq Maarif Komissarlığı bu ehtiyacı haqqilə təqdir etdi və ilk dəfə olmaq üzrə yeni bir bilgi və irfan ocağının təməli qurulmuş oldu. Bu ali məktəb üç sənəlik gənc həyatında, istər maddətən, istər mənən olsun, öylə bir təkamül dövrələri keşirmişdir ki, əgər bunu incədən-incəyə tədqiq etmiş olursaq, banilərinin sarsılmaz iradələrinə mətanət qələbələrinə və imanlarının qutlu olmalarına hökm edəcəyimizə şübhə yoxdur. Bu sarsılmaz iradələr, mətanətli qələbələr, qutlu imanlar və maddi, mənəvi yardımlar sayəsindədir ki, bu gün məktəb üç sənəlik həyatının son

[242] təşəbbüs heyəti





səmərəsini veriyor. Şuralar Azərbaycanı altun bir istiqbal hazırlayacaq əlləri təslim ediyor.

Ali Pedaqoji İnstitutun birinci məqsədi ikinci dərəcəli milli məktəblərimizə müxtəlif fənlərdən mütəxəssis və müəllimlər kadrosu yetişdirmək və bu mütəxəssislər ilə gələcək nəsli yeni bir ruhda tərbiyə etmək, darülfünun qapılarının onlara açıq bulunması üçün vasitə olmaqdır.

İştə bu məqsədin bilfəal icrası üçün biz bu sənəki məzunlar həyata atılırız.

Şübhə yoxdur ki, birinci dərəcəli məktəblərdə olduğu kimi, orta məktəblərdə də bir takım islahata ehtiyac vardır. Məktəblər, hər şeydən əvvəl, həyat ilə sıxı bir surətdə əlaqədar olub həyatın parlaq bir güzgüsü olmalıdır. Bunun üçün öncə əski tərbiyə sistemlərini çürütmək və bütün məktəblərə yeni tərbiyə sistemlərini tətbiq ilə sərbəst tərbiyə və "öz-özünü idarə" prinsipini qoymaq lazımdır.

Bu günkü həyatımızın əsasi quruluşları yeni tərbiyədəki yeni prinsiplər ilə ahəngdar bulunmazsa, yarınki gəncliyi təşkil edən hər fərdə özünü müstəqil olaraq idarə etmək hissini verməmiz qayət şübhəlidir. Digər tərəfdən Azərbaycan hər sinifdən olmaq üzrə bir çox fənn və sənət adamlarına möhtacdır. Bu ölkənin təbiəti bütün şeir və sənət ərbabına gözəllikləri ilham ediyor. Böyləcə də onun geniş ormanları, kəsrətli[243] dağları, mədənləri[244], suları, heyvanları, nə-

[243] çoxlu
[244] metalları, faydalı qazıntıları

batları və bütün mənası ilə təbiətinin zənginliyi fənn və texnika aləminin nəzər diqqətini cəlb ediyor.

İştə bunlar həpsi bütün təfərrüatı ilə düşünüləcək mühüm məsələlər olduğu üçün məmləkətimizi fənni bir surətdə tədqiq etməli və onu layiqi ilə öyrənməliyiz.

Bunun üçün də yarını təşkil edən bu günkü gənclərə tədqiq etmə fikrini verməli və bu tədqiq və tətbiq fikir və hissini onlarda oyandırmalıyız. İştə yarın bunu yapacaqlar, bu gün buradan çıxan məzun gənc pedaqoqlardır.

"Yarınki Azərbaycanın təməli bu günkü fənn və sənət əsası üzərinə qurulmalıdır" şüarını bəsləyən elm və fənn mücahidləri, bu gün məktəb sıralarında o göründüklərini yarın Azərbaycanın elm həyatında tətbiq edəcəklərdir.

Bu günkü qədər institut labaratuvarlarında çalışmış gənclər üç sənəlik elmi bir təcrübədən sonra yarın vətənimizin gənc sinəsi üzərində tədqiqatda bulunacaqlardır.

Hənuz imdicə başlamaqda olan mədəni hərəkətlər isbat ediyor ki, bundan sonra bizdə də müsbət elmlərlə tədqiqatda bulunacaq geniş bir sahə açılmış olacaqdır.

Binayi-aliyə ictimai həyatımızı əsaslı bir surətdə qurmaq üçün qollarımıza təvəddi[245] olunacaq "yarınki" gəncliyi, ictimai bir ruhda həyatda yaşamaya müstəid[246] bir tərzdə tərbiyə etməli və əsər-i hazırın bütün elm, fənn və sənətlə müchiz[247] olmaq qənaətini onlara verməlidir.

[245] bağışlama





İştə Ali Pedaqoji İnstitutun yetişdirmiş olduğu biz gəncləri bu kimi mühüm bir vəzifə bəkləmədədir.

Məsuliyyətimizi bilməli, öhdəmizdəki vəzifənin ağır olduğunu təqdir ilə ona 4 qol olub sarılmalıyız.

*Ali Pedaqoji İnştitutu*
*Təbiət şöbəsi məzunlarından*
***Əfəndizadə Əbdülrəşid***

[246] ağıllı, qabiliyyətli
[247] təchiz

## Vəzifəmiz

Əvət, gənc məmləkətimiz Azərbaycanın üç sənədən bəri böyük zəhmətlər sayəsində təsis edilmiş Ali Pedaqoji İnstitutu bu gün xələfimizə ilk hədiyyələrini veriyor. Üç sənə zərfində hazırlamaya çalışdığı gənc müəllimləri fəaliyyət səhnəsinə atıyor.

Səthi baxışında pək də əhəmiyyəti caiz olmaz kimi görülən bu hadisə, gənc Azərbaycanımızda misalı görülməz bir hadisədir, demiş olsaq heç də yanılmarız, zənnindəyim.

Niçin?

Bu sualı lazımınca təmin etmək üçün dövr "texnika dövrü" olduğunu və bu günkü Avropa mədəniyyətini düşünməklə hala[248] cəhalət pəncəsində yeniləyən Azərbaycan xalqını nəzərdən keçirməmiz yetər.

Böyük Rusiya inqilabından sonra tarixdə misli görülməyən tərəqqilər əldə edən Azərbaycan xalqı kəndi məktəblərini hənuz lazımınca milliləşdirməyə müvəffəq olmamış. Səbəbi "hazırlıqlı müəllim" yoxluğundan başqa bir şey deyildir.

Şuralar ittifaqı daxilində məmləkətimiz müstəqil bir həyata malikdir, deyə iddia edənlər olduğu kimi, əksini dəxi söyləyənlər yox deyildir. Burada əsasi bir məsələyi nəzərdən qaçırmamaq lazımdır.

[248] hələ də





*Hər bir ölkənin müstəqil həyatı onun malik olduğu mədəniyyətilə ölçülə bilər.*

Bunu tarix dəxi bizə açıqcasına göstəriyor: Vaxtilə farsları kəndi taxt-i hakimiyyətlərinə keçirən babalarımızın İran mədəniyyəti əlində əsir olduğu bu gün belə bizdə təsirini göstərməkdən vaz keçəmiyor.

*Deməli, hər bir ölkə tam mənası ilə azad həyatın əsas ünsürləri, daha doğrusu, təməl daşı o ölkənin yaratmış olduğu irs və mədəniyyətdən ibarətdir.*

Şimdi biz bu nöqteyi-nəzərdən məmləkətimiz Azərbaycana yanaşmış olsaq, küçük cümhuriyyətlər içərisində ən geridə qaldığını etiraf etmək məcburiyyətində qalacayız.

Bəs nə yapmalı, bu müdhiş vəziyyətdən nasıl qurtarmalı? Qaşımızda bir çıxış yolu varsa, o da mədəniyyətin yeganə amili olan məktəblərin əhəmiyyətini anlamaq və onları mükəmməl bir hala salmaqdr ki, işin pratik cəhəti ən çox məmləkətimiz daxilində *maarifin təmərküz nöqtəsi olan Ali Pedaqoji İnstitututu* və onun ilk hədiyyələri bir takım gənc müəllim və müəllimələr öhdəsinə düşüyor. *Əvət, gənc müəllim, cəhalət pəncəsində əsir xalq kütləsi, mübarizə...*

İçərimizdə bu vəzifənin nə dərəcədə məsul olduğunu düşünməmiş bir nəfər də bulunmadığına bütün varlığımla iman ediyorum. Çünki bu vəzifənin nədən ibarət olduğunu üç yıl müddətində möhtərəm müəllimlərimiz bizə anlatmış və məfkurə olaraq gənc qəlblərimizə aşılamışlardır. Onlar ictimai qayə

daşıyan gənc qəlblərdə alov saçan odun ziyası nərələri[249], hangi köşələri işıqlandırması lazım gəldiyini göstərmişlər.

Artıq biz vəzifəmizin nədən ibarət olduğunu tam mənası ilə anlamışız. Biz biliyoruz ki, maarif cəbhəsində fədakar bir əsgər mövqeyini almalıyız və heç bir məmaniyət[250] qarşısında dayanmıyaraq.

Bir gün gələcək, şəms-i həqiqət doğacaqdır,
Şərqin o əsir validəsi hürr olacaqdır –

şeiri ilə tamamən inkişaf ermәmiş[251] olsa belə, həqiqəti seçən sağlam bir şüur ilə xalqımızı yenilətən cəhalətə qarşı elan-i hərb etməliyiz.

*Vəzifəmizin əsas qayəsi insaniyyatpərvər bir ruhla gələcək nəsli tərbiyə etmək, məmləkətimizin qaranlıq guşələrini işıqlandıraraq onları dos-doğru bir qurtuluş yoluna sevk etməklə[252] iyirminci əsrin mədəni səviyyəsinə çıxarmaqdır.*

Arqadaşlar. Əski həyatımıza nisbətən Azərbaycan gəncliyi bu günlərdə təqdirə şayan tarixi hadisələr törtətdiyi inkar ediləməz bir həqiqətdir. Fəqət, biz bununla kufayətlənməməliyiz, biz kəndi tərəqqimizi əski halımıza nisbətən deyil mədəni Avropaya nəzərən ölçməliyiz. Biz bir dəfəlik düşünməliyiz ki, Avropa mədəniyyətinə çatmaq üçün iki yüz yıllıq yolu

[249] hansı yerləri, haraları
[250] manеələr
[251] çatmamış
[252] yollamaq, göndərmək





iyirminci əsrin tələb etdiyi təyyarələr ilə bir an içərisində keçməyə çalışmalıyız. Bunun üçün də düşüncəli, əzm, iradə və əxlaqı hisslərə istinad edən bir şüura malik olmalıyız.

Biz gələcək nəsli kəndi ehtirasatı təxt-i təsirində deyil, ictimai prinsiplər üzrə hərəkətdə bulundurmalıyız və vəzifəmizin ifası yolunda lazımi "enerji" ilə hərəkətdə bulunaraq böyük Fikrətin:

Ey fəcrəcində[253] zad-i həyat iştə hər kəsin.
Ənzarəsində[254] sanki həyatın ümidisən.
Alnında pursitareyi-nou,[255] yox bir afitab
Afaqa doğ önündə şu mazi-i[256] pur[257] mihən[258]

sönsün mubdən-[259] sözlərini kəndimizə qarşı bir həqiqət olduğunu isbat etməliyiz.

*Ali Pedaqoji İnstitutunun*
*Ədəbiyyat şöbəsi məzunlarından*
***H.Surxay***

[253] dan yerinin ağarması
[254] baxışlar
[255] yeni ulduzlar
[256] keçmiş
[257] çoxlu
[258] əziyyətlər
[259] əvvəl, başlanğıc

# DUYĞULAR VƏ XATİRƏLƏR

## Bir xatirəcik

### Ali darülmüəllimat məzunlarına ithaf

Dün şu sevimli binada siz
Nə xoş zaman keçirdiniz!..
Gülüşmələr, gülüşmələr, sevişmələr.
Nələr, nələr... Nə çocuqca didişmələr,
Nə nəşələr!..
Nə şən, nə şux azadə sər
Aylar, günlər yaşadınız!..
Fəqət artıq adınız,
Şagird deyil müəllimə..
Yıllar sürən hazırlanış niçin? Kimə?
Kimə? Niçin?.. Oxutdular sizi, əvət,
Fəqət bu gün, şərəf, növbət
Sizə gəldi. Siz də bir az oxutunuz!
Müvəqqətən unutunuz
Unutulmaz o günləri,
O müqəddəs düğünləri..
Əvət, onlar birər bayram günü idi.





Elm, irfan, mədəniyyət düğünü idi..
O düğündən, o bayramdan siz aldınız hissinizi
Bu gün vətən, bu gün Azərbaycan sizi
Əl üstündə yüksəltiyor
Gözlərində nəşə yaşı,
İftixarla qalxmış başı
Baxın sizə nələr diyor:
"Ey göyümün mələkləri!
Ey bağımın çiçəkləri!
Uzun illər
Şum əsrlər
Mən əsirdim...
O zəncirdən nişanlar var
Hala zəif vücudumda.
Övladlarım mən uyqumda[260]
Belə rahət görməmişdim.
Nə bilirdim...
Nə bilirdim ki, bir gün gəlir
Xəritəm genişlənir
Mən də irfan nemətindən
Kəndi öz hissəmi kəndim
Əllərimlə alacaqdım...
Vətənimin namusunu
Qazanacaq, alacaqdım!
Nə tac qaldı... nə taclı baş
Şimdi onlar əfsanədir.

[260] yuxumda

Tarix üçün birər ləkə,
Birər sihay nişanədir..
Bu gün bu sevgili ölkə
Başdan başa gülzar oldu;
Nə bataqlıq, nə də bir daş...
Bahar oldu.
Və çiçəksiz, quşsuz, rəngsiz
Uzun qışlar bitti...yalnız
Əvət, yalnız ölüm gözlü
Şeytan yüzlü, şeytan sözlü
Bir düşmən var, bir tək düşmən
O da mənhus cəhalətdir...
Ey yıllardır hazırlanan
Elm ordusu zabitləri...
Ona böyük səadətdir
Gedə bilmək həp illəri
Oxutdunuz,
Oxudunuz.
Arxanızdan qoşan dizlər,
Sizin keçdiyiniz izlər,
Sizin basdığınız yerdən
Keçəcəklər...
Və mən
Sizdən yardım bəklər,
Hazırlarım.
Büyük başlar üçün çələng..
Rəng- rəng
Çiçəklər taxarım





O şərəfli sinələrə...
Zülmətlərə, gecələrə,
O yırtıcı cəhalətə
Qavqa açmaq;
Oxu durmuş səmtə
Atəş saçmaq...
İştə budur, budur mənim
Sizdən bütün istədiyim!.."
Ey yarının simasını
Mərifətlə parladacaq,
Cəhalətin simasını
Qaraldacaq, ağladacaq
Mədəniyyət yıldızları;
Ey bu yurdun şən qızları!
Bayramınız qutlu[261] olsun!
Vətəniniz güllə dolsun..
Nəşənizə oldum şərik,
Məndən sizə min bir təbrik!..

*Bakı, 5 May 1924*

***

Bu günki cəmiyyət tələbatına görə bizim hər birimizin çalışması, çarpışması, yaşaması və ən nəhayət, ölməsi yenə kəndimiz üçün, yenə cəmiyyət üçündür. Bu gün həyatın düsturunda fərd deyil, cəmiyyət, daha doğrusu, bəşəri kütlənin ümumi mənafeyi hakimdir. Biz həpimiz kəndi şəxsiyyəyimizi buna fəda ediyor və edəcəyiz.

---

[261] mübarək

İştə gənc və ictimai inqilab ərəfəsində yuvarlanan bu yazıq, fəqət gözəl Azərbaycanın müəlliməyə də böyük ehtiyacı olduğunu hər kəs biliyor... İştə bu cəmiyyətin ehtiyaclarını dəf edəcək, cəhalət mübarizələrini dəf edəcək mürəbbiyələr, analar həm də gənc və yeni ruhlu müəllimələr lazımdır.

Biz bunu düşünüyor, bu acıyı duyuyor və bununçün də hələ də qadın məktəbləri bulunmayan qəzalara gediyoruz. Solqun və ölgün qızların tərbiyəsi üçün çalışmayı, bu ictimai məsuliyyətli işi dər əhadə ediyoruz.

Biz bunu ilk vəzifə sayıyoruz. Bu asan olmayan işi görmək istiyoruz. Gözəl, fəqət məsum, küçük fəqət munis yavrular həp bizi bəkliyor. O yarınki nəsil, onun tərbiyəsi bizim üzərimizə düşüyor. Biz bu vəzifəyi haqqı ilə aparmaq və müvəffəq olmaq üçün böyük ümid, doğru bir bilgi sahibi olmalıyız. Bu gün bunların həpsini bilgidən almadan məktəbi tərk ediyoruz. Fəqət bu günkü ehtiyac şəraiti bunu bizdən tələb etdi. Biz də bunu qəbul ediyoruz.

Artıq tikanların yerində güllər, çiçəklər göyərməli və bunu göyərtməlidir. Biz gənc müəllimələr bütün bunları göz önündə bulunduraraq hərəkət edəcək, yuxarıdakı bəşəri qayəyə yetişmək üçün nə bacarırsaq ancaq onu yapacağız.

*Ali Pedaqoji İnstitutunun qadınlar hissəsi*
*məzun talibələrindən* ***Fatma Tutayeva***





## Seviniyoruz

Ali Pedaqoji İnstitutu bu 1924 sənəsi dərs müddətini ikmal etməsi münasibətilə Azərbaycan tarixinə böyük bir hadisə qeyd ediyor. 1921 sənəsi yeni açılan bu məktəb haqqında tənqidlər və çox gurultular duyuldu. Fəqət, məktəbin idarəsi əlinə verilən Rzabəyli yoldaşın mətin və qüvvətli bir əzmi, bütün bu etirazlara və məktəbin təşkilatında olan nöqsanlara baxmayaraq çalışdı. Nəticədə üç sənə kimi az bir müddət içərisində məktəbin hər xüsusdaki idarəsi, xasseyi-elmi idarəsi ümid edilməyən dərəcədə yüksəldi. Kimya, hikmət, təbiət laboratoriyaları ilə muzexana və kitabxanalar əmələ gətirildi.

Bu gün hər kəs təsdiq və qəbul edəcək mükəmməl halı aldı. Məktəb həzin göz yaşı dökərək işə başladığı halda bu gün Azərbaycan Şuralar hökumətinə iftixar və qürur ilə köksünü açaraq mükəmməl bir elm ordusu hədiyyə ediyor. Məktəb bundan üç sənə əvvəl Şuralar hökumətini idarə edən əmələ və kəndlilərə xidmət edəcəyini vicdanilə təsdiq edib söz verən müəllimləri hazırladığı üçün xoşbəxt bir iftixara layiq olduğunu hiss ediyor. Aristokrat və burjuaların əməl və fikirlərinə xidmət edən əski və dini fikirləri və saxta siyasətləri ilə özlərinə əsir edən əmələ və kəndliləri əsirlikdən qurtarıb bir daha o cür saxta tərbiyələrə yol verməyəcək müəllimlər veriyor.

Məktəbin tərbiyəsində o görünmüş olduqları müsbət elmlər sayəsində metafizik zalım qüvvətləri məhv edib qarşılarında həqiqət yolu üçün çalışanlara rəhbər olan şuralar hökuməti bulunduğundan doyacaqları ruhani ləzzət onları bu yoldakı xidmətlərinə müvəffəq edəcəkdir. Yaşasın bütün şərqi qaranlıq bulud altından qaldırıb aydınlığa çıxarmaya doğru yürüyən gənc inqilabçı müəllimlərimiz.

*İnstitut elm-i təbiyə müəllimi*
***İsmayıl Novruzi***





## Ön manqa

Uzun müddət intizardan sonra, nəhayət, Azərbaycan Ali Pedaqoji İnstitutu maarif ordusundan bir küçük "Ön manqa" buraxıyor. Bu ön manqanın hər nəfəri maarifsiz kütlə arasında yalnız bir müəllim deyil. Bəlkə, birər təsərrüfat müəssisi birər ayda təsərrüfatçısı olacaqdır.

Mədəniyyətsiz əhalidə bu ön manqa nəfərlərini sevəcək və onlara dərin hörmətlər bəsləyəcəkdir. Zira bu manqanın hər nəfəri onun həqiqi ana lisanı ilə onun yavrusunu tərbiyə edəcək, kəndisinə çoxdan bəri şaşırıb qaldığı və hansı ilə getmək lazım olduğu yolu göstərəcəkdir. Nurlu və parlaq Bakıda bəslənmiş bu ön manqanın hər nəfəri, kəndi, hər qəza şəhrini, bəlkə də, köyünü yarın maarifcə Bakı kimi edəcək və ən ümdə, ən əhəmiyyətli bir sədd olan Bakı zəhmətkeşləri ilə qəza və köylər arasında sıxı bir rabitə bağlamaya müvəffəq olacaqdır. Deməli, hər nəfərdən bəklənilən bu!

Fəqət bu manqanın hər nəfəri kütlənin bəklədiyindən çox, pək çox yaratmalıdır. Bütün bunlara ümid edır və bu gün buraxılan arqadaşlarımızın böyük müvəffəqiyyətlərə nail olmalarını arzu edəriz.

*Ali Pedaqoji İnstitutu*
*birinci kurs müdavimlərindən E.*

## Üç məzuniyyət

Bu yıl biz, Pedaqoji Ünas və Zükur İnstitutları və Şaiq Nümunə məktəbinin ilk məzuniyyəti münasibəti ilə üç böyük səadətə nail olarıq. Bu ilk məzuniyyətləri bir azca düşünsək, bunların bizdən ötrü tam mənası ilə bir səadət olduğunu anlarıq. Bu üç məzuniyyətdən ikisi bizə 2-ci dərəcə məktəblərimiz üçün müəllimə və müəllimlər verir. Biz bu gün bu möhtərəmə və möhtərəm yoldaşlarımızın varlığı ilə, bunların maarif səhnəsinə qədəm qoyması ilə özümüzü məsud hesab edirik: çox zamandan bəri dörd gözlə bəklədiyimiz maarif çiçəklərini bu gün açılmış görürük. Bu çiçəklərlə bütün Azərbaycanımız məzin[262] və mətər[263] olacaqdır.

3-cü məzuniyyət Şaiq Nümunə məktəbinin ilk məzuniyyətidir. Bütün Azərbaycanda ən əvvəl milliləşən edadi məktəb həmən bu məktəbdir. Bu məktəbdən məzun olan sevgili cavan tələbələr 2-ci dərəcə məktəbi öz ana dillərində hər kəsdən tez bitirib darülfünunun qapısını açmağa qoşurlar. Baxınız, nə iyi təsadüfdür ki, 2-ci dərəcə məktəbdə ilk dəfə milliləşməklə nail olan, ilk dəfə *öz ana dillərində məktəbi bitirən tələbələrimiz darülfünunun da ilk milliləşməsinə tərəf qoşurlar*[264]. Bu əzəmətli böyük binada dəxi ilk olaraq öz ana dillərində təhsillərinə davam etmək ərəfəsindədirlər. Bu məsud tələbələrin yolunu kəsməyə, onlara memaniyət etməyə kimsənin haqqı yoxdur və kimsə buna cəsarət edəməz, çünki bu gün darülfünunlarımızın milliləşməsi köylü və zəhmətkeşlər faidəsinədir. Azərbaycanın milliləşmiş darülfünunu köylülər və zəhmətkeşlər kütləsinə qucaqlarını geniş açaraq "balalarım, gəliniz, bəndə ali təhsil almaq növbəti artıq sizindir!" deyəcəkdir.

Burasını da nəzərdən uzaq tutmamalıdır ki, darülfünunun milliləşməsində müvəffəqiyyət üçün 2-ci dərəcə məktəblərimiz artmalı, buradan bir çox tələbələr sel kimi axın-axın axaraq, darülfünunu feyzan[265] halına gətirməlidir. Bu günə kimi müəllimə və müəllimlərə ehtiyacımız çox, ələlxüsus yaxşı müəllimlərimiz yox mənziləsində idi. Bu gün isə biz həqiqət qarşısında 2-ci dərəcə məktəblərdə tədris edib darülfünuna tələbə hazırlayan müəllimə və müəllimlərimizin ilk məzuniyyətində iştirak edirik. 2-ci dərəcə məktəblər olmaz isə darülfünunlar da olmaz. Yemək vücudun qəzası olduğu kimi 2-ci dərəcə məktəblərimiz də darülfünunların qəzasıdır. Buna görə

262 bəzəkli
263 burada: rahiyəli
264 qaçırlar
265 rifah içində, xoşbəxt

də 2-ci dərəcə məktəblərimizin və xüsusilə bunlarda tədris edəcək müəllimə və müəllimlərimizin əhəmiyyəti böyük, vəzifələri müqəddəsdir.

Azərbaycan şairlərindən Tahir diyor:

Zaman -zaman hünərdir, cahan- cahan ədəb,
Cahanda biz də hünərlə mükərrəm olmalıyıq!..

Şairimizin bizdən ötrü dediyi bu sözlərinə əhəmiyyət verib, ədəb cahanında hünərlə yaşamaq istər isək, məktəbiərmizi möhtərəm tutmalıyıq. Cəhalətə elan etdiyimiz müharibədə qalib gəlmək üçün hərb cəbhələrimizi qutlandırmalıyıq. Hərb cəbhəsinə müqtədir zabitlər bu məktəblərdə yetişdiyi üçün bizə qalibiyyət müjdəsini verən dəxi bu məktəblərdir. Müqəddəs və ağır vəzifələrinə nail ola biləcək müqtədir müəllimə və müəllimlər Ali Pedaqoji İnstitutlarından çıxacaqlarını nəzərdə tutarsaq, bu binaların həyatımızda nə qədər əhəmiyyətli mövqe tutduğunu anlamaq asan olar, bu müəzzəm binalar dəxi ancaq 2-ci dərəcə məktəblərimiz üçün yaşıyor, onların nəşv-ü nümasına xidmət üçün çalışır. Bunlar biri- birinə o qədər möhkəm mərbutdur[266]ki, bu üç məzuniyyəti biri-birindən ayırmaq mümkün deyildir.Buna görə də bu üç məsud məzuniyyəti səmim qəlbdən

[266] əlaqəli, bağlı





təbrik edərək vəzifələrində müvəffəqiyyətli olmalarını arzu edərək ilk məzuniyyət səbəbilə nəşr olunan bu məcmuəni də yadigar olaraq saxlamaqla səadətləri yolunda çalışan müəllimlərini unutmayacaqlarına əminik. Biz də həyatımızda daima əhəmiyyətli rol oynayacaq bu üç məzuniyyəti təbrik ilə diyoruq: "Yaşasın üçlər!"

*Qafur Rəşad*
*9 mayıs 1924*

## Bir-iki söz

İnqilabın əvvəl günlərində atılmış toxumlar bu gün faydalı səmərələr verməkdədir. Bu gün ilk dəfə olaraq Ali Pedaqoji İnstitutumuzdan 28 müəllim buraxıyoruz.

*Əvət şanlı və şərəfli bir gün!..*

Əsrlərdən bəri rus çar istibdadının zülmü altında taptalanıb cəhalətin son dərəcəsinə yetmiş azəri türkləri üçün bu gün, bahəq[267] böyük bir bayram günü sanılmalıdır. İmdiyə qadar bizim ikinci dərəcə məktəblərimiz və darülfünunlarımız türkcə ali təhsil görmüş müəllimlərin bulunmadığından pək fəna hallar keçiriyordu. Fəqət, bu gündən etibarən Azərbaycan ətrafında ali təhsil görmüş yoldaşlarımızı cəhalətin fırtınaları içərisinə ataraq, əmin ola biləriz ki, bundan sonra ikinci dərəcəli məktəblərimizi yaratmaq üçün möhkəm və əsaslı bir təməl yapa biləcəyiz.

Ali Pedaqoji İnstitutumuzun əhəmiyyət və faydası yalnız azəri zəhmətkeş türkləri üçün deyildir. Türküstan, Dağıstan, İran və s. kimi qomşu cümhuriyyətlərdə yaşayan zəhmətkeş türklərdən ötrü də ən qiymətli faydalar verəcəkdir. Böyük bir etiqad ilə açıqca söyləyə biləriz ki, bu ali türk pedaqoji institutu gələcəkdə istər Azərbaycanda, istərsə Yaxın Şərqdə yaşayan türk zəhmətkeş xalqı üçün ən parlaq və yüksək maarif və mədəniyyət ocağı olacaqdır.

[267] həqiqətən, doğrudan





Buna görə institutun bu tarixi rolunu nəzərə alaraq, şərqin gələcək səadət və xoşbəxtliyini sevən hər kəs şu ali mədrəsənin yüksəlməsi uğrunda heç bir fədakarlıqdan çəkinməməlidir.

***Heydər Verdiyev***

## İlk fatehlərə!..

Çalılıq, keçilməz bir yolu bu gün
Qırılmaz ümidlə yapdınız düzgün.
İştə namınıza yapılır düyün,
Maarif fatehi, ey şanlı gənclər!..

İlk bahar rüzgarı salamlar sizi,
Adınıza çalar bir pəri qızı.
Unutma! Sizsiniz vətən yıldızı,
Maarif fatehi, ey şanlı gənclər!..

Sıxıntı, əziyyət içində hər an,
Çalışıb məqsədə yetdiniz həmən.
Bax! Sizi alqışlar eşidən, duyan
Maarif fatehi, ey şanlı gənclər!..

Alqışlar sizləri çiçəklər, güllər,
Namınıza ötər gözəl bülbüllər,
Tərifiniz bitməz, nə desə dillər
Maarif fatehi, ey şanlı gənclər!..

*Nümunə Şaiq məktəbi*
*ikinci sinif tələbələrindən*
***Nəsir Quluzadə***





## Məzun müəllimlərə

İstibdad zamanında böylə bir nəzəriyyə var idi ki, türkdən alim, türkdən amir, hətta türkdən adi bir sənətkar da olamaz: olsa da, fayda verəməz.

Böylə bir fəna nəzəriyyənin ətrafında fikirləşdikdə, və bir tərəfdən də insanın təbiətinə diqqət etdikdə insan heyrətlərə dalırdı. Amma yenə də öz-özümə diyordum ki, bu böylə deyil. Nəinki türk, hətta ən qaba bir Efiop da doğru bir təlim tərbiyə alırsa, alim də ola bilər və hər bir sənətdə də mütəxəssislik qazana bilər. Fikrim doğru oldu. Şura üsul-idarəsi, zərbdəsti altında mazər[268] qüvvələr əzilməyə başlaması ilə azərbaycanlıların da psixologiyası dəyişməyə başladı. Doğrudan-doğruya, ciddiyyətlə çalışan, çarpışan bütün bunları görən bir qaç müəllim Bakıda Ali Pedaqoji İnstitutu açmaq fikrinə düşdülər. Bu zaman mazər qüvvələr başlarını qaldırdı. Bütün yılan, qurbağa və həşərat dilə gəlib, şöylə dedilər ki, a kişi, bu nə sərsəmlikdir, böylə də iş olarmı? Türk Ali Pedaqoji İnstitutu açıla bilərmi? Dəvə hara, hamam hara? Bu işi apara biləcək müəllimlər, mürəbbilər hanı? Yox-yox! Böylə şey olamaz! Burada daş-qaya iradəli bir müəssis lazım olduğu şübhəsizdi. Böylə bir müəssisimiz də yox deyildi. Pedaqoji institutu böyük müşkü-

[268] burada: zərərli

latdan sonra, əllərini xırman şanası kimi qaldırıb, başlarının tüklərini qoparacaqlandıran, ayağının birini iləri, birini geri qoyub əjdaha kimi ağzını ayıraraq bağıranlara baxmayıb, açıldı...

Əsrlərdən bəri bir-iki orta məktəb müəllmi hazırlamağa qədər olmayan türk proletar xalqı bu gün üç sənə zərfində geniş kökslü şura hökuməti sayəsində maarif cəbhəsinə 28 müqtədir[269] və hazırlıqlı müəllim buraxır. Cürətlə "müqtədir" diyorum.

Çünki biz onlarda öylə bir hazırlıq görürüz ki, hərgah hər qüsurları olursa da, onları işə başladıqda az zaman zərfində islah etməyə qadirdirlər. Bizim maarif cəbhəmizdə bu yoldaşların böyük əhəmiyyəti olmasına şübhə yoxdur. Xalqımızın sənələrlə pozulmuş həyatını bu yeni ruh ilə ruhlanmış gənc müəllimlərimiz kəndi tədris və tərbiyə vasitələri ilə bir inqilabçı, bir "reformator" sifəti ilə islah edəcəklərdir.

Yaşasın xalqın səadəti uğrunda doğru hərəkət edən ali təhsilli gənc müəllimlərimiz!

Yaşasın Ali Pedaqoji İnstitutu və müəssisləri!

Yaşasın yol!

*Cavad Cuvarlı*[270]

[269] qüdrətli

[270] *Cavad Cuvarlı (1886-1963) Füzuli rayonunun Cuvarlı kəndində anadan olmuşdur. Qarğabazar kənd məktəbində, Zaqafqaziya Müəllimlər Seminariyasında (1902-1906) oxumuşdur. Yelizavetpol quberniyasının Gəncə şəhər altısinifli məktəbində müəllim (1907-1917), Gəncə və Şamaxı qəza xalq məktəblərində inspektor (1918-1921), Xalq Maarif Komissarlığında (1921-1929), Azərb.ETPEİ-də (indiki*





## Məzun məsləkdaşlara

Əsrlərdən bəri Azərbaycanın hər tərəfini qara buludlar sarıb almış. Daima ağlayır, duruyor, onun ürəyi sızlar, kədərlənir. Saniyə, dəqiqə durmadan həp düşünüyor, o hər zaman kəndinə doğru yardıma qoşacaq bir əl arıyordu. İştə böylə vaxtda imdada yetişəcək ancaq inqilab idi. Həmən o inqilab günəşi ziyası kimi kəndi məşarını şərqin qaranlıq ölkələrindən biri olan Azərbaycanın üzərinə də saçdı.

Bu şüarın başında duran rəhbərlərin böyük vəzifəsi maarif işlərinə baxmaq oldu. Çünki bir məmləkətin məktəbləri az olursa, o vaxt mədəniyyət geri qaldığını və o şüarın əsaslarını ancaq məktəblər vasitəsilə həyata tətbiq etmək mümkün olduğunu biliyordu.

*Təhsil İnstitutu) işləmişdir. "XIX əsrdə Azərbaycanda pedaqogika tarixi" üzrə biblioqrafiya hazırlamışdır. Yaşlılar üçün "Qırmızı əkinçi" qrammatika kitabını tərtib etmiş, əsgərliyə çağırılan gənclər üçün "Vətən uğrunda" dərsliyini hazırlamışdır. Əlifbayaqədərki dövr üçün leksik dərslər üzrə metodiki vəsait düzəltmişdir. 52 məqaləsi nəşr olunmuşdur. Onun 8-10-cu siniflər üçün "Rus dili" dərsliyi bir neçə də fə nəşr olunmuşdur. 1939-1943-cü illərdə M.F.Axundov adına Müəllimlər İnstitutunda, 1943-1963-cü illərdə ADPİ-də rus dili müəllimi işləmişdir. 1948-ci ildə Ali Partiya Məktəbinin fəlsəfə fakültəsində oxumuşdur. Gəncə qəzasının Maarif İşçiləri İttifaqının katibi, Ağamalıoğlu adına Torpaqşünaslıq, Maarif İşçiləri Həmkarlar Təşkilatının sədri olmuşdur.*

Onun üçün birinci məqsədi məktəbləri açmaq və oralarda məzlum şərqin geridə qalan istiqballıq cavanlarını tərbiyə etmək, onları bilikli ordusuna cəlb eyləmək oldu. Bundan maəda bu cavanları yetişdirəcək, onlara tərbiyə verəcək ancaq qadınlar olduğunu bilirdi. Ondan dolayı əsarət zəncirləri arasında inləyən qadınları qurtarmaq üçün bir çox kurslar açıb, onları bilgi türü ilə ziyalandırdı. Bir qaç sənə zərfində oxuyanların ədədi faizlərcə artdı. Sonra müəllim və müəllimə hazırlamaq üçün şərqin ən qaranlıq yerlərində belə yüzlərcə ibtidai məktəbləri açıldıqdan sonra daha da böyük olan ali məktəbləri tikdirdi. Oxuyanların məlumatlarını , biliklilərini genişlətdi.

İştə bunlardan biri də hal-hazırda daxilində bulunduğumuz institut ocağıdır. İmdi isə bu ocaq kəndi məhsulatını veriyor. Artıq ondan böyük ümidlər gözlənən Azərbaycan kəndi məqsədinə nail olmaqdadır. Buranı bitirib çıxan yoldaşların həpsi birər köy rəhbəri və birər mürəbbi və mürəbbiyə olacaqdır.

Gözlərindən yaş yerinə qan axıdan və hər zaman cəhalət içərisində çırpınan kəndlərə və qəzalara gedib onların əhval-ruhiyyələrini oxşamaq, o cavan uşaqları tərbiyə etmək nə böyük *səadət!*

Bu səadətə isə ancaq sənələrcə bütün varlıqları ilə çalışan və kəndi zəhmətinə acımayan, gecələri gündüzləyən yoldaşlardır. O zəhmətlərin nəticəsi artıq bu gün böyük bir elm səhiyyəsi olaraq meydana çıxıyor. Ümid edərəm məktəbi ikmal edən məsləkdaşlarımız o meydanı yalnız Azərbaycan mahiyyətində deyil, bunun kimi, bəlkə, daha ziyadə geridə qalan türk ölkələri varsa, onlara yardım etməyə gedən kəndi zəhmətkeşlərini acımazlar. Onun üçün bən artıq ali darülmüəllimat və ali darülmüəllimini bitirən yoldaşlarımızı bütün Krım oxuyucuları tərəfindən təbrik edirəm. Şərqin geridə qalan millətlər arasında və bilxassə türklərin arasında çalışacaqları üçün söz verdiklərinə binaən seviniyorum.

Oyatalım şərqimizi,<br>
Bənövşələr gülümüzlə.<br>
Şərq nəğməsi oxuyalım,<br>
Şərqimizi söyləyəlim.

*Ali Pedaqoji İnstitutunun qadınlar hissəsi birinci kurs talibələrindən*
***Xədicə Qazızadə Krımlı***

## Gənc müəllimlərə!

Bu sənə Ali Pedaqoji İnstitutu maarif cəbhəsinə Azərbaycanı əsrlərdən bəri örtmüş cəhalətlə mücadiləyə birinci dəfə olaraq 28 müəllim buraxıyor.

Maarif günəşi get-gedə Azərbaycan üfüqündən yuxarı qalxır. Xalqımız üzərinə çökmüş olan qaranlığın qatları bir-bir götürülüyor. Cəhalət süqut edir, zəəfə[271] düçar olur. Gözlər önündəki üfüq genişləşir. Fikirlər oyanır. Yeni həyatın əhəmiyyəti düşünülüyor... Hər kəsin mövcudiyyətini tutmuş. Hər addımda hər tərəfat ul-aynda[272] növ-növ arzular və talibələr və yeni qayələr, yeni həyat tərəfindən xalqımızın üzərinə qar-quğu kimi tökülür... Fəqət bunu üzərindən seyr gəlib yerə atmıyor. Vücuduna hopdurur kəndi ruhunun bir xassəsi və daha doğrusu, bir cüzi edir. Xalqımız bunun hər birini bilmək, anlamaq, yüksək qayə və məfkurəyə nail olmaq üçün doğru yola sədaqətlə sevk olunmasını arzu ediyor. Bu vəzifədən əvvəl hər kəs "Müəllimin öhdəsində, müəllim məqsədində acı və əziyyət bununla bərabər şux və həvəslə çalışırsa, xalqını yeni həyata sevk edə bilir. Yeni həyatın qayələrini və şüarlarını yüngül üsul ilə, bəsit vəsilə ilə anlatacaq bir qüvvəni xalqımız gözlüyor, axtarır, bulduqda məsrur[273]olur.

[271] zəiflik
[272] burada: göz önündə, göz baxdıqca
[273] xoşbəxt, razı





Ali Pedaqoji İnstitutu qurtaran gənc yoldaşlarımızın yeni həyatın nədən ibarət olduğunu iyicə anlayıb xalqımızın uğrunda vəzifəsi dairəsində var qüvvət və mövcudiyyətilə çalışmağına, yaşadıqları mühitdə təsadüf olunan fitnə və fəsaddan uzaq olmaq şərtilə xalqımızın cəhalətdən səadətə doğru yürüməsinə yol açmalarına əmin oluruz.

- "Vəziyyət çətin olduqca, vəzifə və məsuliyyət dəxi ağır olur" - demişlər.

Xalqımız dərin cəhalətdə, qüvvə az, maarif xadimləri üzərində ağır vəzifə və böyük məsuliyyət olmasını siz də həyata daldığınız kimi hiss edəcəksiniz, fəqət qorxmamalı: meydan qorxaq meydanı deyil. Çalışmalı.

*Pedaqoji məktəbləri müdiri*
***Sübhanverdi Xanzadə***

### Biz və əskilər

İnqilabdan əvvəl məzuna buraxılan edadi məktəb tələbələrilə bizim aramızda olan fərq çox böyük və hətta çox dərindir. Çünki, əvvəla, bir kərə onlar istibdad dövründə yaşadığından, bir o qədər əsaslı və cəmiyyət üçün faydalı olamıyordu. Zatən o zamankı tərbiyənin verdiyi ancaq bu qədər olurdu. Onların arzuları Nikolay çarizminə qulluq etmək məfkurələri o mənhus[274] siyasəti yürütməkdi.

Bir də edadi məktəblərdə demək olar ki, 85% füqəra olmayan zəngin ünsürlər oxuyordu. Yuxarıdaki bundan iləri gəliyordu.

Fəqət bu gün tamamən əksinədir. Məzuna buraxılan tələbələrimizin 85% -i köylü, füqəra və aşağı sinif kütlədəndir. Binaən-aliyə bu gün şəhadətnamə alan tələbələr artıq çar siyasətini yürütmək deyil, məzlum şərq proletarını maarif, elm yolu ilə iclas məfkurəsini daşıyacaqdır.

Əski məzunlar ilə şimdiki məzunlar arasında əhval-ruhiyyəcə başqalıqlar vardır. Böylə ki; onların ruhları düşkün, əzm və iradələri bozuk,[275] hatta sönük olurdu. Onların məziyyəti zahiri görkəm məktəb uniformasından başqa bir şey deyildi.

---

[274] pis, uğursuz
[275] xarab





Bu günki tələbələrimizə gəldikdə qəlblərində inqilab, yenə də inqilab hissi daşıyor. İnqilab əzmi və iradəsi coşuyor. İştə fərq. İştə yenilər. İştə əskilər.

Əvət, iyirmi yeddi tələbəmiz birər ataş, birər od yurdunun zəhmət quruluşu maarifinin ilk qəhrəmanı olacağını şimdidən söz verir. Və bunu yapacaqlarını bir daha təkrar ediyor.

*Yüzbaşıbəyli*

## Mümkündür

İnstitutun ikinci kursunda idim. Şimali Qafqaziyadan instituta fizik lektorluğuna dəvət olunan Rəhim Məlikovun yolunu bəkliyorduq. Ara-sıra nə vaxt gələcəyini soruyor: "Tezliklə gələr" cavabı ilə qane oluyorduq... Onu hər kəs tərif ediyordu.

Ali təhsil görmüş bir azərbaycanlının gəlib də Azərbaycanda işləməsinə qəlbən acıyordum...

Bir gün iş odasında işlərkən arkadaşlarımızdan birisi sevinclə: "Məlikov gəldi" deyə qışqırdı. Hamımız qələmləri atıb onu qarşılamağa qoşduq. Miltəəsüf, qarşımızdaki Məlikov deyildi. Məyus bir halda geri döndük...

O sənə onun gəlməsindən qəti ümid etmişdik.

Gələcək sənə-i tədrisiyyənin başlanğıcında, yəni 1923 sənəsi sentyabr ayında Bakıya gələrkən Məlikovu instituta gördüm. Leksiyalarına davam etdim. Kəndisilə sıxı əlaqədə bulundum və layiqilə tanıdım. Həqiqətən – istər məlumatca, istər insaniyyətcə - tərifə layiq bir şəxs imiş. Fəqət nə yapayım ki, onun barəsində düşündüklərimi yazı ilə ifadə edəməyəcəyim. Yalnız qısaca olaraq deyə bilərəm ki: "Möhtərəm müəllimimiz Məlikov gələcək türk darülfünununun o da bir ümididir. O bir şölədir ki, hələ ziyasını saçmamışdır. Azərbyacanın məzlum və qaranlıq guşələrini nurlandıracağına qəlbən inanıyorum".





Bununla məqsədim Məlikovu mədh etmək deyil. Yalnız Bakı darülfünununun milliləşməsinə bədbin nəzərlə baxanlara bildirmək istiyorum ki, Bakıda türk darülfünununda leksiya oxuyacaq müəllimlərimiz yox deyildir.

Sözümü bitirərək kəndim və arkadaşlarım tərəfindən möhtərəm Məlikova səmimi olan təşəkkürümüzü izhar ediyor və diyorum ki: yaşasın darülfünunmuzun milliləşməsində fəal olaraq iştirak edəcək ziyalılarımız.

**E.Tahiz**

***

Buludları hala sıx, zülmətləri pək koyu[276] ikən o səssizliklər içərisində sanki bir hiss qəbl al-vuku[277] ilə parlaq möhtəşəm bir günəş özlər, əskinin mühüm xatirələrindən qurtulmaq, istiqbalın şəşədar varlıqlarına doğru qoşmaq üçün bir rəhbər, bir naci[278] bəklər, bəklərdi[279].

İştə bu anda idi ki, qarşısında pəklər[280] ilə məhat[281], ətrafına göz qamaşdırıcı, işıqlar saçan gəlişi ilə buludlara, zülmətlərə yıldırımları, gurlamaları unutacaq dərəcədə müthiş, muhiş[282] vəlvələlər, əskiyə, maziyə[283] zəlzələlər salan fədakar və ələvi bir qüvvə görmüşdü. O da ey gənc müəllimlər, sizdiniz! – bundan qürur alan əsrlərlə qafil Xəzərin qərb sahili kəndi məhsulu ilə müftəxar[284] şərq sahili və tamam Şərq isə onu mütəaqib[285] yüksəlmək, yaşamaq, yürümək, bilmək istərlər.

---

[276] tünd
[277] əvvəlcədən hiss etmə
[278] qurtarıcı
[279] gözlərdi
[280] yaxşılar
[281] əhatələnmiş
[282] qorxunc
[283] keçmişə
[284] qürurlu
[285] təqib edən





Təbii, biz birlik və müavin sifətilə bu hallara biganə qalmayıb şu təbəddülat[286] qəhrəmanlarını səmimiyyətlə alqışlamaqla bu inqilabda iştirakımızı elan və salamımızla ərz-i şükran[287] edəriz.

**Bakı Darülmüəllimini**

---

[286] dəyişikliklər
[287] təşəkkür etmək

## Son vəd

### İnstitut müəssisinə ithaf

Məcmuənin bir çox yazıları toplanmış, hətta bir çoxları dizilmiş və yazılmışdı. Mən də bir şey yazayım deyə düşünüb dururdum. "Hissiyatın coşqunluğu - çox zamanlar küçük bir sükut ilə nəhayət bulur" deyərlər. İştə bu sükutun, havaları yararaq ta yüksəklərdə ehtizada gətirdiyi hatıralarını... bir an üçün düşününüz!

Daima o sükut hərarəti içində çalışan bir alın... Daha sonra üç sənəlik bir əzm və ümidin qutlu qullarını hatırlayınız!.. Qarşınızda "Vəzifə bitiriyorum..." deyə çağlayan-gurlayan ağı bir sədayı; sonra bir səssizlik hakimiyyəti içində bir təmkin bir baxışı, daha bilməm nələri...nələri dinləyiniz!..

İştə bütün bunlar bir xatirə mövzusu ola bilirdi" deyə yenə də düşünüyorum.

***

Əvət-bu kəlmə institutda son xatirəm idi- bütün buraya qədər yazılanlar bu müəssisəyə və bilxassə yaxın bizlərin; duyqularının, düşüncələrinin, xatirələrinin ancaq və ancaq pək az xassəsini göstərmiş olur. Daha nələr... daha nələr... yazıla bilirdi. Pək çox yazıldı, fəqət pək az göstərildi.





Bu yazılar gördüklərimizdən pək az, ümidlərimizdən pək küçük, məfkurələrimizdən pək geridir.

***

Əvət institut haqqında mənim də bir xatirəm var. İştə bu xatirə bütün buradaki müddət təhsilimdə hakim bir qüvvə yerini tutmuş və ən nəhayət, son və doğru vəd şərəfinə nail olmuşdur:

Həyatın o acılı yolları, tikanlı – yılanlı keçidləri ağır addımlar altında əzilir və qırılır. Bu addımların hər zərrəsini *insani fəzilətlər, əxlaqi bədiyyələr* təşkil edər... İştə bir az keçmədən bu yollar artıq çiçəklər, mənəkşələr[288] bəzənir, bir şeir, həm də bir şeir pərişan olur.

İnstitutun şu böyük divarları yanar qəlblərimizə; ağlar gönüllərimizə belə bunları duyurmaq; bu zərrələri içirmək, bizi bu yollardan keçirmək üçün kədərlər sıxıntılar və ən nəhayət, açıq və mübarək zövqlər, nəşələr verdi. Biz bunları daima anacağız.

***

Damarlarımıza aşıladığınız zərrələri, o müqəddəs vədiyyəyi mühafizə edəcək və zavallı türk-xalq kütləsinə, ruhundan doğan hisslər və həyəcanlarla birlikdə, yenə də sizin kimi aşılayacaq, təvdi[289] edəcəyiz.

***

Uzaq keçmişlərin sevimli xatirələri çırpınan aşiqlərin ümid piyaləsinə bənzər... O bizə... bizi və

[288] kəpənək
[289] vida

bizliyimizi tanıdır... İnstitutun ali idealları zehnlərə bürünəcək, o ölməyəcək və dediyiniz kimi proletar xalq kütləsini yaşadacaqdır.

*Ədəbiyyat şöbəsi məzunlarından*
***Musaxanlı Atababa***
*Bakı, 20 may 1924*





## Mündəricat


*F.A.Rüstəmov Pedaqoji İnstitutun ilk buraxılışı və ya üç illik tarixin salnaməsi* (Ön söz)................ 3

**Ali Pedaqoji İnstitutu tarixçəsi**

**Fətulla Rzabəyli.** Azərbaycan birinci dövlət Türk Ali Pedaqoji İnstitutunun açılış tarixçəsinə dair ................ 23

**A.Lukyanova.** Ünas Ali Pedaqoji İnstitutunun surət-i təşkili və davamı ................ 62

Nümunə məktəbinin tarixçəsi ................ 68

**Təşkilat və idarə işləri**

**Səfər Ramazanzadə.** Ali Pedaqoji İnstitutu tələbə təşkilatı.... 75

**Feyzi Məhəmmədzadə.** İnstitutun Kommunist Gənclər İttifaqı özəyi ................ 81

Nümunə məktəbinin təşkilat və idarəsi................ 85

**Tərbiyə və tədris işləri**

**İsmayıl Hikmət.** Ali Pedaqoji İnstitutu Ədəbiyyat şöbəsi nümunə dərsləri ................ 88

**Məhəmməd Əfəndizadə.** Ali Pedaqoji İnstitutu 1923-24 sənəsi hikmət-riyaziyyat şöbəsində riyaziyyatdan yapılan tətbiqat dərsləri haqqında izahat ................ 93

**E.Rəhimov.** Təbiət şöbəsində nümunə dərsləri................ 100

Ali Ünas Pedaqoji İnstitutu tərbiyə işləri................ 103

**Xəlil Fikrət.** Müvəffəqiyyətin sirləri................ 106

**İnstitutun gələcəyi**

**Nərimanov N.** Elmlərini yeni tamam etmiş müəllimlərə açıq məktub................ 110

**Quliyev M.** Məzunlara xitab ................ 112

**A.Əfəndizadə- Azaqbəyli.** İctimai həyatda ali pedaqoji təhsilin və azərilər üçün Azərbaycan Ali Pedaqoji İnstitutunun əhəmiyyəti ........ 114
**E.Rəhimov.** Doğru vədələr ........ 123
**Talıbzadə Abdulla Şaiq.** İnstitut və Azərbaycan ........ 125

**İşıqlığa doğru**

**Mirzə Möhsün** Məzun talibə və tələbələrə bir xatirə ........ 128
**Əfəndizadə Əbdülrəşid.** Məsul vəzifə qarşısında ........ 137
**H.Surxay.** Vəzifəmiz ........ 138

**Duyğular və xatirələr.**
**Bir xatirəcik**

**Tutayev F.** Ali darülmüəllimat məzunlarına ithaf ........ 142
**İsmayıl Novruzi.** Seviniyoruz ........ 147
**E.** Ön manqa ........ 149
**Qafur Rəşad.** Üç məzuniyyət ........ 150
**Heydər Verdyev.** Bir iki söz ........ 154
**Nəsir Quluzadə.** İlk fatehlərə ........ 156
**Cavad Cuvarlı.** Məzun müəllimlərə. ........ 157
**Xədicə Qazızadə Krimlı.** Məzun məsləkdaşlara ........ 159
**Sübhanverdi Xanzadə.** Gənc müəllimlərə ........ 162
Biz və əskilər ........ 164
**E.Tahiz.** Mümkündür ........ 166
Bakı darülmüəllimini ........ 168
**Musaxanlı Atababa.** Son vəd ........ 170



## Ali Pedaqoji İnstitutun salnaməsi

(Tərtib, transliterasiya, izahlar
və "Ön söz"ün müəllifi
**prof.F.A.Rüstəmov).**

"Elm və təhsil" nəşriyyatının direktoru:
*professor* **Nadir MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor:** Rövşanə Nizamiqızı

Çapa imzalanmış 06.08.2020
Şərti çap vərəqi 12,5. Sifariş № 287
Kağız formatı 84x108 1/16. Tiraj 500

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4

***Ali Pedaqoji İnstitutun ilk məzun günündə səslənən fikirlərdən***

Azərbaycan Şərq üçün bir məktəbdir, yəni Şərq hazırkı halında qalarsa, biz ona hər cəhətdən müəllim olacağız. Beş ildən sonra Türkiyə, İran, Əfqan üçün bizim müəllimlərimiz elm-fənn meydanında hazır olacaqlar.

***Nəriman Nərimanov***
***SSRİ Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin ZSFSR-dən 1-ci Sədri***

Pedaqoji İnstitut Azərbaycanda yeganədir. O, yalnız biz azərbaycanlıların deyil, bütün məhkum Şərq xalqlarının mədəni-maarif qayələrini təmin etməlidir.

***Mustafa Quliyev***
***Azərbaycan Xalq maarif komissarı***

Pedaqoji İnstitut Azərbaycanda Şərq institutu olaraq bütün türk ölkələrinə yanar məşəl kimi ziya saçacaqdır.

***Fətulla bəy Rzabəyli***
***Ali Pedaqoji Kişi İnstitunun ilk direktoru***

Biz istəyirik ki, məktəbimiz ümum türk ellərinin hüsn-rəğbətini qazansın, bütün Şərq elmi üçün inqilab məşəli olsun... "Oksford" və "Kembric" darülfünunları kimi Şekspirlər, Nyutonlar, Miller və Darvinlər yetişdirməyə müvəffəq olsun.

***A.Əfəndizadə-Azaqbəyli***
***Ali Pedaqoji İnstitutun məntiq müəllimi***